Xalqın qəzeti!

# Xalq qəzeti

№ 54 (30748) 12 mart 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Şimali Makedoniya ilə çoxtərəfli əməkdaşlıq qurulur

## Şimali Makedoniya Prezidentinin Azərbaycana rəsmi səfəri

### Bakıda qonağın rəsmi qarşılanma mərasimi

**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkovanın martın 11-də Bakıda rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Şimali Makedoniya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkovanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Şimali Makedoniya Prezidentinə raport verdi.

Şimali Makedoniya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkovanın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.





## Azərbaycandan Avropaya “yaşıl” enerji dəhlizi

**Son illər Avropa Birliyinin mötəbər enerji tərəfdaşı kimi mövqeyini xeyli gücləndirən Azərbaycan Respublikası dünyanın prioritet elan etdiyi “yaşıl keçid” platformasının da fəal iştirakçısına çevrilib. Buna isə ölkəmizin zəngin bərpaolunan enerji potensialı imkan yaradıb. Təsdiqlənmiş proqnozlara görə, Azərbaycanın quru ərazisində 37 qiqavatlıq külək və günəş enerjisi, Xəzər dənizinin ölkəmizə aid ekvatoriyasında isə 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Bütövlükdə isə, ölkəmizin bərpaolunan enerji sahəsində potensialı 200 qiqavata yaxın qiymətləndirilir.**



Hazırda Azərbaycan təbii qazının istisinə qızınan “köhnə qitə” ölkəmizin “yaşıl” potensialından da bəhrələnmək niyyətindədir. Elə dövlətimizin başçısı İlham Əliyevin də yeni enerji siyasətinin əsas istiqamətlərindən biri məhz Azərbaycanın Avropanın dekarbonizasiyasında fəal iştirakını təmin etməkdən ibarətdir. Bununla ölkəmiz, həm də Avropaya yeni enerji körpüsü salmaqla “köhnə qitə”nin mühüm elektrik enerjisi, əsasən də, “yaşıl” enerji təchizatçısına çevrilməyi hədəfləyir.

**(ardı 4-cü səhifədə)**

## Gündəmdə əsas məsələ: Regional təhlükəsizlik

**İordaniyanın paytaxtı Əmman şəhərində İraq, İordaniya, Livan, Suriya və Türkiyənin xarici işlər, müdafiə nazirliklərinin, Baş Qərargah və kəşfiyyat xidmətləri rəhbərlərinin görüşü keçirilib. Danışıqlarda təhlükəsizlik məsələləri, terrorizm, silah və narkotik qaçaqmalçılığına qarşı mübarizə, Suriyadakı vəziyyət müzakirə olunub.**

Görüşün yekununda tərəflər Suriyanın ərazi bütövlüyü və suverenliyini təmin etməklə yanaşı, ölkənin yenidən qurulmasına dəstək göstərmək barədə razılığa gəliblər. Eyni zamanda, təhlükəsizliyin təmin edilməsi, ekstremist qruplara qarşı birgə mübarizə və Suriya hökumətinin vəziyyətin sabitləşdirilməsinə yönəlmiş tədbirlərinin dəstəklənməsi sahəsində əməkdaşlığın gücləndirilməsi qərara alınıb.

Əsas qərarlardan biri birgə əməliyyat mərkəzinin yaradılması olub. Mərkəzin yaradılmasında Türkiyə, Suriya, İordaniya, İraq və Livan iştirak edəcək. Mərkəz məlumat mübadiləsi və terror təhlükəsinə qarşı əməliyyatların planlaşdırılması, habelə yaraqlıların saxlanma yerləri ilə bağlı məsələlərə baxılması ilə məşğul olacaq.

*(ardı 5-ci səhifədə)*

## İspan xalqının mandatı və hayların “təltifi”

*Con İnyarritunun ermənipərəst bəyanatlarının motivləri barədə*



**“Azərbaycanın təbliğat meydanına atdığı qondarma “Qərbi Azərbaycan” narrativi tarixi yenidən yazmaq, Dağlıq Qarabağın erməni əhalisinə qarşı etnik təmizləməyə və Ermənistandan yeni ərazilərin işğalına haqq qazandırmaq məqsədi daşıyır”.**

Bunu İspaniya parlamentinin üzvü Con İnyarritu “Armenpress”in müxbiri ilə söhbətində deyib. Azərbaycan Ermənistanın, demək olar ki, bütün ərazisini əhatə edən “Qərbi Azərbaycan”ın tələbi ilə tarixi yenidən yazmağa cəhd göstərdiyini bildirən İnyarritunun sözlərinə görə, “Azərbaycan bu cür bəyanatlarla Avropa İttifaqına diplomatik və siyasi təzyiqlər etməyə çalışır”.

*(ardı 5-ci səhifədə)*

## Revanşistlərin “absurd teatrı”

Səhifə ⇨ 8



## Brüssel bölgəyə “nəzarət edir”

Səhifə ⇨ 7



## “Tərəfsiz İsveçrə”nin tərəfkeş siyasəti

*Alp ölkəsi yeni “səlib yürüşü”nə də qoşulur*

**İsveçrə nə BMT-nin, nə də NATO-nun üzvüdür. Rəsmi izahat budur ki, bu təşkilatlarda iştirak İsveçrənin ənənəvi neytrallıq siyasətinə ziddir. Reallıqda isveçrəlilər, sadəcə olaraq, belə iddialı təşkilatlarda iştirakın “mənasız” olduğuna inanırlar.**

İsveçrə vaxtilə vahid Avropa iqtisadi zonasına qoşulmağa da “yox” demişdi. Ölkə əhalisi belə bir birliyə qoşulmağı kasıbların dərnəyinə getməyə bərabər hesab etmişdi. Yəni bu Alp adamları özlərini “qoca qitə”nin “sayılıb-seçilmiş, xüsusi missiyası olan xalqı kimi” qiymətləndirməyi sevir və neytral qalmalarından məmnunluqlarını gizlətmirlər. Amma son vaxtlar İsveçrə tərəfsizliyini pozur və Cənubi Qafqaz regionunda sülhə yox, gərginliyə töhfə verməyə çalışır. Görünür, “səlib yürüşləri”nin fəal iştirakçılarından olan isveçrəlilər indi də Ermənistana “arxa dayanmağa” can atırlar.



**(ardı 15-ci səhifədə)**

# Azərbaycan və Şimali Makedoniya prezidentlərinin dialoqu



**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova ilə təkbətək görüşü olub.**

# Prezidentlərin mətbuata bəyanatları



**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli xanım Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Xanım Prezident, Sizi bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Bu, Sizin Azərbaycana ikinci səfərinizdir. Mən çox şadam ki, Siz COP29 konfransında da fəal iştirak etmisiniz və konfransın uğurla keçirilməsinə öz töhfənizi vermisiniz.

Noyabr ayında görüş əsnasında mən Sizi Azərbaycana rəsmi səfərə dəvət etmişəm və şadam ki, mənim dəvətimi qəbul edib bu gün rəsmi səfərdəsiniz. Biz ikitərəfli münasibətlərimizin inkişafı üçün fəal iş aparırıq. Şadam ki, ölkələrimiz arasında siyasi dialoq dinamik xarakter alır. Bizim xanım Prezidentlə ikinci görüşümüz qısa müddət ərzində bunun əyani sübutudur. Siyasi əlaqələrimizin inkişafı üçün əlavə tədbirlər görülməlidir, müvafiq dövlət qurumları təbii olaraq sıx təmasda olmalıdırlar. Eyni zamanda, iqtisadi sahədə, sərmayə qoyuluşu sahəsində imkanlar araşdırılmalıdır. Əfsuslar olsun ki, bu günə qədər ticari-iqtisadi sahədə o qədər böyük nəticələr əldə edilməyib. Ancaq ümid edirəm ki, Sizin rəsmi səfərinizdən və nümayəndə heyətlərinin təmaslarından sonra biz bu boşluğu da dolduracağıq.

Son ayların müsbət əlaməti də ondan ibarətdir ki, iki ölkə energetika sahəsində əməkdaşlığa başlamışdır. Azərbaycan qazı artıq Şimali Makedoniyanın bazarına çatdırılmışdır və bu, keçən ilin sonlarında baş verdi, bu il artıq müntəzəm olaraq Azərbaycan sizin bazarınızı təbii qazla təmin edəcəkdir. Gələcəkdə biz lazım olan həcmdə qaz təchizatını artıra bilərik. Çünki biz bu gün yeni qaz yataqlarının istismara verilməsi istiqamətində fəal iş aparırıq. Bildirməliyəm ki, hazırda Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bizim müştərilərimizin coğrafi yerləşməsi də Avrasiya məkanını əhatə edir. On iki ölkədən 10 ölkə Avropa ölkəsidir. Keçən il Azərbaycan xarici bazarları 25 milyard kubmetr qaz ilə təchiz etmişdir. Təbii ki, bizim istehsalımız bundan daha çoxdur. Çünki biz yerli tələbatı da ödəyirik. Ancaq əhatə dairəsi, qaz təchizatımızın coğrafiyasının genişləndirilməsi də gündəlikdə duran məsələdir. Avropa Azərbaycan qazına ehtiyac duyur. Təxminən üç il bundan əvvəl Bakıda imzalanmış Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq Bəyannaməsi bunun əyani təzahürüdür. Bu gün Azərbaycan qazı bir çox Avropa ölkəsinin enerji təhlükəsizliyini təmin edir və Avropadakı tərəfdaşlarımızın xahişlərinə biz hər zaman böyük diqqətlə yanaşmışıq. Yəni, energetika sahəsində ikitərəfli formatda əməkdaşlıq bizim üçün çox önəmlidir və mən ümid edirəm ki, bu praktiki əməkdaşlıq digər sahələrdə də əməkdaşlığa gətirib çıxaracaq.

Mən xatırlayıram ki, keçən səfəriniz çərçivəsində Siz Azərbaycanın mədəni həyatı ilə də tanış olmusunuz və bilirəm, sabahkı proqramınızda da buna oxşar tədbirlər var. Biz bunu çox müsbət qarşılayırıq, bunu alqışlayırıq. Xalqlarımızın humanitar sahədə əməkdaşlığına da böyük ehtiyac var. Şadam ki, Siz, eyni zamanda, XII Qlobal Bakı Forumunda iştirak edəcəksiniz. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunan bu Forum dünya miqyasında layiqli yerini tuta bilib. Əlbəttə ki, Sizin dəyərli fikirləriniz, tövsiyələriniz hamı üçün maraqlı olacaq. Siz bizim tələbələrimizlə də görüşəcəksiniz. Buna görə də Sizə təşəkkürümü bildirirəm.

Sizin siyasi və dövlət xadimi kimi çox böyük təcrübəniz var. Siz beynəlxalq təşkilatlarda yüksək vəzifələrdə çalışmısınız, eyni zamanda, ölkənizdə müxtəlif mərhələlərdən keçərək ən yüksək vəzifəyə layiq görülmüsünüz. Ona görə Sizin dəyərli fikirləriniz hamımız üçün çox maraqlı ola bilər.

Xanım Prezident, Sizi bir daha səmimiyyətlə salamlayıram, xoş gəlmisiniz. Əminəm ki, səfəriniz uğurlu olacaqdır.

*

Sonra Şimali Makedoniyanın Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Qordana Silyanovska-Davkovanın bəyanatı

– Sağ olun.

Əvvəlcə, hörmətli Prezident Əliyev, hörmətli mətbuat nümayəndələri, qısa müddətdən sonra Bakıya səfər etmək fürsətinə görə minnətdaram. Mədəniyyət diplomatiyasının gücünə dərindən inanan bir şəxs kimi cənab Prezidentə söylədim ki, mən həqiqətən buraya yenidən gəlməyimi arzulayırdım. Bununla belə, mən məlumatım olmadığı bəzi məsələləri də artıq müzakirə etdim.

Ölkəniz müsəlman Şərqində ilk cümhuriyyət qurmuşdur, eləcə də ilk opera, ilk filarmoniya məhz burada yaradılmışdır. Bu ölkə öz zəngin mədəniyyəti ilə seçilir. Ötən dəfə söylədiyim kimi, ilk dəfə ziyarət edə bilmədiyim muzeylərə bu dəfə gedəcəyəm. Bu fürsətə görə Sizə təşəkkürümü bildirirəm.

Prezident artıq söylədi ki, əgər belə qısa müddət ərzində bir insanla yenidən görüşürsənsə, deməli, aydındır ki, bunun yaxşı əsasları var. Fikrimcə, bu bir faktdır ki, Azərbaycan beynəlxalq münasibətlərdə çox fəaldır. Sonuncu görüş zamanı burada iqlim konfransı təşkil edilmişdi. İndi isə növbəti dəfə tədbir keçiriləcək və orada dünyanı narahat edən əsas çağırışlar müzakirə olunacaq. Bu da yaxşı fürsətdir, çünki bu il biz ölkələrimiz arasında diplomatik münasibətlərimizin otuzuncu ildönümünü qeyd edirik. Düşünürəm ki, həmin tarixin bu görüşlə üst-üstə düşməsi yaxşı haldır.

Cənab Prezident Azərbaycanla strateji tərəfdaşlıqda Avropa İttifaqının marağı haqqında artıq danışdı. Azərbaycan nəinki beynəlxalq geosiyasi səhnədə mühüm yerləşməsi ilə seçilir, o cümlədən bizim kimi kiçik ölkələrin ehtiyac duyduğu təbii qaz, bərpaolunan enerji baxımından çox maraqlı tərəfdaşa çevrilir. Mən cənab Prezidentə söylədiyim məsələləri bir daha vurğulayıram ki, biz irəliyə doğru addımın atılmasını gözləyirik və əməkdaşlığa dair bəyannaməyə və ya razılaşmaya imza atacağıq. Bu, o demək deyil ki, biz yalnız qaz təchizatında Azərbaycandan yardım alacağıq, o cümlədən iqtisadi əməkdaşlıq üçün də imkanlar yaranacaq.

Mən qarşımda xarici işlər nazirini görürəm, biz dərhal diplomatik və xidməti pasport sahibləri üçün viza tələbinin tətbiqi kimi təəccüblü bir vəziyyətə son qoyacağıq. Zənnimcə, bu, nə Şimali Makedoniyanı, nə də Azərbaycanı qane edən vəziyyət deyil və bu addımın atılması iki xalq arasında yaxınlaşmaya xidmət edəcəkdir. Ümid edirəm ki, biz Azərbaycanın mədəniyyətini də tanımağa davam edəcəyik. Bundan əlavə, elm sahəsində də universitetlərimiz arasında əməkdaşlığın qurulmasına nail ola bilərik.

Azərbaycan hətta təyyarədən belə çox gözəl görünür, ölkəniz ilə əyani tanışlıqda isə o, insanı valeh edir. Bu səbəbdən turizm sahəsi də əməkdaşlıq edə biləcəyimiz sahələrdəndir.

Artıq qeyd etdiyimiz kimi, bu günədək iqtisadiyyat sahəsində əhəmiyyətli addımlar atılmamışdır. Coğrafi mövqeyimizə görə biz Balkanlarda, Avropanın mərkəzində, bir sıra marşrutların kəsişməsində yerləşirik. Bu, Avropaya və dünyaya açıq olan hər bir ölkə üçün olduqca vacibdir.

Sonuncu dəfə ölkənizdə olarkən bu fikri söyləmişdim və bu gün də təkrar bəyan etmək istəyirəm ki, biz bir-birimizdən bir çox şey öyrənə bilərik və bu səfər dərin dostluğun təməli olacaqdır. Mən təkcə Dövlət Neft Şirkəti ilə müqaviləni nəzərdə tutmuram. Hesab edirəm ki, gələcəkdə əldə olunan bütün razılaşmalar bizi daha da yaxınlaşdıracaq.

Cənab Prezidentə söylədiyim sonuncu fikir ondan ibarət idi ki, XXI əsrdə yenidən dünya nizamı ilə bağlı fərziyyələrin irəli sürülməsi insanı sarsıdır. Ukrayna da daxil olmaqla, bu geniş region dünyada cərəyan edən hadisələrin özəyini təşkil edir və müxtəlif tərəflər bu regionda təsir gücünə malik olmaq istəyir. Zənnimcə, Avropa yenidən qapılarını açır və Sizin nailiyyətləriniz sayəsində biz gələcək əməkdaşlığımızı davam etdirə bilərik.

Səmimi qonaqpərvərliyə və fikir mübadiləsinin aparılması fürsətinə görə Sizə təşəkkür edirəm. Ümid edirəm ki, qarşıdakı illərdə biz daha güclü əməkdaşlığa nail ola biləcəyik. Bu məqamda mən Strateji Əməkdaşlığa dair Sazişi qeyd etmək istəyirəm. Belə bir Saziş region ölkələri ilə imzalanıb və mən müvafiq Sazişin Azərbaycanla da imzalanması üçün heç bir maneə görmürəm.

Diqqətinizə görə sağ olun.

# Prezident İlham Əliyevin Şimali Makedoniya Prezidenti ilə geniş tərkibdə görüşü



**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova ilə lanç əsnasında geniş tərkibdə görüşü olub.**

# E.R.İbrahimovun 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Eldar Rza oğlu İbrahimov 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 mart 2025-ci il**

# Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi”ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 665, № 7, maddə 806, № 8, maddə 938; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 fevral tarixli 327 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi”nə aşağıdakı məzmunda 3.0.17-1-ci yarımbənd əlavə edilsin:

“3.0.17-1. üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi çərçivəsində əmlakın satılmasına, icarəyə və ya idarəetməyə verilməsinədək əmlaka qulluqla əlaqədar tədbirləri və üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsini təşkil etmək, habelə əmlakın idarə edilməsi ilə bağlı rəy vermək;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 mart 2025-ci il**

# “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Texniki təhlükəsizlik haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Texniki təhlükəsizlik haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, “Texniki təhlükəsizlik haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 3-cü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. aşağıdakı normativ hüquqi aktları iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.1. təhlükə potensiallı obyektlərin siyahısını;

2.1.2. təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması qaydasını;

2.2. “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Texniki təhlükəsizlik haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** “Texniki təhlükəsizlik haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 2 fevral tarixli 269 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 84 (Cild I) 2-ci hissəsində “bu Qanunun 2-ci maddəsinin 2-ci və 3-cü hissələrində” sözləri “Texniki təhlükəsizlik haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci hissəsində və 3-cü hissəsinin ikinci cümləsində” sözləri ilə əvəz edilsin.

**4.** “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 847 (Cild I); 2024, № 8, maddə 938) 1.6.20-ci və 1.6.21-ci yarımbəndlərində “təhlükə potensiallı” sözləri “xüsusi riskli” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 mart 2025-ci il**

# “Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292 (Cild I) ilə təsdiq edilmiş “Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2.15-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.2.15. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsin Nizamnaməsi”;”;

1.2. 3.2.2-ci yarımbənddə “Nazirliyi yanında” sözləri “Nazirliyinin tabeliyində” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 dekabr tarixli 1169 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2087 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə”nin 5.2-ci bəndinin ikinci cümləsində “Nazirliyi yanında” sözləri “Nazirliyinin tabeliyində” sözləri ilə əvəz edilsin.

**3.** “Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyində “Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi” publik hüquqi şəxsin yaradılması ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 fevral tarixli 1223 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 167 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**4.** “Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5-ci hissədən “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin işçilərinin say həddi 48 ştat vahidi,” sözləri çıxarılsın;

4.2. 8-ci hissə ləğv edilsin;

4.3. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturu”nun 4-cü hissəsi ləğv edilsin.

**5.** “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 90 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 958 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364) ilə təsdiq edilmiş “Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı”nın 13-cü hissəsinin “Göstərdiyi xidmətlər” sütununa aşağıdakı məzmunda 19-cu bənd əlavə edilsin:

“19. mülki aviasiya sahəsində beynəlxalq müqavilələrə uyğun olaraq sənədlərin verilməsi”.

**7.** “Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197) aşağıdakı dəyişikliklər edilsin:

7.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə 1 – “Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı” üzrə:

7.1.1. 28-ci hissə ləğv edilsin;

7.1.2. aşağıdakı məzmunda 29.10-2-ci bənd əlavə edilsin:

“29.10-2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyinin İdarə Heyətinin sədri;”;

7.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə 3 – “Mobil xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı” üzrə:

7.2.1. 27-ci hissə ləğv edilsin;

7.2.2. aşağıdakı məzmunda 29.2-1-ci bənd əlavə edilsin:

“29.2-1. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyinin İdarə Heyətinin sədri;”.

**8.** “Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı”nın və “Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1047 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) aşağıdakı dəyişikliklər edilsin:

8.1. həmin Fərmanla təsdiq edilmiş “Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası”nın 3.1-ci bəndində “yanında” sözü “tabeliyində” sözü ilə əvəz edilsin;

8.2. həmin Fərmanla təsdiq edilmiş “Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı”nın 4.2.4-cü yarımbəndi aşağıdakı redaksiyada verilsin:

“4.2.4. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsin Nizamnaməsi”;”.

**9.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 23 yanvar tarixli 289 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı”na aşağıdakı məzmunda 17-3-cü hissə əlavə edilsin:

“17-3. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 mart 2025-ci il**

# Qordana Silyanovska-Davkovanın ADA Universitetində tələbələrlə görüşü



**Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova martın 11-də ADA Universitetində tələbələrlə görüşüb.**

Qordana Silyanovska-Davkova çıxışında iki ölkə arasındakı dostluq əlaqələrinin gücləndirilməsinin əhəmiyyətini vurğulayıb. O, Azərbaycan və Şimali Makedoniya arasında geniş əməkdaşlıq potensialının olduğunu qeyd edərək, xüsusilə təhsil, iqtisadiyyat və mədəni sahələrdə əlaqələrin inkişafına diqqət çəkib.

Daha sonra Prezident regiondakı geosiyasi vəziyyət, Şimali Makedoniyanın beynəlxalq əməkdaşlıq məsələləri ilə bağlı fikirlərini bölüşüb. O, ölkəsinin Avropa ilə əlaqələrinin möhkəmləndirilməsinə dair atılan addımlardan danışıb və Azərbaycanın beynəlxalq arenada artan rolunu yüksək qiymətləndirib.

Görüş interaktiv şəkildə davam edib və Prezident Qordana Silyanovska-Davkova tələbələrin suallarını cavablandırıb.

Gənclərlə açıq dialoq aparan dövlət başçısı onların gələcək planları, təhsil imkanları və ikitərəfli münasibətlərin perspektivləri ilə maraqlanıb.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

# Şimali Makedoniya Prezidenti Ulu öndərin xatirəsini anıb



**Ölkəmizdə rəsmi səfərdə olan Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova martın 11-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

# Qonaq Zəfər parkını ziyarət edib



**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova martın 11-də Bakıda Zəfər parkını ziyarət edib.**

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Şimali Makedoniya Prezidenti Zəfər abidəsinin önünə əklil qoydu.

Sonra ali qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi. Bildirildi ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

Xatırladaq ki, parkın açılışı 2024-cü il noyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə olub.

# Azərbaycanın xarici işlər naziri Qazaxıstanda



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qazaxıstana rəsmi səfəri çərçivəsində martın 11-də Prezident Kasım-Jomart Tokayevlə görüşüb.**

Ceyhun Bayramov ötən ilin dekabrında “Azərbaycan Hava Yolları”na məxsus sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar göstərilən operativ və hərtərəfli dəstəyə görə Qazaxıstanın dövlət başçısına minnətdarlığını ifadə edib.

Xalqlarımız arasında tarixi qardaşlıq, birgə adət-ənənə, mədəniyyət və dil ortaqlıqları, eləcə də dövlət başçılarımız arasında qarşılıqlı hörmət və etimada əsaslanan açıq, səmimi münasibətlər fonunda Azərbaycan–Qazaxıstan strateji tərəfdaşlıq əlaqələrinin nümunəvi xarakter daşıdığı bildirilib.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı dəstək, həmrəylik və birgə təşəbbüslərə əsaslanan əməkdaşlığın təqdirəlayiq olduğu bildirilib.

Ötən ilin noyabrında Azərbaycanın uğurla ev sahibliyi etdiyi COP29-da Qazaxıstan dövlət başçısının iştirakına görə təşəkkür ifadə olunub, rəsmi Astananın ölkəmiz tərəfindən irəli sürülmüş təşəbbüslərə qoşulması yüksək qiymətləndirilib.

*

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Qazaxıstan Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu ilə də görüşüb.**

Nazirlər arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib. Tərəflər Azərbaycan–Qazaxıstan strateji tərəfdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluqlarını bildirib, ötən il Azərbaycan Prezidentinin Qazaxıstana iki, Qazaxıstan Prezidentinin isə ölkəmizə üç səfərinin ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsinin göstəricisi olduğu bildirilib.

İki ölkə arasında siyasi, iqtisadi, ticarət, nəqliyyat, kommunikasiyalar, humanitar və s. istiqamətlər üzrə əməkdaşlıq perspektivləri müzakirə olunub. Nazir Ceyhun Bayramov qardaş ölkələr, o cümlədən Qazaxıstanla əlaqələrin bütün sahələrdə gücləndirilməsinin xarici siyasətimizin prioritetlərindən olduğunu qeyd edib.

Nəqliyyat-kommunikasiya istiqamətlərinə gəlincə, Orta Dəhlizin ayrılmaz komponenti olan Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu çərçivəsində əməkdaşlığın genişləndirilməsinin, habelə “Rəqəmsal İpək Yolu” layihəsinin əsas hissəsi olan Bakı ilə Aktau arasında inşası planlaşdırılan “Xəzər dənizinin dibi ilə fiber-optik kabel magistralı” layihəsinin Azərbaycan–Qazaxıstan əməkdaşlığının daha dinamik xarakter almasına xidmət edəcəyinə əminlik ifadə olunub.

Görüşün sonunda nazirlər nazirliklər arasında 2025-2026-cı illər üzrə fəaliyyət planını imzalayıblar.

*

Həmin gün Ceyhun Bayramov Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbay və quruma üzv dövlətlərin səfirləri ilə də görüşüb.

Görüşdə Azərbaycanın AQEM-ə sədrliyindən irəli gələn məsələlər və sədrliyin prioritetləri, AQEM çərçivəsində müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkəmizin AQEM sədrliyinin əsas prioritetlərindən bəhs edib. O, üzv ölkələrin yerləşdikləri mühüm coğrafi mövqeni nəzərə alaraq, nəqliyyat və kommunikasiyalar sahələri üzrə əməkdaşlığın geniş perspektivlərinin olduğunu bildirib.

# Şimali Makedoniyada Azərbaycan qazı alovlanır

*Balkan ölkəsi ilə çoxtərəfli əməkdaşlığa da meydan açılır*

**Azərbaycan hazırda beynəlxalq aləmdə etibarlı tərəfdaşlığını daha da möhkəmlətmək üçün ayr-ayrı dövlətlərlə münasibətlərin dinamik inkişafına xüsusi əhəmiyyət verir. Prezident İlham Əliyevin təkcə son vaxtlarda bir sıra ölkələrin rəsmi şəxslərini respublikamıza səfərləri çərçivəsində qəbul edərkən səsləndirilən fikirlər, eləcə də dövlətimizin başçısına ünvanlanan təbrik məktublarında, telefon zənglərində ifadə olunan münasibətlər yuxarıda qeyd olunanları bir daha təsdiqləyir. Bu, əslində, Prezident İlham Əliyevin haqq-ədalət uğrunda mübarizəsinin təntənəsi, yürütdüyü müstəqil siyasətin məntiqi nəticəsi kimi diqqət çəkir.**



Azərbaycanın uğurlu xarici siyasətinin nəticəsidir ki, bu gün aparıcı mövqeyə malik olan dünyanın nüfuzlu dövlətlərinin, eləcə də beynəlxalq və regional təşkilatların bir çoxu beynəlxalq münasibətlər sistemində respublikamızın tərəfdaşı kimi çıxış edir. Həmin qurumlar sırasında dünyanın siyasi və iqtisadi həyatında, habelə beynəlxalq münasibətlər sistemində xüsusi diqqət çəkən Şimali Makedoniya da mühüm yer tutur.

Azərbaycan və Şimali Makedoniya arasında ikitərəfli münasibətlərin inkişafı son illər ərzində xeyli sürətlənib. Əməkdaşlıqda siyasi dialoq dinamik xarakter alıb, siyasi əlaqələrin inkişafı üçün əlavə tədbirlər görülüb. Eyni zamanda, iqtisadi sektorda, sərmayə qoyuluşu sahəsində imkanlar araşdırılaraq müvafiq qərarlar qəbul edilib. Əlamətdar haldır ki, iki ölkə tərəfindən energetika sahəsində səmərəli əməkdaşlığa başlanılıb. Azərbaycan qazı artıq Şimali Makedoniyanın bazarına çatdırılıb. Gələcəkdə respublikamızın dost ölkəyə lazım olan həcmdə qaz təchizatını artırması nəzərdə tutulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatında bu barədə ətraflı məlumat verib: “Azərbaycan bu gün yeni qaz yataqlarının istismara verilməsi istiqamətində fəal iş aparır. Bildirməliyəm ki, hazırda Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bizim müştərilərimizin coğrafi yerləşməsi də Avrasiya məkanını əhatə edir. On iki ölkədən 10 ölkə Avropa ölkəsidir. Keçən il Azərbaycan xarici bazarları 25 milyard kubmetr qaz ilə təchiz etmişdir. Təbii ki, bizim istehsalımız bundan daha çoxdur. Çünki biz yerli tələbatı da ödəyirik. Ancaq əhatə dairəsi, qaz təchizatımızın coğrafiyasının genişləndirilməsi də gündəlikdə duran məsələdir. Avropa Azərbaycan qazına ehtiyac duyur”.

Dövlətimizin başçısı daha sonra, təxminən, 3 il bundan əvvəl Bakıda imzalanmış Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq Bəyannaməsinin bunun əyani təzahürü olduğunu bildirib. Ölkə rəhbəri bu gün Azərbaycan qazının bir çox Avropa ölkəsinin enerji təhlükəsizliyini gerçəkləşdirdiyini və Avropadakı tərəfdaşlarımızın xahişlərinə hər zaman böyük diqqətlə, həssaslıqla yanaşıldığını vurğulayıb. “Yəni, energetika sahəsində ikitərəfli formatda əməkdaşlıq bizim üçün çox önəmlidir və mən ümid edirəm ki, bu praktiki əməkdaşlıq digər sahələrdə də əməkdaşlığa gətirib çıxaracaq”, – deyə Azərbaycan lideri qeyd edib.

Şimali Makedoniyanın Prezidenti Qordana Silyanovska-Davkova isə bəyanatında Azərbaycanın müsəlman Şərqində ilk cümhuriyyət quran ölkə olduğunu, eləcə də ilk opera, ilk filarmoniyanın məhz burada yaradıldığını vurğulayıb. Azərbaycanın öz zəngin mədəniyyəti ilə seçildiyini xatırladan Şimali Makedoniya rəhbəri Azərbaycanın beynəlxalq münasibətlərdə çox fəal olduğunu, sonuncu görüş zamanı burada iqlim konfransının təşkil edildiyini, indi isə növbəti dəfə tədbir keçiriləcəyini və orada dünyanı narahat edən əsas çağırışların müzakirə olunacağını diqqətə çatdırıb. “Bu da yaxşı fürsətdir, çünki bu il biz ölkələrimiz arasında diplomatik münasibətlərimizin otuzuncu ildönümünü qeyd edirik. Düşünürəm ki, həmin tarixin bu görüşlə üst-üstə düşməsi yaxşı haldır”, – deyə Qordana Silyanovska-Davkova vurğulayıb.

Şimali Makedoniyanın Prezidenti bəyanatında iki ölkə arasında səmimi münasibətlər olmasına baxmayaraq, əlaqələrin daha da güclənməsi üçün hələ çox iş görülməsinin zəruriliyini də diqqətə çatdıraraq deyib: “Bu günədək iqtisadiyyat sahəsində əhəmiyyətli addımlar atılmamışdır. Coğrafi mövqeyimizə görə biz Balkanlarda, Avropanın mərkəzində, bir sıra marşrutların kəsişməsində yerləşirik. Bu, Avropaya və dünyaya açıq olan hər bir ölkə üçün olduqca vacibdir.

Sonuncu dəfə ölkənizdə olarkən bu fikri söyləmişdim və bu gün də təkrar bəyan etmək istəyirəm ki, biz bir-birimizdən bir çox şey öyrənə bilərik və bu səfər dərin dostluğun təməli olacaqdır. Mən təkcə Dövlət Neft Şirkəti ilə müqaviləni nəzərdə tutmuram. Hesab edirəm ki, gələcəkdə əldə olunan bütün razılaşmalar bizi daha da yaxınlaşdıracaq”.

Yeri gəlmişkən, son illər Azərbaycan–Şimali Makedoniya iqtisadi əlaqələrinin genişləndirilməsi sahəsində də müyyən tədbirlər həyata keçirilir. Bu da iki ölkə arasında ticarət dövriyyəsinin artırılması üçün geniş imkanlar yaradır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2005-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi cəmi 238 min ABŞ dolları təşkil etdiyi halda, 2023-cü ildə bu rəqəm 1 milyon 564,5 min dollara çatdırılıb. Bunun da 1 milyon 553,4 min dolları idxalın, 11,1 min dolları isə ixracın payına düşüb. 2024-cü ilin sonlarından etibarən isə Azərbaycan Şimali Makedoniyaya təbii qaz ixracına başlayıb. Bu da iki ölkə arasında ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin yanvar ayında Azərbaycana Şimali Makedoniyadan 389 min ABŞ dolları dəyərində məhsul idxal edilib. Bu ölkədən idxal ötən ilin eyni dövrü ilə müqayisədə 221 min dollar və ya 2,3 dəfə çoxalıb. Yanvar ayında Azərbaycana Şimali Makedoniyadan 168 min dollar dəyərində məhsul idxal olunub.

***XQ***

# Azərbaycandan Avropaya “yaşıl” enerji dəhlizi

**(əvvəli 1-ci səhifədə)**

Artıq istər Azərbaycan, istərsə də ölkəmizin bərpaolunan enerji ehtiyatlarına müştəri düşən ölkələr bu hədəfə addım-addım yaxınlaşmaqdadır. Bunun isə yaxın illərdə reallaşacağı şübhəsizdir. Çünki bu istiqamətdə artıq ilk ciddi addımların atılmasına başlanılıb. Məlum olduğu kimi, 2022-ci il dekabrın 17-də Buxarestdə “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” imzalanıb. Azərbaycanın “yaşıl” enerjisinin Avropaya çatdırılmasını nəzərdə tutan həmin sazişə əsasən, Qara dənizin dibi ilə 4 qiqavat gücündə və 1195 kilometr uzunluğunda elektrik enerjisi kabelinin tikintisi nəzərdə tutulur. Həmin kabel Azərbaycanda hasil edilən “yaşıl” enerjini Gürcüstan və Qara dəniz vasitəsilə Macarıstana və Avropanın qalan hissəsinə çatdırmaq üçün Rumıniyaya tədarük edəcək. Bu da ölkəmizdə istehsal olunan “yaşıl” enerjini Avropaya ixracına imkan yaradacaq. Beləliklə də, Azərbaycan “köhnə qitə”nin enerji təhlükəsizliyini daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək.

2024-cü il sentyabrın 3-də 4 ölkənin sistem operatorları – “AzərEnerji” ASC, “Gürcüstan Dövlət Elektrosistem”, “Transelectrica”, MVM arasında Birgə Müəssisənin Buxarest şəhərində yaradılmasını nəzərdə tutan “Səhmdar Müqaviləsi” imzalanıb. “Yaşıl” enerji infrastrukturunun tikintisinin 3-4 il ərzində başa çatdırılacağı nəzərdə tutulur. Avropa Komissiyası isə layihəyə 2,3 milyard avro ayırmağı planlaşdırır.

Dünyanın bir sıra tanınmış ekspertləri də Avropanı “yaşıl” enerji ilə təmin etmək üçün Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsinin həyata keçirilməsi Azərbaycanın etibarlı enerji təchizatçısı kimi rolunu gücləndirilməsinə, Avropa və Qafqaz regionunda enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, bərpaolunan enerji sektorunun inkişafına və tranzit imkanlarının artırılmasına töhfə verəcəyi qənaətindədirlər. Onlar hesab edirlər ki, bu anlaşma Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin güclənməsi, təchizat mənbələrinin şaxələndirilməsi, Xəzərdə bərpaolunan enerji istehsalı potensialının kapitallaşdırılması ilə bağlı dörd ölkə arasında əməkdaşlığın əsasını qoyacaq.

Martın 10-da Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən “Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında “yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in icrası məqsədilə 10-cu Nazirlər/Rəhbər Komitənin iclası, imzalanan sənədlər də bu baxımdan müstəsna əhəmiyyət daşıyır.

Xəbər verildiyi kimi, Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto, Gürcüstan Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili, Rumıniyanın energetika naziri Sebastian-İoan Burduja və Bolqarıstanın energetika naziri Jeço Stankov, eləcə də Avropa Komissiyası, Birgə Müəssisə (GECO Power Company) və “Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti”nin (CESİ) nümayəndələrinin iştirak etdikləri iclasda ölkəmizin bərpaolunan enerji potensialının inkişafı, “Xəzər – Qara dəniz – Avropa Yaşıl Enerji Dəhlizi” layihəsi üzrə irəliləyişlər və perspektivlər nəzərdən keçirilib. Toplantıda “Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti”nin fəaliyyəti, qurum tərəfindən həyata keçirilən texniki-iqtisadi əsaslandırmanın cari vəziyyəti, Bolqarıstanın layihəyə cəlbi və layihənin maliyyələşdirilməsi üzrə Avropa İttifaqı ilə əməkdaşlıqla bağlı məsələlər müzakirə edilib.




Energetika naziri Pərviz Şahbazov çıxışında Xəzər dənizinin Azərbaycan seqmentində müəyyən edilmiş 4 sahədə külək enerjisi üzrə bir sıra beynəlxalq şirkətlərlə müvafiq müqavilə sənədləri üzərində işlər aparıldığını bildirib. Yeri gəlmişkən, Xəzər dənizinin Azərbaycan sektorunun külək enerjisi potensialı ilə zənginliyi bütün dünyaya məlumdur. Mütəxəssislər dənizin ölkəmizə aid hissəsi üzrə külək enerjisinin ümumi texniki potensialını 157 qiqavat həcmində qiymətləndirirlər. Bunun da 35 qiqavatı dənizin dayaz, 122 qiqavatı isə dərin sulu hissələrinin payına düşür. Bu fakt artıq beynəlxalq enerji qurumları tərəfindən də öz təsdiqini tapıb.

Təsadüfi deyil ki, Ümumdünya Külək Enerjisi Şurasının “Global Wind Report 2022” adlı hesabatında dənizdə külək enerjisi sahəsində yeni bazarların kəşf edilməsi çərçivəsində dörd ölkənin – Şri Lanka, Azərbaycan, Avstraliya və Türkiyənin adı önə çəkilib. Göründüyü kimi, sözügedən hesabatda Azərbaycan külək enerjisi potensialına görə bu ölkələr arasında ikinci yerdə qərarlaşıb. Qurumun hesablamalarına görə, Avstraliyanın dənizdə külək enerjisi potensialı 4 min 963 qiqavat, Azərbaycanın imkanları 157 qiqavat, Şri-Lankanın potensialı 92 qiqavat, Türkiyənin imkanları isə 70 qiqavatdır.

Artıq ölkəmiz bərpaolunan enerji mənbələrinin hərəkətə gətirilməsi istiqamətində bir sıra uğurlara imza atıb. Təkcə onu qeyd etmək kifayətdir ki, 2024-cü ildə Azərbaycanın “yaşıl” enerji mənbələri üzrə elektrik enerjisi istehsalı əvvəlki ilə nisbətən 1 milyard 728,7 milyon kilovat-saat artaraq 3 milyard 850,9 milyon kilovat-saata çatıb. Təmiz enerjinin 3 milyard 11 milyon kilovat-saatı su elektrik stansiyalarının, 839,9 milyon kilovat-saatı isə bərpaolunan enerji mənbələrinin payına düşüb. İl ərzində ölkənin günəş elektrik stansiyalarında 556,3 milyon kilovat-saat, külək elektrik stansiyalarında 51,1 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 232,5 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Yeri gəlmişkən, bərpaolunan enerji istehsalının kəskin artması 2023-cü ilin oktyabr ayında istifadəyə verilmiş 230 meqavatlıq “Qaradağ” Günəş Elektrik Stansiyasının ahəngdar rejimdə çalışması ilə bağlı olub.

Yaxın illərdə isə bərpaolunan enerji mənbələrinin hərəkətə gətirilməsi üçün ölkəmizdə yeni “yaşıl” güclər istifadəyə veriləcək. Bu il 240 meqavatlıq sənaye miqyaslı “Xızı – Abşeron” Külək Elektrik Stansiyası istifadəyə veriləcək. İlkin hesablamalara görə, stansiyada ildə 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Bu isə il ərzində 220 milyon kubmetr təbii qaza qənaət etməyə, 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa imkan verəcək. Bununla yanaşı, növbəti iki il ərzində Biləsuvarda 445 meqavatlıq, Neftçalada 315 meqavatlıq, Cəbrayılda 240 meqavatlıq və Qobustanda 100 meqavatlı günəş, Bakı – Şamaxı yolunun üstündə 240 meqavatlıq Abşeron – Qaradağ külək elektrik stansiyaları istismara daxil ediləcək.

Bütün bu layihələrin icrası isə ölkəmizin “yaşıl enerji” potensialını artıracaq və bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası baxımından əhəmiyyətli nəticələr əldə etməyə imkan verəcək.

Ölkəmizin Dünya Bankının üzvü olan Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlığı çərçivəsində “Azərbaycanda dənizdə külək enerjisindən istifadənin inkişafı üzrə Yol Xəritəsi” hazırlanıb. Sənəddə qeyd olunduğu kimi, Azərbaycan 2040-cı ilədək dəniz küləyindən enerji hasilatı üçün 7 qiqavat qoyuluş gücünə nail ola bilər. Bununla da, ölkənin dekarbonlaşma və dayanıqlı iqtisadi artım kimi paralel prioritetlərinin icrası sürətlənər. Ümumilikdə, Azərbaycanda ilk dəfə hazırlanmış dəniz külək enerjisi üzrə Yol Xəritəsi iki artım ssenarisini (yüksək və kiçik artım) nəzərdə tutur.

Yol Xəritəsində dəniz külək energetikası potensialının istifadəsi məqsədilə tədbirlər də təqdim edilir. Həmin tədbirlərin sırasına 2030 və 2036-cı illər üçün 200 meqavat gücündə pilot layihəsinin, sonra isə bu qəbildən olan daha iri təşəbbüslərin işlənib hazırlanması və rəqabətli müsabiqə şəraitində tikilməsi, istifadəyə verilməsi, dəniz küləyi üçün yeni perspektivli sahələrin kəşf edilməsi, infrastrukturun modernləşdirilməsi, habelə dəniz külək energetikası sahəsində davamlı layihələrin ardıcıllığını gerçəkləşdirmək üçün dövlət qurumlarında müvafiq bilik və bacarıqların artırılması daxildir.

Budapeşt toplantısında mövcud razılaşmaların “yaşıl” hidrogenin inkişafı ilə bağlı planları da dəstəkləyəcəyini vurğulayan nazir Pərviz Şahbazov layihənin istehsal və ötürmə komponentləri, eləcə də biznes modelləri, Xəzər dənizinin potensial “yaşıl” enerji həcmlərinin regionda paylanması ilə bağlı tədqiqatlara dair tövsiyələrini də diqqətə çatdırıb. İclasda GECO və CESI ilə sıx koordinasiya şəraitində işçi qrupunda iki iş axınının yaradılması təklif edilib. Qeyd olunub ki, birinci axın layihənin iş modellərinə fokuslanaraq potensial investorlar və alıcılarla əlaqə qurulması üçün hazırlıq işlərini apara, ikinci axın isə texniki detalları, ENTSO-E və digər müvafiq qurumların tələblərinə uyğunluğu nəzərdən keçirə bilər. Nazir, həmçinin layihənin fiber-optik komponentinin texniki iqtisadi əsaslandırma ilə bağlı iş həcminə daxil edilməsi üçün də qəti addımların atılmasının vacibliyini diqqətə çatdırıb.

Müzakirələrdən sonra dörd ölkənin nazirləri tərəfindən iclasın yekunlarına dair Protokol və “Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Dan Yorgensenə Birgə Məktubu” imzalanıb. Məktub “Xəzər – Qara Dəniz Yaşıl Enerji Dəhlizi” layihəsinə ortaq maraqlar layihəsi statusunun verilməsinə müvafiq dəstəyi təmin etmək məqsədi daşıyır. Layihənin Avropa İttifaqının on illik şəbəkə inkişafı planına daxil edilməsi üçün 2025-ci il aprelin 1-dən mayın 9-dək müvafiq müraciətin ötürücü sistem operatoru kimi “Transelectrica” tərəfindən, ümumi prosesə nəzarətin isə GECO ilə birgə həyata keçirilməsi razılaşdırılıb.

Eyni zamanda, Bolqarıstanın hökumətlərarası sazişə qoşulma prosedurunun başlanması barədə razılığa gəlinib. Birgə Müəssisəyə Bolqarıstanın layihəyə qoşulması və fiber-optik kabel komponentlə əlaqədar məsələlərin texniki iqtisadi əsaslandırmanın iş həcmində nəzərə alınması üçün müvafiq səlahiyyətlər verilib. İclas çərçivəsində Azərbaycanın Energetika Nazirliyi ilə CESI şirkəti arasındakı müqavilə üzrə əsas səlahiyyət və öhdəliklərin GECO-ya ötürülməsi məqsədilə müvafiq sənəd imzalanıb.

Heç şübhəsiz, Budapeşt toplantısında müzakirə olunan məsələlər, tərəflər arasında imzalanmış yeni sənədlər iştirakçı ölkələr arasında “yaşıl” enerji əməkdaşlığının daha da möhkəmlənməsinə və Qara dəniz sualtı kabel layihəsinin icrasının sürətlənməsinə, eləcə də Azərbaycanın və regionun bərpaolunan enerjisinin Avropaya çatdırılmasına gətirib çıxaracaq.

***XQ-nin analitik qrupu***

# Azərbaycan–Şimali Makedoniya əməkdaşlığı yeni mərhələdə

**Qədim tarixə malik olan makedoniyalılar müxtəlif imperiyaların tərkibində yaşasalar da, milli düşüncələrini itirməyərək, 1990-cı illərdə dünyada baş verən geosiyasi dəyişikliklərdən istifadə edərək müstəqilliklərini qazandılar. Yuqoslaviyanın dağılması ilə müstəqillik əldə edən Şimali Makedoniya ilə Azərbaycanın yeni tarixində bənzər məqamlar çoxdur. Hər iki dövlət imperialist siyasətin qurbanı olmuş və SSRİ-nin dağılmasından sonra müstəqillik qazanaraq inkişaf mərhələsinə qədəm qoymuşlar.**

Bu gün Azərbaycanın Balkan yarımadası dövlətləri ilə əməkdaşlıq əlaqələrinin genişlənməsi xarici siyasətin prioritet istiqamətlərindən biridir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Qərbi Avropa dövlətləri ilə sərhəddə yerləşən Balkan ölkələri Şərqlə ticarət, nəqliyyat və tranzit əlaqələrinin qurulmasında mühüm rol oynayır.

Rusiya ilə Ukrayna arasında davam edən müharibə Avropanın enerji təhlükəsizliyinə təhdid yaradıb. Ukraynada hərbi əməliyyatlar başlayandan bəri Avropanın enerji bazarında təbii qazın qiyməti artıb. Belə ki, ötən ilin dekabrında Avropa birjalarında təbii qazın qiyməti 30 faiz artaraq 1000 kubmetr üçün 560 dollardan 700 dollara yüksəlib. Bu vəziyyət Balkan dövlətlərini də düşündürür və onları enerji təhlükəsizliyinin təmin olunması üçün yollar axtarmağa vadar edir.

Azərbaycan 2021-ci ilin iyulunda Avropa İttifaqı (Aİ) ilə imzaladığı müqaviləyə əsasən, 2027-ciilədək Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya təbii qaz ixracının həcmini 30 milyard kubmetrə çatdıracaq. Bu gün Yunanıstanın təbii qaza olan tələbatının 18 faizini Azərbaycan ödəyir. Cari ildə Yunanıstana 1,2 milyard kubmetr təbii qazın ixrac edilməsi nəzərdə tutulub. Energetika Nazirliyinin açıqlamasına əsasən, 2028-ci ildə "Ümid" və "Abşeron" yataqlarından böyük həcmdə təbii qazın hasil edilərək dünya bazarına çıxarılması gözlənilir. Azərbaycanın təsdiq edilmiş təbii qaz ehtiyatı 2,6 trilyon kubmetrdir ki, bu da uzun müddətdə qaz ixracının artırılmasına imkan verir. Bundan başqa, 2027-ci ilin sonunadək Azərbaycan yaşıl enerji layihələri çərçivəsində 1862 MVt külək və günəş elektrik enerjisi istehsal etməyi planlaşdırıb ki, bu da 1 milyard kubmetr "mavi yanacağa" qənaət etməyə imkan verəcək.

Bu gün Avropanın 4 ölkəsində - Macarıstan, Slovakiya, Çexiya, Avstriyada ciddi enerji problemi gözlənilir. Təsadüfi deyil ki, bu dövlətlərin başçıları Azərbaycan ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduqlarını ifadə edirlər. Azərbaycan neft və təbii qaz ilə zəngin ölkə olduğu üçün Qərb dövlətlərinin bazarlarına çıxmaq niyyətindədir. Bu baxımdan 2023-cü ildə Prezident İlham Əliyevin Bosniya və Herseqovinaya, həmin ilin dekabrında Serbiyaya rəsmi səfərləri, cari ilin yanvarında Davos İqtisadi Forumunda Xorvatiyanın Baş naziri ilə görüşü qarşılıqlı əməkdaşlığın inkişafı üçün böyük əsaslar yaradıb.



2022-ci ildə imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" Rumıniya ilə Azərbaycan arasında bərpaolunan mənbələrdən elektrik enerjisinin nəqli üçün Gürcüstan və Qara dəniz vasitəsilə sualtı kabelin çəkilməsini nəzərdə tutur. Bu müqaviləyə əsasən, "Qara dəniz yaşıl kabel" layihəsi 1000 meqavat gücündə 1195 kilometr (1,1 min kilometr sualtı və 95 kilometr yerüstü) uzunluğunda sualtı elektrik kabelinin tikintisini hədəfləyir. Həmçinin bu anlaşma Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin güclənməsi, təchizat mənbələrinin şaxələndirilməsi, Xəzərdə bərpaolunan enerji istehsalı potensialının kapitallaşdırılması ilə bağlı dörd ölkə arasında əməkdaşlığın əsasını qoyacaq. Bütün bunlar Azərbaycanı Balkan yarımadası dövlətləri üçün etibarlı tərəfdaşa çevirib.

Azərbaycan Balkanlarda yerləşən Şimali Makedoniya üçün də cəlbedici ölkədir. Oxşar tariximiz və inkişaf prosesləri, eyni zamanda, Azərbaycanın karbohidrogen ehtiyatları dövlətlərimiz arasındakı əlaqələrin inkişafı zərurətini meydana çıxarıb.

Yuqoslaviyanın dağılması ilə 1990-cı ildə ilk dəfə olaraq Şimali Makedoniyada çoxpartiyalı sistem üzrə parlament seçkiləri keçirildi və yeni parlament ölkənin prezident və hökumətini seçdi.

Azərbaycan ilə Şimali Makedoniya arasında diplomatik münasibətlər 1995-ci ilin iyununda qurulub. Həmin ildə Azərbaycan Şimali Makedoniyanın müstəqilliyini tanıyıb. 2023-cü ildə Azərbaycanın Serbiyadakı səfiri, eyni zamanda, Şimali Makedoniyaya təyin olunub. Azərbaycan Şimali Makedoniya ilə münasibətlərin inkişafına əhəmiyyət verir və iki ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi və humanitar sahələri əhatə edir.

Şimali Makedoniya Respublikasının keçmiş prezidenti Qeorqe İvanov 2015, 2016, 2017 və 2018-ci illərdə müxtəlif tədbirlərdə iştirak etmək üçün Azərbaycana işgüzar səfərlər edib. Həmin səfərlər zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə keçirilən görüşlərdə regional əməkdaşlıq məsələləri müzakirə edilib. Azərbaycan idmançıları Şimali Makedoniyanın paytaxtı Skopye şəhərində beynəlxalq yarışlarda iştirak edərkən yüksək qonaqpərvərliklə qarşılanıblar. Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani 2023-cü ilin aprelində Bakıya işgüzar səfəri zamanı ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Qeyd etmək lazımdır ki, 2000-ci ildə Şimali Makedoniya və Azərbaycan parlamentlərarası işçi qrupu yaradıb və bu qrup hazırda uğurla fəaliyyət göstərir.

Cari ilin fevralında Almaniyada keçirilən Münxen Təhlükəsizlik Konfransında Azərbaycanın xarici içlər naziri Ceyhum Bayramov Şimali Makedoniyanın xarici işlər naziri Timko Muçunski arasında görüş olub. Bu görüşdə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişafı perspektivləri müzakirə edilib. Görüş zamanı tərəflər iki ölkə arasında mövcud əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edərək, yüksəksəviyyəli səfərlərin, davamlı siyasi dialoqun və aidiyyəti qurumlararası təmasların intensivləşdirilməsinin yeni tərəfdaşlıq istiqamətlərinin müəyyən edilməsi və əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi baxımından önəmli olduğunu vurğulayıblar.

Nazirlər Azərbaycan və Şimali Makedoniya arasında iqtisadi-ticarət əlaqələrinin enerji, turizm və digər sahələrində inkişaf etdirilməsi üçün imkanların mövcudluğuna toxunublar.

Hazırda Azərbaycanda Şimali Makedoniya investisiyalı 5 kommersiya qurumu qeydiyyatdadır, onlardan 3-nün fəaliyyəti aktivdir. İki dövlət arasında imzalanan "Sərmayələrin təşviqi və qarşılıqlı qorunması" haqqında saziş də hazırda icra olunur.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynaması Avropa İttifaqı dövlətlərinin maraqlarını təmin edir.

Ölkəmizin bir çox qlobal neft və qaz layihələri Şimali Makedoniyanın da maraq dairəsindədir. Həmçinin Cənub Qaz Dəhlizi, Trans Anadolu Qaz kəməri (TANAP), Trans Adriatik Qaz kəməri (TAP) layihələrində Azərbaycanın əməkdaşlıq etdiyi ölkələrin bir çoxunun da Şimali Makedoniya ilə yaxın əlaqələri mövcuddur. Bakı ilə Skopye arasında əməkdaşlıq ölkəmizin Qərbdə xüsusilə daha da aktuallaşan enerji təhlükəsizliyi məsələsində güclənən mövqeyini və rolunu bir daha ifadə etmiş olur.

Bütün bunları nəzərə alaraq əminliklə söyləyə bilərik ki, Şimali Makedoniya Prezidenti Qordana Silyonovska-Davkovanın Azərbaycana rəsmi səfəri yaxın zamanlarda Bakı ilə Skopye arasında ikitərəfli münasibətlərin daha da inkişaf edəcəyini şərtləndirəcək.

# İspan xalqının mandatı və hayların "təltifi"

**(əvvəli 1-ci səhifədə)**

Bu zaman Bakının məqsədinin, guya, Aİ-nin fəaliyyətini daha çox Azərbaycanın maraqlarına uyğunlaşdırmağa çalışmaq, tez-tez enerji sövdələşmələrindən istifadə etmək olduğu kimi avantürist mülahizələrə baş vuran ispan deputat şərti sərhədin o üzündə qərar tutmuş avroparlamentarilərin "şəffaf fəaliyyətinə" toxunmağı da unutmur: "Aİ-nin müşahidə missiyası Ermənistan–Azərbaycan sərhədində vəziyyətin monitorinqi, sabitliyin təşviqi və baş verə biləcək insidentlərin qarşısının alınması üçün beynəlxalq müqavilələrə əməl olunmasına yönəlib. Bu baxımdan, Azərbaycanın missiya ilə bağlı narahatlığını anlamaq çətindir. Xüsusən də özünü sülh sazişini imzalamağa sadiq görünən bir ölkə üçün".

Səlibçi "kollektiv Qərb"in anti-Azərbaycan təbliğat kampaniyasına qoşulmuş ispan deputatın siyasi cəhətdən səbatsız mülahizələrinə görə, "Azərbaycanın Aİ-nin müşahidə missiyasına qarşı iddiaları üçüncü dövlətlərin, xüsusən də Türkiyə və ya Rusiyanın təzyiqləri nəticəsində yarana bilər".



Diplomatik məntiqdən uzaq bu cür "maraqlı" interpetasiyalar edən Con İnyarritu ardınca diqqəti yenidən mülki missiyanın bölgə üçün "faydalı" xidmətlərinə yönəldir: "Aİ missiyası nə bir tərəfi digərindən üstün tutmağa çalışır, nə də kəşfiyyat fəaliyyəti ilə məşğul olur. Onun əsas məqsədi tərəflər arasındakı fikir ayrılıqlarının sülh yolu ilə həllinə yardım göstərməkdir. Bu isə əlbəttə ki, Azərbaycanın Ermənistan torpaqlarını yenidən işğal etmək cəhdlərinə ziddir".

* * *

Ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan heç kəsin torpağında gözü olmadığını ən yüksək səviyyədə bəyan edib və bunu sülhə doğru atdığı addımları ilə isbatlayıb. Ermənistanın silahlandırmaq kimi "faydalı xidmət" missiyasını həyata keçirən Avropa İttifaqının isə kimin diktəsi ilə hərəkət etdiyi Bakıya yaxşı məlumdur. Parisin "dirijor çubuğu" ilə erməni separatçılara, revanşistlərə züy tutan təkcə İspaniya parlamentinin üzvü İnyarritu deyil ki.

XQ erməni lobbisinin "qonorarı" müqabilində ölkəsinin parlamentinin tribunasını haypərəst və qərəzli bəyanatlar səsləndirmək alətinə çevirmiş Con İnyarritunun "Ermənistan ərazilərinin Azərbaycan tərəfindən işğalı" barədə sərsəm çıxışları barədə yazıb. İspan xalqını parlamentdə təmsil etmək mandatını belə çirkin fəaliyyət üçün istifadə edən birindən diplomatik etiketə riayət, beynəlxalq hüquq qaydalarına hörmət gözləməyə dəyməz.

Con İnyarittu bundan əvvəl də Aİ-nin Ermənistandakı mülki müşahidə missiyasının "sərhədlərin demarkasiya prosesini daha da genişləndirməyə" töhfə veridiyini açıqlamışdı. İtefada olan alman və fransız kəşfiyyatçılarının əsl niyyətini açıb ortaya qoyan ispaniyalı deputat "Armenpress"ə müsahibəsində missiyanın mandatının daha iki il müddətinə uzadılmasını "Cənubi Qafqazda sabitliyin və sülhün möhkəmləndirilməsi istiqamətində mühüm addım" kimi xarakterizə edib: "Mülki missiya Ermənistanın Azərbaycanla sərhədindəki vəziyyətin monitorinqində, beynəlxalq hüququn tələblərinə əməl olunmasının təmin edilməsində və iki xalq arasında dinc dialoqun təşviqində olduqca mühüm rol oynayır".

Avropadakı səlibçi haypərəst düşərgənin təşkil etdiyi anti-Azərbaycan kampaniyasında fəal iştirak edən ispan deputatın məntiqinə görə, Aİ missiyasının daha iki il müddətinə Ermənistanda qalması bu ölkədə "demokratik idarəçiliyi gücləndirmək, qanunun aliliyini qorumaq və bölgədə sabitliyi təşviq etmək səylərini dəstəkləmək öhdəliyini" uğurla yerinə yetirəcək.

Bununla da kifayətlənməyən İnyarittu Azərbaycanın ünvanına ittihamlar yağdırmaqda davam edir: "Son illərdə Cənubi Qafqazda zorakılıq aktlarına rəvac verən yeganə ölkə Azərbaycan olub. Nə qədər ki, Bakı qonşusuna qarşı təcavüzkar hərəkətlərini davam etdirəcək, bölgədə yeni eskalasiya riski bir o qədər yüksək olaraq qalacaq".

Müsahibəsində politoloji düşüncələrini bəlağətli nitqi ilə "izhar edən" ispan deputatın Cənubi Qafqaz məsələləri üzrə "peşəkar ekspert" kimi böyük uğurlar qazandığına şübhə yeri qalmır. Bölgənin problemləri barədə "yerli-yataqlı" siyasi analizə baş vuran deputat "münaqişəni sülh danışıqları ilə həll etməkdən ötrü beynəlxalq qurumlar Bakıya ciddi təzyiq göstərməyə davam etməlidir" deyir.

* * *

Çıxışlarında "Dağlıq Qarabağ" ifadəsindən gen-bol istifadə edən Con İnyarritu "bölgədə etnik təmizləmə aparan, Ermənistan ərazisini işğal altında saxlayan, o cümlədən beynəlxalq hüququ pozaraq açıq şəkildə hücum əməliyyatına hazırlaşan, bu məqsədlə hərbi büdcəsini və ordusunun müasir silahlarla təminatını artıran yeganə ölkənin" Azərbaycan olduğunu bəyan edən İspaniya parlamentinin haypərəst deputatının kimlərə və nəyə xidmət etdiyini güman etmək çətin deyil. Sadəcə, onun ispan xalqından qazandığı mandatını hay "təltifləri" üçün xərcləməsinə adamın hayfı gəlir.

**P.S.** Con İnyarritu 6 il bundan əvvəl Xankəndidəki separatçı rejimin rəhbəri Arayik Arutyunyanın "fərmanı" ilə "Mxitar Qoş" medalı ilə təltif edilib. Ona bu medal 2022-ci ilin dekabrında separatçıların Ermənistandakı nümayəndəliyi tərəfindən təqdim olunub. O zaman ispan deputat özünün sosial şəbəkə səhifəsində bunları yazmışdı: "Mxitar Qoş" medalını almaq mənim üçün böyük şərəfdir. Biz ermənilərin "Artsaxda" yaşamaq, eləcə də beynəlxalq tanınma hüququnun müdafiəsinə davam edəcəyik". İnyarritu separatçı rejimə məhz siyasi dəstəyinə görə "Mxitar Qoş" medalı ilə "təltif edilib". Beləliklə, separatçılardan aldığı "təltifi" göylərə qaldıran ispaniyalı deputat bununla beynəlxalq hüququ ayaqlar altına atdığını açıq etiraf edib.

***İ.HƏSƏNQALA***
***XQ***

# Gündəmdə əsas məsələ: Regional təhlükəsizlik

**(əvvəli 1-ci səhifədə)**

Digər mövzu Suriyanın iqtisadi bərpası ilə bağlı olub. Sanksiyaların aradan qaldırılması, bərpanın ilkin mərhələləri üçün beynəlxalq dəstəyin təmin edilməsi, ticarət və investisiya əməkdaşlığının genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb. Bundan əlavə, tərəflər suriyalı qaçqınların təhlükəsiz və dayanıqlı şəkildə geri qayıtmaları üçün şərait yaratmaq məqsədilə birgə işləmək barədə razılığa gəliblər. Eyni zamanda, bu proses başa çatana qədər ev sahibliyi edən ölkələrə beynəlxalq dəstəyin vacibliyi vurğulanıb.

*

İclasda diqqətçəkən əsas məsələ regional təhlükə olan İŞİD-ə qarşı vahid mübarizə mexanizminin yaradılması ilə bağlı olub. Mətbuat konfransında Türkiyənin xarici işlər naziri Hakan Fidanın söylədiyi kimi, region ölkələri olaraq, xüsusilə də İŞİD-ə qarşı mübarizədə tam qərarlıyıq: "Uzun müddətdir ki, İŞİD-ə qarşı mübarizəmizi böyük bir əzmlə davam etdiririk. Lakin İŞİD təkcə bir ölkəyə deyil, regionun bir çox dövlətinə zərər vurduğundan təkbaşına mübarizə aparmaq çətindir. Bu terror təhlükəsini aradan qaldırmaq, güclü platforma qurmaq üçün ilk addımı atdıq və bunun başlanğıcı ortaq əməliyyat mərkəzinin yaradılması olacaq".

Hakan Fidan İŞİD kimi terror təşkilatı olan PKK-ya qarşı da birgə mübarizənin vacibliyini qeyd edib: "İŞİD ərəbləri təmsil etmədiyi kimi, PKK da kürdləri təmsil etmir. Bu ayrı-seçkiliyi çox aydın şəkildə ortaya qoymalıyıq. İkincisi, PKK hazırda Türkiyədə bir kvadratmetr ərazini belə nəzarətdə saxlamır və işğal etmir. Lakin bunun müqabilində Suriyanın üçüncü resurslarını ələ keçirib. İraqda 700 kəndi, İraq Kürdüstanı, Sincarı və bəzi yerləri də işğal edib. Bu, təkcə Türkiyənin deyil, regional problemdir. İŞİD-i hədəf almaq üçün istifadə etdiyimiz eyni metodologiya, anlayış və yanaşmanı PKK-ya da tətbiq etmək lazımdır".

Göründüyü kimi, İordaniyada keçirilən tədbir beynəlxalq və regional təhlükəsizliyin təmin olunması baxımından böyük əhəmiyyət daşıyır. Bu təkcə Türkiyə üçün deyil, ona qonşu olan ölkələr üçün də əhəmiyyətlidir. Çünki həmin ölkələrdə ekstremist və terror fəaliyyəti ilə məşğul olan qüvvələr kök salıblar. Bu qüvvələr həmin dövlətlərlə yanaşı, qonşu ölkələrə də bir təhdiddir. İnkişafın, tərəqqinin, demokratiyanın qarşısını alır, xaosa səbəb olurlar. Digər bir əsas məsələ isə həmin terror təşkilatlarının üçüncü qüvvələrin təhriki ilə hərəkət etməsidir.

Yəni görünən budur ki, Türkiyə bu irticaçı qüvvələrə qarşı mübarizə aparmaqla onların regionda varlığına son qoymaq istəyir. Tək mübarizə aparmaq çətindir, maliyyə, ordu, silah-sursat, təhlükəsizlik və sair məsələləri də qeyd etsək, bu bir qədər də zaman aparır. Amma vahid mövqe olduqda isə məqsədə daha tez nail olursan.

**Mövzu ilə bağlı "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu XQ-yə bildirdi ki,** Türkiyənin hazırda Yaxın Şərq bölgəsində iki əsas təhlükəsizlik məqsədi var: "Birincisi, PKK və ona bağlı PYD, YPG kimi terrorçu təşkilatların tərksilah olunmasıdır. Əgər bu baş verərsə, 50 illik problemə son veriləcək. Çünki keçən əsrin 70-ci illərində qurulan bu terror təşkilatı 1984-cü ildən Türkiyə diplomatlarına qarşı terror törətməyə başlamışdı. Hazırda, bu, mümkün deyil, çünki onların əksəriyyəti zərərsizləşdirilib, məhv ediliblər. Amma təhlükə Suriyada və İraqda var. İran həmin qüvvələrə dəstək verir. Və artıq bu problem həll olunmalıdır".

E.Şahinoğlu onu da əlavə etdi ki, digər terror təşkilatı İŞİD Türkiyəyə müəyyən problemlər yaradır: "İraqda və Suriyada onun aktiv ocaqları var. Türkiyə iki istiqamətdə fəaliyyətini aktivləşdirir, İŞİD-ə qarşı mübarizə üçün region ölkələri ilə birlikdə vahid koalisiya formalaşdırır. Çünki İŞİD tək Türkiyə üçün deyil, İraq, Suriya, İordaniya, Livan üçün də təhlükə mənbəyidir. Deməli, Türkiyə PKK, YPG, PYD ilə mübarizədə Suriya, İraq mərkəzi hökumət qüvvələrinin dəstəyini alaraq, bu məsələni sürətləndirəcəksə, İŞİD-ə qarşı daha geniş birlik quracaq. Bu iki məsələni yaxın müddətə həll edə bilsə, Türkiyənin bölgədəki gücü daha da artacaq".

Ümumiyyətlə, Suriyadakı son hadisələr göstərir ki, bu ölkədə sabitliyi pozmaq istəyən qüvvələr var. Bu hücum Əsəd rejimindən qalan və onu diriltməyə çalışan qüvvələrin hərəkətlərinin nəticəsidir. Gələcəkdə dini və etnik zəmində yeni təxribatlar, terror hadisələri gözlənilə bilər. Ona görə də region ölkələri təhlükə mənbəyini vaxtında aradan qaldırmalıdır.

***Azər MUSTAFAYEV***

# Milli Məclis Sədrinin Gürcüstan görüşləri

**Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstana rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Mixeil Kavelaşvili ilə görüşüb.**

Gürcüstan Prezidenti bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin daha da inkişafına töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə dost ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif aspektləri haqqında fikir mübadiləsi aparılıb, möhkəm, tarixi əsaslara malik olan münasibətlərin dinamik inkişafından razılıq ifadə olunub.

Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Gürcüstan Prezidenti Mixeil Kavelaşviliyə çatdırıb. Gürcüstan Prezidenti səmimi salamlarına görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib, onun da salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş edib.

Gürcüstanla Azərbaycan arasında münasibətlərin inkişafında parlamentlərin xüsusi rolu vurğulanaraq, iki ölkənin qanunverici orqanları arasında əlaqələrin dövlətlərimiz arasında münasibətlərin ruhuna uyğun olaraq genişlənməsindən məmnunluq ifadə edilib. Sahibə Qafarova martın 10-da iki ölkənin parlamentləri arasında imzalanan əməkdaşlıq memorandumunun əhəmiyyətini diqqətə çatdıraraq, bu sənədin əlaqələrimizin daha da genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Söhbət zamanı beynəlxalq və regional formatda uğurlu əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirilib. Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ölkəsinə göstərilən dəstəyə görə Azərbaycana öz minnətdarlığını bildirib.

Həmçinin ölkələrimizin üçtərəfli formatda da uğurlu əməkdaşlıq əlaqələrinin olduğu diqqətə çatdırılaraq, Azərbaycan–Türkiyə–Gürcüstan üçtərəfli əməkdaşlıq formatının həm ölkələrimizə, həm də regiona qazandırdığı faydalar ifadə edilib.

*

Milli Məclisin Sədri Sahibə Qafarova martın 11-də Tbilisidə Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə də görüşüb.

Görüşdə Baş nazir İrakli Kobaxidze dost və qonşu ölkələrimiz arasında təmasların, qarşılıqlı səfərlərin mütəmadi hal almasından məmnunluğunu bildirib. Baş nazir son bir il ərzində Azərbaycana üç dəfə səfər etdiyini xatırladıb və bu səfərlərlə bağlı müsbət təəssüratlarını bölüşüb.

Görüşdə Gürcüstan–Azərbaycan əlaqələrinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi vurğulanıb, bu münasibətlərin qarşılıqlı hörmətə və etimada əsaslandığı, strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi diqqətə çatdırılıb. Vurğulanıb ki, ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlər xalqlarımızın əsrlər boyu davam edən dostluq əlaqələrinə söykənir. Xalqlarımız həmişə mehriban qonşuluq, qardaşlıq şəraitində yaşayıblar və bu ənənələr bu gün də davam edir.

Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını və ən xoş arzularını Gürcüstanın Baş nazirinə çatdırıb. Gürcüstanın Baş naziri salamlara və xoş arzulara görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək, onun da salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş edib. O, Azərbaycanın Prezidentinin rəhbərliyi ilə uğurlu inkişafının bir çox ölkələr üçün nümunə olduğunu söyləyib.



Söhbət zamanı qeyd olunub ki, ölkələrimiz arasında nümunəvi siyasi əlaqələr bütün digər sahələrdə, o cümlədən iqtisadi sferada uğurlu münasibətlərin təmin olunmasını şərtləndirib. Azərbaycan–Gürcüstan dostluğu və strateji tərəfdaşlığı böyük enerji, nəqliyyat layihələrinin həyata keçirilməsinə də imkan yaradıb ki, bu gün bu layihələr nəinki Cənubi Qafqazda, o cümlədən daha geniş regionda mühüm amilə çevrilib.

Sahibə Qafarova ölkələrimizin qanunverici orqanları arasında mövcud olan geniş əməkdaşlıq münasibətləri barədə Baş nazirə məlumat verib.

Söhbət zamanı parlamentlərimiz arasında imzalanan əməkdaşlıq haqqında memorandumun önəmi bir daha vurğulanıb və sənəd yeni yol xəritəsi kimi qiymətləndirilib.

*

Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova ilə görüşüb.

Tərəflər Gürcüstan və Azərbaycan arasında strateji tərəfdaşlıq, birgə regional layihələr, iqtisadi əməkdaşlıq məsələlərini müzakirə ediblər.

İrakli Kobaxidzenin və Azərbaycanın Baş nazirinin həmsədrliyi ilə cari ilin yanvarında keçirilmiş Gürcüstan və Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 10-cu iclasının səmərəliliyi qeyd olunub. Əməkdaşlığın dərinləşməsində yüksəksəviyyəli səfərlərin əhəmiyyətinə də diqqət yetirilib.

Tərəflər Orta Dəhlizin səmərəli fəaliyyətinin təşviqini müzakirə ediblər.

Görüşdə Cənubi Qafqaz regionunda sülhün və sabitliyin vacibliyi vurğulanıb. Hökumət başçısı qeyd edib ki, Gürcüstan gələcəkdə də regionda sülhün və rifahın təmin edilməsinə töhfə verməyə hazırdır.

**XQ**

# Mirzoyanın "Hindistan manifesti" – avantürizmin musson yağışı

## *Hind filmlərinin təsiri və "dərman diplomatiyası"ndan fayda*

**Ermənistan – Hindistan əlaqələri. Əslində, hər şey məlumdur. İkinci birincini silah-sursatla təmin edir. Dünyada ən çox əhaliyə malik ölkə strateji planlar qurur, qlobal proseslərdə iştirak iddiasındadır və müttəfiqi, daha doğrusu, üzərinə siyasi sərmayə yatırdığı tək ölkə Ermənistandır. Hər halda, belə görüntü var. Yazımız isə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Nyu-Dehlidə keçirilmiş Hindistan Dünya İşləri Şurasının toplantısındakı çıxışı barədədir. Sonda, həmçinin Hindistan–Ermənistan əməkdaşlığının yeni seqmentindəki müsbət olaraq səciyyələndirdiyimiz məqamı diqqətə çatdıracağıq.**

*

Əvvəlcə onu bildirək ki, Hindistan Dünya İşləri Şurası 1943-cü ildə bir qrup Hindistan ziyalısı tərəfindən beyin mərkəzi kimi yaradılıb. Ölkənin vitse-prezidentləri rəsmi olaraq ICWA (Indian Council of World Affairs) abreviaturası ilə tanınan şuraya rəhbərlik edirlər ki, bu da təşkilatın Nyu-Dehli üçün önəmini təsdiqləyir. Onu da deyək ki, beynəlxalq münasibətlərin və xarici siyasətin öyrənilməsi ilə məşğul olan qurum indiyədək "Asiya Əlaqələri Konfransı" (1947-ci ildə) və "Birləşmiş Millətlər Təşkilatı və Yeni dünya nizamı" (1994-cü ildə) kimi tarixi beynəlxalq toplantıların təşkilini həyata keçirib.

Ancaq demək olmaz ki, ICWA dünya miqyasında böyük nüfuza malikdir. Müqayisə bəlkə yerinə düşməz, amma qurumun beynəlxalq aləmdəki ciddilik dərəcəsi ənənəvi hind filmləri ilə eynidir. Əlbəttə, bu fikri heç də Hindistanın Ermənistanı silahlandırdığına görə bildirmirik. Nə də ki, qənaətimiz ikincinin XİN rəhbərinin ICWA-da çıxışı zamanı sərsəmləməsindən qaynaqlanır. Yekunda Hindistan nüvə ölkəsidir və bu statusa yiyələnmək adi məsələ deyil. Hərçənd...

Mövzuya bir suala doğru yön almaqla başlayaq. Erməni nazir bildirib ki, ölkəsi ilə Hindistanı dərin sivil əlaqələri birləşdirir. Sən demə, müasir milli dövlətlər olmazdan əvvəl hind və erməni xalqları təmas saxlayıblarmış. Şübhəsiz, ağ yalan danışmaq və mənasız söhbət etmək üzrə dünya çempionatı keçirilsə, erməni XİN rəhbəri orada birinci pillədə qərarlaşardı. Sualımız isə budur: Görəsən, Hindistanda Mirzoyanın sivilizasiya barədəki nağılına necə dözüblər? Axı nəinki Mirzoyan və Ermənistandakı hər bir erməni, eləcə də istənilən orta statistik qafqazlı Hindistanı Cimi obrazına, "Zita və Gita"ya, "Fillər mənim dostumdur"a və sair bu sayaq filmlərə görə tanıyıb. Əlbəttə, qədim hind mədəniyyətinin dünya mədəniyyətinin formalaşmasında rolu danılmazdır. Eləcə də dövlətçilik ənənələrinin yaranmasında. Amma məsələnin Ermənistana heç bir aidiyyəti yoxdur.

A.Mirzoyan vurğulayır ki, Hindistanla hərtərfli əməkdaşlığın dərinləşdirilməsi Ermənistanın xarici siyasətinin başlıca prioritetidir. Rəsmi İrəvan hazırda bu mənada Fransa və Hindistandan başqa heç bir dövləti düz əməlli tanımır. Çünki onların hər ikisinin fəaliyyəti erməni avantürizminə dəstək üzərindədir. Hərçənd, Nyu-Dehlidən fərqli olaraq, Parisin daha açıq oynamağa üstünlük verdiyini vurğulamalıyıq. İkincinin birinci vasitəsilə İrəvanı silahlandırdığını da həmçinin.

Mirzoyan bildirib ki, Ermənistan Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində dialoqda və əməkdaşlıqda maraqlıdır. XİN rəhbəri bu mənada İrəvan – Dehli – Tehran oxu ilə bağlı fikirlərini paylaşıb ki, əslində, onun bildirdiklərində hansısa yenilik yoxdur. Sadəcə, bir daha aydın olur ki, üçlük iş başındadır və Şimal – Cənub nəqliyyat dəhlizinə fokuslanmış fərqli gündəm arzusundadır. Ermənistan isə bu gündəmi avantürizmə alətə çevirməkdə israrlıdır. Mirzoyanın "Hindistan manifesti"ndəki digər məqamlar da fikrimizin sübutudur. İranda məsələni dərk edən proqressiv qüvvələr var. Ümid edək ki, belə qüvvələr Hindistanda da yox deyil.

*

İndi isə gələk A.Mirzoyanın bildirdiklərinin qayəsinə. Onun sözlərinə görə, bütün çətinliklərə, təhlükəsizliyə, təhdidlərə baxmayaraq, Ermənistan Cənubi Qafqazda möhkəm sülhün qərarlaşması ilə bağlı ardıcıl fəaliyyətdədir. Göründüyü kimi, Ararat böyük Hindistan platformasında ağlaşma qurur. Məsələ ondadır ki, Cənubi Qafqazda sülhə ən böyük təhdid elə Ermənistanın özüdür. Nazirin haqqında söz açdığı mətləblər isə ölkəsinin bu "ampluadakı" manipulyasiya alətləridir.

Mirzoyan deyib ki, Ermənistan Azərbaycanla sülh prosesinə vicdanla qoşulub. Halbuki, bir çox məqamları nəzərə alsaq, rəsmi İrəvanın mövcud istiqamətdəki mövqeyi vicdansızlıqdan başqa bir şey deyil. Alətlərdən söz düşmüşkən isə deyək ki, hazırda Ermənistan rəhbərliyi üçün Mirzoyanın barəsində danışdığı suverenliyə və ərazi bütövlüyünə hörmət, sərhədlərin pozulmasının yolverilməzliyi və güc tətbiqindən uzaq durmaq kimi məsələlər barış mühitini əngəlləyir. 1991-ci ilin Alma-Ata Bəyannaməsinə istinad da həmçinin.

Erməni XİN rəhbəri deyib ki, sözügedən bəyannamə əsasında Azərbaycan və Ermənistan sərhədlərinin 12 kilometrində uğurlu delimitasiya işləri aparılıb. Amma, bu, o deməkdirmi ki, sərhədlərin digər hissələrində də həmin sənədin üzərində dayanılmalıdır? Əlbəttə, müəyyən mənada, dayanmaq olar. Bəs 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat?

*

Məlum olduğu kimi, Ermənistan 44 günlük müharibə məğlubu kimi məsuliyyətdən boyun qaçırır, özünü üçtərəfli Bəyanat yoxmuş kimi aparır. Qeyd edək ki, bu sənədin meydana çıxma səbəbi Ermənistanın 1991-ci ilin Alma-Ata Bəyannaməsinə hörmətlə yanaşmamasına, Azərbaycan torpaqlarını işğal etməsinə bağlıdır. Şübhəsiz, işğal olmasaydı, bir çox proseslər, o cümlədən müharibə baş verməzdi. Savaş yaşandı, üçtərəfli Bəyanat Ermənistanın məğlubiyyətinin təsdiqi oldu. Sənədin 9-cü bəndi, yəni İrəvanın Naxçıvana maneəsiz yol baxımından üzərinə götürdüyü öhdəlik isə qəsbkarlığın cəzası, daha doğrusu, Azərbaycana vurulmuş ziyanın təzminatıdır. Təzminat ödənməlidir. Özü də tam həcmdə.

*

Bəli, rəsmi İrəvan Alma-Ata Bəyannaməsi ilə reallıqların təhrifindən uzaq dayanmalıdır. Amma Mirzoyanın Hindistanda haqqında söz açdığı Ermənistanın Azərbaycana ünvanladığı normallaşma təklifləri məhz reallıqların təhrifinə yönəlub. XİN rəhbəri bildirib ki, ölkəsinin normallaşma kontekstindəki təklifləri, guya, regional nəqliyyat infrastrukturunun blokdan çıxarılmasında qarşılıqlı faydaya əsaslanır, dəmir yolu nəqliyyatından istifadə etməklə tərəflərin yükləri daşınmalarına şərait yaradır. O zaman sual yaranır: Niyə məhz dəmir yolu?

Aydındır ki, dəmir yolunun üzərində dayanmaq Naxçıvana quru yolu məntiqini məhdudlaşdırmaqdır. Deməli, Azərbaycanın mövqeyi nəzərə alınmır. Halbuki, ölkəmiz Naxçıvanla maneəsiz quru yolunu prioritet sayır. Onun "Azərbaycandan Azərbaycana yol" kimi fəaliyyət göstərməsi nəzərdə tutulur. Lakin Ermənistanın Naxçıvana yolla bağlı, ümumən regional kommunikasiyaların açılmasındakı manipulyasiyası bununla bitmir. Qədim diyarımıza gedən yolun tam maneəsizliyinə cəbhə açmış rəsmi İrəvan hesab edir ki, yolda sərhəd və gömrük nəzarəti tətbiq edilməlidir. Mirzoyanın haqqında söz açdığı ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı klişesi məhz bu deməkdir.

*

Digər tərəfdən, dəmir yolu əlaqəsi məntiqinin özündə də erməni iqtidarı tərəfindən irəli sürülmüş şərt var. Şərt odur ki, Azərbaycan Mehri-Yerasx dəmir yolu xəttinin Naxçıvandan keçməsinə razılıq verməlidir və bu, "Ermənistandan Ermənistana yol" kimi təqdim olunur. Məsələ ondadır ki, Mehri və Yerasx arasında yol onsuz da var. Yəni burada "Ermənistandan Ermənistana yol" məntiqi mənasızdır və məsələ heç bir halda "Azərbaycandan Azərbaycana yol" məntiqi ilə eyniləşdirilməməlidir. Çünki Naxçıvan blokadadadır, Yerasx isə yox.

*

Başqa bir məqama nəzər salaq. Ermənistanın regional kommunikasiyaların açılmasının quru yolu, daha dəqiq desək, avtomobil yolu seqmenti, ümumiyyətlə, Naxçıvana gediş-gəlişdən uzaqdır. Çünki İrəvan yükdaşımalar üçün Laçın – Konidzor – Marqara xətti üzərində dayanır. Bir sözlə, düz yolu qoyub dağa-daşa düşməyi irəli sürür. Deməli, yüklər Azərbaycanın Laçınından keçərək Ermənistanın Kornidzoruna daxil olacaq, oradan Türkiyə ilə sərhədə, yəni Marqaraya yön alacaq. Yeri gəlmişkən, baş nazir Nikol Paşinyanın bu mövzuda danışarkən işlətdiyi gülməli fikir də var. Onun sözlərindən belə çıxmışdı ki, azərbaycanlı TIR sürücüləri Ermənistan ərazisində hərəkətdən qorxurlarsa, onları türkiyəli sürücülər əvəzləsinlər. Bilmək olmur, adam hökumət başçısıdır, yoxsa...

Əlqərəz, Mirzoyanın Hindistanda səsləndirdiyi cəfəngiyatın bir seqmentinə aydınlıq gətirdik. Növbəti cəfəngiyat budur ki, o, İrəvanın Bakıya silahlanmaya nəzarət üzrə birgə mexanizmi təklif etməsindən söz açır. Təsəvvür edin, Ermənistan özü sürətlə silahlanır, eyni zamanda, belə bir mexanizmi ortaya atır, üstəlik, məsələni regional təhlükəsizliyin təminatı nöqteyi-nəzərindən əsaslandırmağa çalışır. Hələ bu, azmış kimi, "təəssüf ki, Azərbaycan konstruktiv yanaşmamızı bölüşmür" deyərək sərsəmləyir. Onun daha böyük sərsəmləməsi isə budur: "Habelə, biz Ermənistanın suverenliyinə ərazi iddiaları, o cümlədən "Qərbi Azərbaycan" adlı narrativ vasitəsilə yüksək səviyyəli açıq bəyanatlar eşitməkdə davam edirik".



*

Ermənistan "Azərbaycanda saxlanılan erməni məhbuslar" məsələsini də Hindistan müstəvisinə daşımağı yaddan çıxarmayıb, guya, onların hüquqlarının pozulduğunu iddia edib. Aydındır ki, İrəvan sülh gündəmini məhz "məhbuslar" gündəminə dəyişib. "Tam nizamlama və möhkəm sülh cəmiyyəti barışa hazırlamaqdan keçir. Həll edilməmiş humanitar problemlər prosesə maneçilik törədir", – deyən Mirzoyan, əslində, ölkəsinin normallaşmadan tam uzaq yol tutduğunu yenidən göstərməkdədir. Belə bir durumda onun Türkiyə ilə münasibətlərin qaydaya salınmasından söz açması isə aşkar həyasızlıqdır.

*

Mirzoyanın həyasızlığı həm də "Dünyanın kəsişməsi" təşəbbüsünü qabardıb az əvvəl diqqətə çatdırdığımız Laçın – Kornidzor – Marqara marşrutunu həmin "təşəbbüsün" tərkibində görməsidir. Deməli, rəsmi İrəvan faktiki olaraq, Naxçıvanın blokadasını davam etdirməklə, bir yandan özünü Azərbaycanla Türkiyə arasında birbaşa quru əlaqəsinə yol verməməyə kökləyir, digər tərəfdən isə Ankara ilə normallaşma xətti baxımından gündəm qondarır. Əslində, erməni iqtidarının istədiyi ərazi bütövlüyü və suverenlik klişesi ilə manipulyasiyanı Türkiyəyə ötürməkdir ki, bu, son dərəcə gülməlidir.

*

Daha bir gülməli məqam isə Mirzoyanın Ermənistanın Avropa İttifaqı əlaqələrin genişləndirilməsi xəttinə sadiqliyini vurğulamasıdır. Erməni iqtidarının necə sadiq olduğunu gördük. Xatırladaq ki, ABŞ Prezidenti Donald Trampın və onun administrasiyasının üzvlərinin Avropa əleyhinə dediklərindən sonra Paşinyanın komandası Ermənistanın Aİ-yə qoşulmaqla bağlı qanun layihəsinin müzakirəsini təxirə saldı. İndi ölkə, obrazlı desək, yumurtası tərs gəlmiş toyuğa bənzəyir. Yəni vurnuxmaqla məşğuldur.

Ermənistan vurnuxur ki, Mirzoyan Hindistanda Rusiyanın hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqı ilə əməkdaşlığın ölkəsinə ticarətin həcmini genişləndirməkdə vacib dividend qazandırdığını bildirib. Halbuki, indiyədək hansısa İrəvan rəsmisi bu barədə söz açmırdı. Ümumən, Paşinyan iqtidarının təmsilçiləri özlərini elə aparırdılar ki, sanki Ermənistanın iqtisadi inkişaf tempində Rusiyanın heç bir rolu yoxdur.

Şübhəsiz, hazırda Mirzoyanın reallığı dilə gətirməsinə səbəb Birləşmiş Ştatların anti-Rusiya cəbhəsində yer almaması, nəticə etibarilə Avropanın həmin cəbhədə zəif duruma düşməsidir. Yəni söhbət heç də Ermənistanın çoxqütblü əməkdaşlıq xəttinə üstünlük verməsindən getmir.

*

Anons etdiyimiz kimi, sonda Hindistan – Ermənistan əməkdaşlığının yeni seqmenti üzərində dayanaq. Axı Mirzoyanın səfəri Nyu-Dehli ilə İrəvan arasında iki memorandumun imzalanması ilə nəticələnib. Memorandumlardan biri Ermənistan XİN-nin diplomatik məktəbi ilə tanınmış hind siyasətçisi Suşma Svaracın adını daşıyan diplomatik xidmət institutu ilədir. Digər sənəd isə ölkələrin dərman vasitələri sahəsindəki işbirliyini gücləndirməyi nəzərdə tutur. Hesab edirik ki, hər iki məsələ Ermənistan üçün son dərəcə vacibdir. Güman edirik ki, diplomatiya sahəsində əməkdaşlıq ölkədə Mirzoyan kimi diletantların meydana çıxmasını əngəlləyəcək, erməni diplomatiyasını primitiv hiyləgərlikdən qurtaracaq. Eyni zamanda, ənənəvi xəstəlikdən, şizofreniyadan xilası üçün Hindistanın Ermənistanı keyfiyyətli dərman vasitələri ilə, xüsusən psixotrop dərmanlarla təmin etməsi çox vacibdir. Axır ki, müsbət nə isə tapdıq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Haqqa qarşı haqsızlıqla çıxanlar başlanğıcdan məğlubdurlar

*Rafael HÜSEYNOV,*
*Milli Məclisin Azərbaycan–İsveç parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri*

**Kim və kimlərsə şərin tərəfində durursa, nahaqqın müdafiəsinə qalxırsa, həmişə burada 3 səbəb var: ya həmin şəxs və şəxslər kiminsə fitnəsinə uyub, hansı məkrli qüvvəninsə təsiri altındadır və qıraqdan idarə edilir; ya sadəcə, mahiyyətdən xəbərsizdir, aldadılıb, yanlış yönəldilib, bilməyərəkdən şərin aciz xidmətçisinə çevrilib; ya da ən arzuolunmazı – həqiqətləri də bilir, yanında durduğunun haqsızlığından da xəbərdardır, amma özünün də niyyəti dürüst olmadığından müəyyən xəbis məqsədlərlə şərlə əməkdaşlıq yolunu tutur.**



Biz, İsveçlə dövlətlər və parlamentlərarası əlaqələrin bütün istiqamətlər üzrə inkişafının tərəfdarıyıq və bu səmtdə daim zəruri addımları atmağa hazırıq. Ancaq İsveç parlamentindəki bir neçə deputatın 2025-ci il martın 6-da verdiyi və münasibətlərimizin xoş məramı ilə əkslik təşkil edən bəyanat kimi qəbuledilməz sənədlərin ortya çıxmasını da narazılıqla və narahatlıq hissi ilə qarşılayırıq. Narahatlığımız ona görə deyil ki, təməlindən saxtakarlıq, yalan, təhrif və riyadan ibarət bir cızmaqara haqqımızda hansısa təəssürat yarada bilər. Onsuz da Azərbaycan dünya erməniçiliyinin natəmiz üsullardan istifadə ilə Avropada kimlərisə çeşidli fəndlərlə ələ alaraq öz təsiri altına salması, çaldığı havalara oynatmasının keçmişlərdən az şahid olmayıb, o qəbil idarə olunanların oxşar cəfəng yazı və çıxışlarının da həmişə isti-isti layiqli cavabını da vermişik ki, üfunətlərini daha geniş yaymaqdan bir az çəkinsinlər.

Erməni lobbisi bu dəfə qarmağını Riksdaqa atıb və parlamentdəki "İsveç–Ermənistan dostluq qrupu"nun üzvlərini onların siyasi bioqrafiyasında əsla xoş izi ilə qalmayacaq bir fitnəkar bəyanatı imzalamağa təhrik edib.

Ona görə qətiyyətlə "təhrik edib" yazıram ki, heç kəs bilavasitə özünün və ölkəsinin maraqlarına dəxli olmadan qərəzli, gerçəklərin ziddinə olan, faktları kobud şəkildə tərsinə çevirən belə çirkin sənədə imza atmaz.



İsveç parlamentindəki bir qrup deputat belə edibsə, bunu niyə etmələrinin cığırı mütləq birbaşa erməni lobbisi tərəfə aparır.

Onlarınsa saxtakarlıq və böhtanlardan ibarət niyyətlərini yeritməkdən və sözlərini dedirtməkdən ötrü nüfuzlu adamları və qurumları hansı yolverilməz üsullarla ələ almasının və irəlilətməsinin bir çox sərgüzəştli hekayətləri var. O cür macəralı söhbətləri az-çox eşidib-bilən ağıllı adam heç vəchlə adının ləkələnməməsindən ötrü özünü belə çirkablara bulaşdırmağa rəva görməz.

30 ilə yaxın müddətdə Ermənistan və dünya erməniçiliyi onlara havadarlıq edən güclərin köməyi ilə Azərbaycana qarşı qəddar işğalçılıq siyasəti apardı. Yüz minlərlə Azərbaycan insanının faciələrinə bais olan saysız hərbi cinayətlər, etnik təmizləmələr, deportasiya və didərgin salınmalar, darmadığın edilib xarabazara çevrilən yüzlərlə kənd, qəsəbə, şəhər, məhv edilən irs, zəhərlənən təbiət və bütün bu vəhşiliklərin zirvəsi olan Xocalı soyqırımı həmin qəsbkar siyasətin dünyaya bəlli olan müdhiş nəticələridir.

Ermənistanın və erməniçiliyin Azərbayacana qarşı apardığı bu əzazil qəsbkar siyasət minlərlə insanın həyatına son qoydu, üç onilə sığan müddətdə yeni minilliyə, XXI əsrə utanc sayılası hadisə Azərbaycanın başına gətirildi, bir neçə nəsil insan dünyaya qaçqın və məcburi köçkün kimi gələrək böyüdü.

Bütün bu faciələr Ermənistan, erməniçilk və onlara arxa duranlar tərəfindən başqa bir ərazidə deyil, əvvəldən axıradək sırf Azərbaycan torpaqlarında törədildi.

Başda BMT-nin Təhlükəsizlik Şurası olmaqla, o cümlədən, İsveçin də üzvü olduğu bir sıra beynəlxalq təşkilatlar bu təcavüzü pisləyən qətnamələr qəbul etsə, bəyanatlar yaysa da, son olaraq pırtlaşıq düyünü çözmək, şərin təkəbbürlü təntənəsinə son qoymaq elə Azərbaycanın öz öhdəsinə düşdü, 2020-ci ilin noyabrında çalınan zəfərlə zəbt edilmiş torpaqlar işğaldan azad edildi, onillərcə öz yurdlarından ayrı düşmüş məcburi köçkünlər tədricən azad torpaqlara qayıdaraq həyatlarını yeni səhfədən yaşamağa başladı.

Əvvəllərdə qaçqın və məcburi köçkünlərin miqdarı 1 milyon civarında idisə, təbii ki, 30 ilə yaxın müddət boyunca onların çoxalan dərdləri və qayğıları ilə bərabər sayları da artdı. Ermənistan, erməniçilik və onların havadarlarının yürütdüyü siyasətin nəticəsi hər 10 azərbaycanlıdan birini qaçqın və məcbur köçkün etmişdi. Belə müsibət isə üç onilə sığan müddətdə davam edəndə ümummilli bəlaya, hər bir azərbaycanlı ailəsinin kədərinə çevrilir.

Odur ki, bu qəbil məsələlərlə bağlı dünyanın istənilən nöqtəsində ədalətsiz, insafsız, həqiqətlərin tərsini avandına çevirən xətt yürüdən, haqsıza nəyin bahasına olur-olsun haqq qazandırmağa çalışan istənilən kəs və qurum bilməlidir ki, bununla birbaşa hər bir azərbaycanlının və bütöv millətin heysiyyətinə toxunur.

Azərbaycan xalqı isə ona qarşı belə təhqiramiz yanaşmaya dözməz, belə həqarətli münasibət bəsləyənləri bağışlamaz!

Ermənistanın, dünya erməniçiliyinin və onların fitnələrini hər zaman körükləmiş güclərin yaratmış olduğu informasiya blokadası çoxdan yarılıb, artıq 1990-cı illərin ortalarından etibarən dünyaya ardıcıl olaraq yayılan məlumatların, çoxsaylı nəşrlərin sayəsində beynəlxalq aləmə Azərbaycan xalqının məruz qaldığı təcavüzdən nələr çəkdiyi, işğal altındakı ərazilərdə nələr törədildiyi də yaxşı bəllidir.

Axırıncı 5 il ərzində işğaldan qurtulduqdan sonra azad edilərək quruculuğuna başlanmış əraziləri dünyanın dörd bucağından gələrək ziyarət edənlər də ermənilərin Xirosimaya, Naqasakiyə döndərdiyi ərazilərdə azərbaycanlıların qayıdışdan sonra hansı xarüqələr yaratdığına da şahid kəsiliblər.

Özündə müasir dünyanın ən ağır münaqişələrindən birinə son qoymaq gücü tapmış Azərbaycan əslində, bu hünəri ilə həm də bəşəriyyətə xidmət edib. Ancaq Ermənistanın özündə də, onun pərdə arxasındakı yönəldiciləri arasında da bu gedişatla barışmaq istəməyənlər, sönmüş ocağı təzədən alovlandırmağa çalışanlar, qızışdırıcılar, təhrikçilər ara-sıra baş qaldırmaqdadır.

İsveç Riksdaqındakı "Ermənistanla dostluq qrupu" üzvlərinin imzaladığı bəyanat həmin təhlükəli xorla səsləşən və zərbə dalğası İsveç parlamentinə dəyən bir təşəbbüsdür.

Erməni tərəfin işğal dövründə həyatını əlindən aldığı minlərlə insan bir yana, onillərcə haqqında gerçək bilgiləri gizlətdiyi 4 min civarında azərbaycanlı əsir və girovumuz da bizi həmişə nigaran qoyub.

Dünya boyunca müxtəlif beynəlxalq təşkilatlarda illərdən bəri bu barədə səsimizi qaldırmışıq, saysız sənədlər hazırlamışıq. Yenə bu tələbimizi dilə gətiririk. İstəyirik ki, bu səs İsveç parlamentinə, Riksdaqdakı ermənilərlə dostluq edən qrupun üzvlərinə və onların digər həmkarlarına da çatsın.

Azərbaycanda indi müharibə cinayətkarlarının məhkəməsi gedir: açıq, ədalətli, dünyanın gözü qarşısında. O ittiham onunanlar özləri günahlarını boyunlarına alırlar, peşimançılıqlarını dilə gətirirlər, onlara məhbəsdə olduqları müddətdə bəslənən insani münasibətdən razılıq edirlər.

Bizim vaxtilə erməni dustaqlığında və əsirliyində olanlara qarşı törədilmiş cəllad münasibətinin cildlərə sığacaq qədər sübutları, dəlilləri var.

Yazılıb, çəkilib – kitablarda, məqalələrdə, tükürpədən sənədli filmlərdə əksini tapıb, bunları dünyaya yaymışıq, internet hörümçəyi həmin həqiqətləri ani olaraq istənilən vaxt dünyanın ən uzaq nöqtəsindəki müşahidəçi və izləyiciyə göstərə bilir. Ancaq görmək, anlamaq, həmdərd ola bilməkçün gərək baxmaq, görmək, oxumaq istəyin də ola.

İsveç parlamentində həmin bəyanatı imzalamış o dəstənin belə bir istəyi varmı? Yoxdur və onlar hərbi əməliyyatlar bitəndən, münaqişə tərəfləri arasında döyüşlərin dayandırılması haqda razılıq əldə ediləndən sonra artıq casusluq, təxribat törətdiyinə, terrorçuluğa görə həbsə alınanları məsumlaşdırır, "hərbi əsir" adlandırır.

Cenevrə Konvensiyasından, Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən dəm vuranlar, Azərbaycana utanıb-qızarmadan şər atan kəslər tarixi və hüquqi məsuliyyətlərini unutmamalıdırlar.

Bəyanata imza atan Markus Viechel oftalmoloq oğludur, gərək həqiqətləri daha yaxşı görə. Amma görmür, çünki o, çoxdan ermənlərlə bağlıdır, Ermənistan parlamentinin Fəxri medalı ilə təltif edilib, üstəlik, oradan bir medal da alıb. Daha başqa nələr alıb, özü və Allahı bilir.

Bəyanata imza atanlardan digəri – Björn Söder çoxdandır ki, İsveç kilsə məclisinin tam üzvü, dinə bağlı, demək, İlahiyə yaxın olmalı şəxsdir. Yaraşarmı ki, bu cür müqəddəsliyə üz tutan bir deputat o biri yandan müharibə canilərini "siyasi xadim", terrorçuları "mülki şəxslər" adlandırır?!

Axı yerdə bu sərsəm bəyanatı oxuyan-eşidən adamlar öz yerində, yuxarıdan Allah da baxır, görür, cənab Söder!

Riyakar bəyanatın digər imzaçısı, əslən iranlı olan Nima Qulam gərək haqqa, düzlüyə, ədalətə tam əks olan bu sənədə qol çəkəndə düşdüyü təsirin dumanından ayılaraq anasını yada sala idi. Axı onun anası öz ölkəsində haqsızlığa qarşı mübarizələr aparmış, bu yolda cəzaya məruz qalmaqdan da çəkinməmiş bir insandır, axı onun ailəsi də qaçıqınlıq acısının nə olduğunu taleyi ilə yaşayıb və belə bir böhtançı, qərəzli, həqiqətlərə qaba etinasızlıqdan ibarət sənədə imza atanda bunu da düşünməlidir ki, bu haqsızlığı ilə ömrünə ermənilərin zədələr vurduğu yüz minlərlə qaçqını, köçkünü incidir.

Bəyanata imza atanların ən islamafobu və ən erməniçisi Erik Hellsborndur ki, qatı ermənipərəst mövqeyi ilə çoxdanın məşhurudur və bu da onun "müdrik" kəşfidir ki, sən demə "soyqırımına bais olan multikulturalizmdir".

Özünü soyqırım bilicisi sayan bu fərdin söz yox, insanlığa qarşı zəmanəmizin ən dəhşətli soyqırımı olan Xocalı qətliamından xəbəri var.

Ancaq imzaladığı bəyanatdakı məntiqlə Erik Hellsborn, yəqin Xocalı genosidini də humanitar yardım hesab edər.

Sapı Türkiyədən olan "balta" – Yusuf Aydın dincə xaçpərəstdir və öz aləmində, guya bu biabırçı bəyanata imza atmasını xristian həmrəyliyi hesab edir. Ancaq fəaliyyətləri izlənincə onun da qatı erməniçi və islamofob olduğu aşkarlanır.

Yəni imzaçılar belə bir bir-birinə yaraşan zatlardan ibarətdir.

Qaldı ki, bəyanata imza atanlardan daha biri Arin Karapet, biz vaxtilə Avropa Şurası Parlament Assambleyasında onunla həmkar olmuşuq.

Karapetə üz tuturam – erməni olanda nə olar, axı ağa "qara", qaraya "ağ" deyən belə yazıya imza atanda onu da düşünün ki, hətta Ermənistanın özündə artıq bir çox insanlar indi sizin imzaladığınız bu kağızdakının əksini düşünür!

Azərbaycan beynəlxalq hüquqa uyğun şəkildə öz haqqını müdafiə edib, suverenliyini, ərazi bütövlüyünü bərpa edib, onun tam hüquqi və mənəvi haqqı vardır ki, vətəndaşlarına və ərazisinə qarşı ağır cinayətlər törətmişləri yenə hüququn aliliyinə tam riayətlə mühakimə etsin.

Bu səbəbdən də İsveç parlamentindəki diktə yerinə yetirən bir ovuc deputatın imzaladığı bəyanat ilk sözündən son kəlməsinədək tənqidə dözmür, guya o cinayətkarların "səbəbsiz ittihamlarla", "istintaqsız olaraq" həbs edilməsi, guya "siyasi təzyiqin aləti kimi istifadə edilməsi", guya "bunun insan haqlarına birbaşa hücum olması" kimi çürük deyişlər ikrah doğurur.

Hələ bunlar azmış kimi ürəklərindən keçir ki, onların bu, qanuna, əxlaqa və hüquqa zidd bəyanatlarına beynəlxalq reaksiya da olsun, qabaqdangəlmişlik edərək gileylənirlər ki, "bu yalnız diplomatiya məsələsi deyil, əxlaqi və hüquqi bir öhdəlikdir".

Hər bir siyasətçinin də, sıravi insanın da ilk vəzifəsi və öhdəliyi məhz vicdanlı, əxlaqlı olmaq, yalandan qaçmaq, saxtakarlıqdan uzaq olmaq, göz görə-görə həqiqəti təhrif etməməkdir.

Bu bəyanatsa yalanın, saxtakarlığın, əxlaqı meyarlardan və hüquqi şərtlərdən uzaqdüşmənin ən bariz örnəyidir və əlbəttə ki, mütləq şəkildə rədd edilir.

Azərbaycanlıların bu atalar sözü yəqin bir başqa şəkildə dünyanın ən müxtəlif xalqlarında, o cümlədən İsveçdə də var: "Doğruya zaval yoxdur, çəksələr min divana".

Azərbaycan haqq mübarizəsini aparıb, torpaqlarını düşmən tapdağından azad edib və qətiyyətlə, ardıcıllıqla da 30 il ərzində ona qarşı soyqırımı cinayətindən tutmuş, yüz cür başqa fəlakətlər gətirmiş cinayətkarların hamısını bir-bir ədalət divanına çəkəcək, beynəlxalq hüquq müstəvisində onların hamısının da uyğun cəzasını ədalətlə müəyyənləşdirəcəkdir ki, dünyanın başqa bənzər cinayət törədənlərinə də dərs, görk olsun.

İsveç parlamentindəki o islamofob, erməniçi bir neçə nəfər də, bütün onlarabənzərlər də unutmasın ki, haqq yolundakı bu inamlı gedişlərimizə belə şərçi, qondarma, həqiqətlə daban-dabana zidd tərpənişlərlə nə bu gün, nə sabah heç kəs qarşı dura bilməyəcək! Haqqa qarşı haqsızlıqla çıxanların məğlubluğu elə başlanğıcdan labüddür!

---

**Replika**

# Brüssel bölgəyə "nəzarət edir"

**Rəsmi Bakı Avropa İttifaqının Emənistana göndərdiyi alman-fransız müşahidəçilərin özlərinin ilkin missiyalarının sərhədlərini çoxdan aşdığına, onun artıq hərbiləşdirilmiş "status" qazanaraq NATO-ya "transformasiya" etdiyinə, eləcə də mandatlarının daha iki il uzadılmasına etirazını bildirib. Bu yaxınlarda avropalı casus-kəşfiyyatçıların mandatının həm də yeni elementlərlə "zənginləşdirmək" planları üzə çıxıb. Bundan sonra mülki missiya kəşfiyyat orqanı kimi sərhədin Ermənistan–Türkiyə və Ermənistan–İran hissələrində "xidmət" göstərəcək tamhüquqlu hərbi kontingentə çevriləcək. Yəni, Aİ missiyanın müddətini uzatmaqla yanaşı, həm də onun "fəaliyyət coğrafiyasını" genişləndirir.**



Aİ missiyasının müddətinin daha iki il uzadılmasını "böyük uğur" adlandıran "binokllu diplomatların" rəhbəri, istefada olan alman polkovniki Markus Ritter müşahidəçilərin "insrtumentlərinin" dəyişməyəcəyini bildirib: "Biz şərti sərhəd boyu patrul xidmətini həyata keçirir, fotoçəkilişlər aparır və dəyişikliklər barədə Brüsselə hesabat veririk". M.Ritterin bundan sonra dedikləri isə xüsusi maraq kəsb edir: "Biz burada kəşfiyyatla məşğul deyilik, bölgədə sabitliyin saxlanmasına kömək edirik".

Kəşfiyyatçının könüllü şəkildə kəşfiyyatçı olduğunu etiraf etməsini eşitmisinizmi? Bunu Aİ missiyasının "baş kəşfiyyatçısının" özünəməxsus etirafı kimi qəbul etmək olar. Axı, Bakının əlində bunu sübuta yetirən foto-video faktlar var. Azərbaycanlıların müşahidəçilərin hərəkətlərini çəkdiklərini deyən Ritter hərdən onların üstünə qışqırdıqlarını da yazır. Amma, o, şərti sərhədin bu üzündən onların ünvanına nələrin deyildiyini bilmir. Son aylar heç bir insidentin qeydə alınmadığını, vəziyyətin sabitləşdiyini, eskalasiya riskinin olmadığını qeyd edən missiya rəhbərinin bir il bundan əvvəl "əgər Azərbaycan hələ də Ermənistana hücum etməyibsə, deməli, missiya öz vəzifələrinin öhdəsindən layiqincə gəlir" bəyanatını oxuculara xatırlatmağımız yerinə düşər.

Bu isə Ritterin növbəti açıqlamasıdır: "Bizim fəaliyyətimiz Aİ-nin nümayəndəliyi vasitəsilə əvvəlcədən Bakıya çatdırılır, ona görə də heç bir gizli hərəkət yoxdur. Biz real vəziyyəti beynəlxalq ictimaiyyətdən, xüsusən də Brüsseldən gizlətməyə imkan vermirik. Bu, həm Ermənistan, həm də Azərbaycan üçün əlverişsizdir. Çünki indi onlar Aİ-nin xəbəri olmadan nəyəsə başlaya bilməzlər".

Əsas missiyalarının "real vəziyyəti Brüsseldən gizlətməyə imkan verməmək" olduğu alman-fransız kəşfiyyatçılarının "komandanının" dediklərində təkcə lovğalıq elementləri deyil, həm də hədsiz qürur hissi keçirməyini duymaq çətin deyil. Yəni, Ritter demək istəyir ki, Brüssel vəziyyətə "tam nəzarət edir".

Adı sülhməramlı olan Avropanın polis və jandarmları bölgədə gərginlik mənbəyi olaraq qalmaqdadırlar. Artıq Ermənistan və Azərbaycan arasında sərhədin bir hissəsi müəyyənləşib və bu proses davam etdirilir. Ən azı buna görə Aİ-nin müşahidəçi missiyasının şərti sərhəddə qalması sülh sazişinin imzalanmasına əngəl olmaqla yanaşı, bölgədə əlaqələrin bərpasına maneədir.

Bütün bunları nəzərə alaraq, birmənalı şəkildə deyə bilərik ki, Aİ-nin Ermənistanla Azərbaycanın şərti sərhədindəki təxribatçı casus missiyası olmayan mandatının şərtlərini, sərhədlərini və mahiyyətini əhəmiyyətli dərəcədə genişləndirərək bölgədə vəziyyəti qarışdırmaq niyyətindən əl çəkmir.

Arxada qalan iki il göstərdi ki, Aİ-nin bəyan etdiyi məqsədləri nə qədər humanist səslənsə də, missiyanın əsl mahiyyəti bunun tam əksidir.

***İ.BƏDİRXANLI***
***XQ***

# Revanşistlərin "absurd teatrı"

## *Daşnaklar müharibədən bezmiş erməni xalqını Azərbaycanla döyüşə çağırırlar*

**Deyəsən, dünyada baş verən geosiyasi dəyişikliklər, güc mərkəzləri arasında müşahidə edilən mübarizənin yeni mərhələsi daşnakları xam xəyallara qapılmağa sövq edib. Son günlər bu cinahdan hay cəmiyyətinə edilən revanşist çağırışların zəminində məhz beynəlxalq amilin dayandığını söyləyə bilərik.**

"Beynəlxalq aləmdə vəziyyət dəyişib və bu, bizə fövqəlgüclərlə bir-birini tamamlayan şəkildə işləmək və maraqlarımızı qorumaq imkanı verir". Bunu Ermənistan parlamentindəki "Ermənistan" fraksiyasının deputatı, "Daşnaksütyun" partiyasının nümayəndəsi Armen Rustamyan mətbuat konfransında bildirib. Rustamyan bu qənaətdədir ki, "Daşnaksütyun" hazırda bu aydın gündəmi bölüşən bütün qüvvələrlə, o cümlədən partiyanın ali orqanı səviyyəsində əməkdaşlığa hazır olduqlarını bəyan edib. O, daxildə yürüdülən "antimilli kursda dəyişiklik etmək üçün zəruri şərt kimi hakimiyyət dəyişikliyini həyata keçirməyə hazır olmağın" vacibliyini önə çəkib.

Aydın məsələdir ki, daşnaklar mövcud hakimiyyəti necə devirmək ətrafında açıq və gizli sövdələşmələri həmişə davam etdiriblər. Rustamyan partiyalarının ümumi yığıncağında mübarizələrinin özəyini təşkil edən üç müxalifət hərəkatının şansının təhlil edildiyini bildirib: "Təbii ki, ümumi yığıncaqda məqsədimizə çata bilməməyimizlə bağlı narazılıq da ifadə olundu. Ümumi yığıncaq müxalifət hərəkatlarının bütün prosesini daha dolğun təhlil etmək və daha düzgün qərarlar qəbul etmək, keçmiş təcrübədən ibrət götürmək vəzifəsini ortaya qoydu ki, hakimiyyət dəyişikliyi həyata keçirilsin".

Hay daşnakın sözlərinə görə, Ermənistanın "yeni xarici siyasətə ehtiyacı var ki, öz maraqları naminə indiki Ermənistan dövlətinin mövcudluğundan irəli gələn ölkələrlə əlaqələrimizi bərpa edə bilsin". Bu kontekstdə, o, qarşıda duran əsas vəzifə kimi Rusiya ilə "hüquqi əsası olan strateji müttəfiqliyi" gücləndirməyin vacibliyini partiyadaşlarının nəzərinə çatdırıb. Bundan başqa, Rustamyan mətbuat konfransında İrəvanın təcili surətdə Tehranla hərbi-siyasi ittifaq bağlamağa çağırıb.

* * *

Azərbaycanla yeni müharibəyə hazırlaşdıqlarını açıq bəyan edən daşnak-revanşistlər partiyalarının yaxın illər üçün "strategiya"sını dərc edib. Sənəddə digər müddəalarla yanaşı, əsas vəzifələrin sırasında Azərbaycanın ərazi bütövlüyünə birbaşa meydan oxuyan məqamlar da yer alıb. "Strategiya"nın maddələrindən birində "Ermənistan dövlətinin möhkəmləndirilməsi, ərazi bütövlüyü və suverenliyinin bərpası" göstərilir. "Birincisi, Müstəqillik bəyannaməsinin ruhuna uyğun olaraq, Ermənistan Respublikasının suverenliyi və ərazi bütövlüyünün bərpası məsələsidir". "Daşnaksütyun" partiyasının funksioneri Yakob Ter-Xaçaturyan bunu qarşıda duran bir nömrəli məqsəd kimi qeyd edib.

Burada qeyd etməyi vacib sayırıq ki, daşnakların "strategiyasına" təkcə Qarabağı deyil, Naxçıvanı, eləcə də erməni millətçilərinin "Qərbi Ermənistan" adlandırdıqları Türkiyənin şərqini Ermənistanın tərkibində görmələri də daxildir. Yüz il bundan əvvəl Türkiyə Cümhuriyyəti tərəfindən tarixin zibilliyinə atılmış mənfur Sevr müqaviləsi, görünür, daşnaklar üçün hələ də "müqəddəs mətn" olaraq qalmaqdadır. Onu da aydın görmək mümkündür ki, Qarabağa iddia daşnaklar üçün əsas strateji hədəf sayılır. Onlar "Dağlıq Qarabağın" azad edilməsi uğrunda milli həmrəyliklə yanaşı, daha vacib vəzifə kimi qarşılarına "Arsax ermənilərinin öz evlərinə qayıtması üçün beynəlxalq siyasi və hüquqi təminatlardan istifadə etmək" məsələsini qoyurlar. Rustamyan Qarabağa qayıdış üçün hüquqi əsasların mövcudluğunu, o cümlədən Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarını yada salmağı da unutmur.

Beləliklə, qarşımızda bütün eskizləri aşkar sezilən bir mənzərə var. Ermənistanın əsas müxalifət partiyalarından biri, Koçaryanın partiyası ilə ittifaqda olan "Daşnaksütyun" yenidən Azərbaycana qarşı ərazi iddiaları məsələsini özünün rəsmi proqramı kimi müəyyənləşdirib. Yəni, etiraf etməliyik ki, "Daşnaksütyun"un azərbaycanlılara və türklərə qarşı proqram xarakterli nifrətinin anatomiyasında heç nə dəyişməyib. İntəhası, burada diqqəti çəkən başqa bir məqam odur ki, dünya erməniləri indiyə qədər heç vaxt indiki kimi ideoloji cəhətdən bu qədər səpələnmiş bir cəmiyyəti təmsil etməmişdilər.



**Mövzu ilə bağlı XQ-yə fikirlərini açıqlayan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** daşnakların Ermənistan cəmiyyətində heç bir nüfuza malik olmadıqlarını



bildirdi: "Onların dövrü keçmişdə qaldı. SSRİ dağılan zaman daşnakların müəyyən qədər çəkisi vardı. Amma elə o dövrdə də Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan daşnaklarla mübarizə aparırdı. Hətta onların bir çox liderlərini həbs etdirmişdi. Koçaryan hakimiyyətə gələndən sonra isə daşnaklar onunla ittifaq yaratdılar. Bu da danılmaz faktdır ki, İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətdən sonra erməni cəmiyyəti müharibədən çəkinir, qorxur. Yəni, revanşizmə, yeni döyüşə çağırışlar edən heç bir siyasi təşkilat hayların dəstəyini qazana bilməyəcək. Çünki Ermənistan 44 gündə Azərbaycandan elə bir zərbə aldı ki, özünə gəlməkdən söhbət gedə bilməz. 8 minə yaxın hərbçisini itirən Ermənistanda heç bir ailə öz övladını müharibəyə göndərmək istəmir. Axı, həmin ailələr bunun heç bir faydasının olmayacağını, havayı itki verəcəklərini yaxşı anlayırlar. Daşnaklar onları buna çağırırlar.

Azərbaycan 10 milyon əhaliyə və bölgənin ən güclü ordusuna malikdir. Üstəlik, Türkiyə kimi strateji müttəfiqimiz də yanımızdadır. Əhalisinin sayı cəmi 2 milyon 500 min olan və azalmağa doğru gedən Ermənistan Azərbaycanla nə edə bilər? Heç nə! İstənilən xarakterli növbəti müharibədə yenə məğlub olacaq və itkilər verəcək. Buna görə daşnakların revanşist çağırışları nə real vəziyyətə uyğundur, nə də özünə tərəfdar qazanacaq. İndi baş nazir Paşinyan Azərbaycanla sülh sazişinin imzalanmasını yubatsa da, o, müharibə terminini dilinə gətirməkdən çəkinir. Birincisi, onu dəqiq bilir ki, müharibədə yenə məğlub olacaq, ikincisi, bu ritorikanın erməni cəmiyyətində qəbul olunmadığını çox yaxşı bilir".

* * *

Daşnakların xaricdəki erməni lobbisi və diasporu tərəfindən fəal şəkildə dəstəkləndiyi məlumdur. Bu da başadüşüləndir. Ermənistan vətəndaşlarının reallıqdan uzaq utopik ideyalara, torpaqlarını artırmaq, qonşularla müharibə haqqında fantaziyalara inanmadıqlarını onlar da yaxşı bilirlər. Sadəcə olaraq, zəngin ermənilər mövcud olduqlarını unutdurmamaq, varlıqlarının mənasını itirməmək üçün pul kisələrinin ağzını səxavətlə açmağa daim hazır vəziyyətdədirlər. Onlardan ötrü daşnakların revanşizm kimi "biznez layihələri" ianələr toplamaq üsulundan başqa bir şey deyil. Bu barədə narahatlıqları isə bahalı restoranda "steyk" yeyərək lətifə danışmaq səviyyəsindədir. Çünki marselli, kaliforniyalı varlı hay üçün hər şeyin boşa getməsinin, pulunun, sadəcə, oğurlanmasının o qədər də əhəmiyyəti yoxdur. Əsas odur ki, onların içlərində yemlədikləri "böyük erməni qüruru" razı qalsın. Əlbəttə ki, bu təsəvvürlər pul verənlərə aiddir.

Daşnakların liderlərinə gəlincə, onların motivasiyası o qədər də mürəkkəb deyil. Birincisi, diaspordan daha çox pul qoparmağa davam etmək, ikincisi, Ermənistanda hakimiyyəti ələ keçirmək... Çox güman ki, daşnaklar iqtidar partiyasının nisbi sabitliyi, əhalinin hazırkı baş nazirdən böyük məyusluğu fonunda məqsədlərini həyata keçirmək üçün fürsət gözləyirlər. Aydın məsələdir ki, onların "X saatı" Ermənistanın yeni konstitusiya layihəsinə səs verməsi olacaq. Axı, həmin an əsas qanundan müstəqillik bəyannaməsinə istinad, yəni Azərbaycana qarşı ərazi iddiaları tam çıxarılacaq. Daşnaklar məhz bu səsvermə anında "əsaslara qayıtmağın" vaxtının çatdığını anlayan ermənilərin qıcıqlanma hisslərinə təzyiq göstərməyi planlayırlar.

Paşinyanın komandası isə bu islahatı "kart-blanş" əldə etdikdən sonra həyata keçirmək niyyətindədir. Həmin "kart-blanş" 2026-cı il parlament seçkilərində qazanacağı həlledici çoxluq olmalıdır. Bu da öz növbəsində müxalifətin "Mülki müqavilə"ni iqtidardan kənarlaşdırmaq planını xeyli çətinləşdirmiş olacaq. Amma onu da unutmaq olmaz ki, daşnakların arxasında "zəngin terror təcrübəsi" dayanır. Əgər seçkilərdə ciddi nəticə əldə etməsələr, o zaman daxildə sabitliyi pozmağa bel bağlamalı olacaqlar. Baxmayaraq ki, bu variantı proqnozlaşdırmaq elə də xoşagələn məşğuliyyət deyil. Seçkilərə hələ bir il var və hakim partiyanın o vaxta qədər mövqeyini qoruyub saxlayacağını əminliklə söyləmək olmaz.

Daşnakların "absurd teatrı" adlandırıla biləcək yeni müharibəyə hazırlıq planlarını qəsdən reklam etdikləri də istisna edilməməlidir. Məqsəd bu yolla, guya, Azərbaycanı əndişələndirmək, cəmiyyətdə qorxu hissi yaratmaq və sülh danışıqlarında arzuladıqları güzəştləri əldə etməkdir. Rustamyanların, ter-xaçaturyanların istismar müddəti çoxdan qurtarmış belə ucuz "diplomatik manevrlərlə" nəyəsə nail olacaqlarına bağladıqları ümidlər elə arzu və xəyal olaraq qalacaq. Hətta Ermənistan müdafiə nazirliyinin Fransadan aldığı 26 ədəd "Bastion" zirehli transportyorunu, 12 ədəd "Sezar" artilleriya qurğusunu öz saytında tez-tez nümayiş etdirməsinin də bir faydası olmayacaq.

Bakı öz siyasətini Ermənistanda kimin hakimiyyətə gəlməsindən asılı olmayaraq hadisələrin ən pis ssenarilər üzrə inkişafına uyğun şəkildə qurub. Əgər Ermənistan tərəfindən belə bir avantürist ssenarini həyata keçirmək cəhdləri olarsa, o zaman "dəmir yumruq" üçün hayların partiya mənsubiyyəti heç bir əhəmiyyət kəsb etməyəcək.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ermənistan apreldə Azərbaycana qarşı müharibəyə başlamaq niyyətindədir. Bu barədə məlumatı "Caliber.az" saytı özünün etibarlı mənbələrinə istinadən yayıb. Məlumatda rəsmi İrəvanın destruktiv mövqeyi əsaslandırılıb. Amma yazımız bilavasitə bununla bağlı deyil. Halbuki, vurğulayacağımız məsələ də Ermənistanın savaş hazırlığı şübhələrini artırmaqdadır.**

# İki fundamental şərt... yoxsa müharibə?

## *Savaş hazırlığı və Ermənistanın regional sülhə təhdid mahiyyəti*

Ermənistan konstitusiyasında, bir sıra qanunvericilik aktlarında ölkəmiz əleyhinə ərazi iddialarının davam etdirilməsi və ATƏT-in Minsk qrupunun saxlanması. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qazaxıstanın Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu ilə görüşündə ölkəmiz və Ermənistan arasında sülh sazişi layihəsi üzrə ikitərəfli danışıqlar prosesi çərçivəsində nailiyyətin əldə edildiyini bildirsə də, diqqətə çatdırdığımız məqamları rəsmi İrəvanın mövqeyindəki fundamemental problem olaraq vurğulayıb.

Azərbaycan XİN başçısının fikirləri Ermənistanda geniş müzakirə predmetinə çevrilib. Ölkə iqtidarına yaxın dairələr C. Bayramovun söylədiklərini rəsmi Bakının, guya mənasız təkidi, barış mühitinin yaranmasına əngəl törətmək əzmi, bir qədər də "irəli gedərək" işğalçılıq niyyəti kimi dəyərləndiriblər. Erməni hakimiyyətinə zidd çevrələr isə nazirimizin söylədiklərini Azərbaycan rəhbərliyinin İrəvana demarşı kontekstində qələmə veriblər.

Bəli, C.Bayramovun bildirdikləri Azərbaycanın sülh şərtləri ilə bağlı qətiyyətli mövqe tutduğunun növbəti sübutudur. Buna qarşılıq Ermənistanın manipulyativ davrandığını, sülh gündəmini dəyişmək cəhdlərini görürük. Məsələn, erməni iqtidarının təmsilçiləri "Azərbaycanda saxlanılan erməni məhbuslar" şousu yaradaraq vurğulayırlar ki, humanitar məsələlərin həllini tapmaması sülhə problemdir. Əlbəttə, bu bəhanədir. Görəsən, bir ölkənin, indiki halda, Ermənistanın dövlət sənədlərində ərazi iddiasının təsbit olunması humanitar təsəvvürlərə zidd deyilmi? Tamamilə ziddir! Ermənistan bu təsəvvürü dəyişmək istəyirmi? Xeyr!

Baş nazir Nikol Paşinyan administrasiyası konstitusiya dəyişikliyi ilə bağlı referendum anonsunu verib. Ancaq, bu, anons olaraq da qalıb. Yəni, mövcud istiqamətdə hansısa irəliləyiş yoxdur. ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı Ermənistanın Azərbaycanla birgə müvafiq müraciət ünvanlamasına gəlincə, Nikolun bir müddət əvvəl açıqladığı "Real Ermənistan manifesti"nə nəzər salsaq, məsələ ən sonda reallaşdırılmalıdır. Hər halda, Nikol belə hesab edir və deməli...

Qeyd edək ki, Paşinyanın "manifestində" Azərbaycan – Ermənistan münasibətlərindən də bəhs olunmuş, mövzuya dair bəzi məqamlar şərt təsiri bağışlamış və ATƏT-in Minsk qrupunun ləğvinin sona saxlanılması onu deməyə əsas vermişdi ki, rəsmi İrəvan üçün sözügedən təsisatın varlığı ölkəmizə təzyiq vasitəsidir. Təxminən belə: Ermənistanın mənafeyi təmin edilməsə, ərazi iddiası qalacaq.

Ölkəmiz Ermənistanın qanunvericilik sənədlərində dəyişikliyi və ATƏT-in Minsk qrupunun ləğvini eyni müstəviyə əbəs yerə gətirmir. Axı məhz Minsk qrupu Azərbaycana qarşı ərazi iddiasının mövcudluğundan qaynaqlanır. Qurum otuz ilə yaxın müddətdə erməni işğalına haqq qazandırmağa çalışmış, təcavüzü leqallaşdırmağa xidmət göstərmişdi. İndinin özündə də Ermənistanda Azərbaycanla danışıqları ATƏT-in Minsk qrupu çərçivəsində qaytarmaq çağırışları eşidilməkdədir. Hətta ötən il ölkənin xarici işlər naziri Ararat Mirzoyan qrupun nizamlayıcı roluna eyham vuran tərzdə danışmışdı.

Əlbəttə, rəsmi İrəvan Bakının sülh şərtinin fundamentallığını dərk edir. Yəni, barışın vurğuladığımız iki postulatının vacibliyini anlayır. Ona görə Bakının şərtlərini, guya, yerinə yetirirmiş kimi davranıb da. Söhbət Ermənistan Konstitusiya Məhkəməsinin ötən ilin sentyabrında qəbul etdiyi qərardan gedir. Qərarda ölkənin İstiqlal bəyannaməsinin əsas qanunda yer almayan müddəalarının etibarsız sayıldığı açıqlanırdı. Halbuki bu yanaşma qənaətbəxş deyil.

Əvvəla, bir qərarla konstitusiyanın istinad nöqtəsi sıradan çıxarıla bilməz. İkincisi, ərazi iddiası erməni milli identikliyinin göstəricisidir və ondan imtinanın hansısa normativ aktla tənzimlənməsi yetərsizdir. Burada xalqın iradəsi əsas götürülməlidir. Erməni xalqının iradə meydanı isə referendum olmalıdır. O referendum ki, adı var, özü yox.



Başqa bir yandan, Paşinyanın əsaslandırmasından belə anlaşılır ki, nə zamansa keçirilməsi nəzərdə tutulan referendumda konstitusiyanın ərazi iddiasından uzaqlaşma seqmenti üzərində dayanılmayacaq. Başqa sözlə desək, erməni ana qanunu İstiqlal bəyannaməsinin məkr strukturundan xilas olunmayacaq.

Deməli, Azərbaycan israr göstəməkdə haqlıdır. Ölkəmiz həm də ona görə haqlıdır ki, hazırda Ermənistan rəhbərliyi sülh müqaviləsi ilə bağlı qeyri-konstruktiv mövqe tutur. Belə bir mövqe Bakı ilə İrəvan arasında etimad mühitini zədələyir. Etimad mühiti yoxdursa, ərazi iddiasının intensiv xarakter daşımayacağına inanmaq mümkünsüzdür.

Diqqət yetirək, bu gün Ermənistan rəhbərliyinin təmsilçiləri özlərini elə aparırlar ki, elə bil 44 günlük müharibə olmayıb və ölkələri savaşda acınacaqlı məğlubiyyətlə üzləşməyib. Sanki 2020-ci ildə müxtəlif xarici ölkələrə zənglər edib aman diləyən onlar deyildilər. Rəsmi İrəvan, həmçinin müharibəyə son qoyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın Ermənistan üçün kapitulyasiya aktı olduğunu da danır. Bütün bunlar mahiyyətcə Ermənistanın reallıqdan uzaq düşməsinin göstəriciləridir. Hələ başqa məqamları, xüsusən, Paşinyan iqtidarının üçtərəfli Bəyanatın şərtlərinin icrasından boyun qaçırmasını bir kənara qoyuruq.

Erməni avantürizminin, belə demək mümkünsə, ən parlaq göstəricisi ərazi iddiasıdır. Sonda isə onu da bildirək ki, ölkəmizin üzərində dayandığımız, C.Bayramovun növbəti dəfə səsləndirdiyi iki fundamental sülh şərti üçtərəfli bəyanatın və 44 günlük müharibənin nəticələrinin Paşinyan administrasiyası tərəfindən dərk edilməməsindən, rəsmi İrəvanın havadarlarına arxalanıb Cənubi Qafqazda yeni geosiyasi şərait formalaşdırmaq məramından da qaynaqlanır. Deməli, əvvəldə diqqətə çatdırdığımız məqama, yəni Ermənistanın apreldə müharibəyə hazırlaşdığına dair məlumata həssas yanaşmaq lazımdır. Axı elementar məntiq var. Bu məntiqə görə, sülhdən boyun qaçıran savaş üçün fürsət gözləyəndir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# XXI əsrin yeni geosiyasi çağırışları və Azərbaycan



III MƏQALƏ

## Sürətlə dəyişən geosiyasi situasiyada liderlik

Mövzuya aid II məqalənin son tezisini xatırladaq: "Dövlət başçısının lider kimi vəzifəsi və məsuliyyəti ilə dövlətin ölkə olaraq regional liderliyinin vəzifəsi və məsuliyyəti nisbətinin adekvat elmi dərki aktualdır".

Bu tezis əsas olaraq regional lider səviyyəsinə yüksəlmiş ölkənin başçısı və liderinə aiddir. Biz burada konkret olaraq Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu liderlik nümunəsinin fəlsəfi və politoloji təhlili aspektində məsələyə yanaşırıq. Yəni problemə ümumnəzəri aspektdə deyil, İlham Əliyevin XXI əsrdə sürətlə dəyişən geosiyasi dinamika fonunda şəxsi liderliyi ilə Azərbaycan Respublikası dövlətinin Cənubi Qafqazın lideri kimi uğurlu olmasının siyasi-nəzəri şərtlərini araşdırmaq kontekstində baxmağa çalışırıq.

Bu yanaşmanın bütövlükdə İlham Əliyevin liderlik nümunəsini politoloji ümumiləşdirməyə imkan verə biləcəyini düşünürük. Çünki realpolitikada məhz İlham Əliyev milli və regional miqyaslarda uğurlu şəxsi liderlik nümunəsi göstərir. Hazırda bu nümunənin regionlararası və daha sonra qlobal miqyasa proyeksiyasının faydalı olduğuna böyük əminliyimiz vardır. Bu baxımdan indi İlham Əliyevin liderlik nümunəsini dövlətimizin regional liderliyi ilə ahəngdarlıq kontekstində tədqiq etmək sonucda, ümumiyyətlə, müasir fəlsəfi və politoloji tədqiqatlar üçün faydalı olar.

Vurğuladığımız kimi, burada sürətlə dəyişən geosiyasi situasiyada dövlət başçısının şəxsi liderliyi ilə ölkənin regional liderliyini uğurlu formul üzrə uyğunlaşdıra bilməsi həlledicidir. Bu məsələnin uğurlu həlli ən azı iki səbəbdən sadə deyildir.

Birincisi, müasir mərhələdə qlobal miqyasda geosiyasi dinamika ciddi şəkildə regional miqyasda situasiyaya təsir edir. Bu tezisin nəzəri əsası hazırda geosiyasi təlimlərdə geniş surətdə regionalizmin dünya siyasətinin başlıca altsistemi halına gəlməsi ilə bağlıdır. Yəni XXI əsrin siyasi və geosiyasi aspektdə xüsusiyyətlərindən biri qlobal səviyyədə geosiyasi mənzərənin formalaşmasında dünyanın regional struktulaşmasının ciddi rol oynadığına böyük əminliyin olmasıdır.

İkincisi, ancaq burada meydana daha mürəkkəb bir struktur-funksional faktor çıxır. Məsələ ondan ibarətdir ki, vurğuladığımız kontekstdə dünyanın vahid kriteriyalara görə regionlara bölünməsi mövcud deyildir. Burada çox müxtəlif bölgülər vardır və onların hər biri fərqli parametrlərə görə müəyyən olunurlar.

Məsələnin bu cür qoyuluşunun regionlaşmanın praktiki tərəfi ilə nəzəri təhlilinin mürəkkəb qarşılıqlı əlaqəsini əks etdirdiyinin qısa fəlsəfi və politoloji izahını verək. Sonrakı mərhələdə, bu, indiki yüzillikdə regionlaşma fonunda prosesin politoloji xüsusiyyətləri ilə əsrin sivilizasiya kimi meydana çıxardığı risklər, təhdidlər, qeyri-müəyyənliklər arasındakı sinergetik qarşılıqlı təsirləri kontekstində, konkret Cənubi Qafqazda şəxsi liderliklə dövlətin regional liderliyinin uğurlu harmoniyasına nail olmağın başlıca özəlliklərini aydınlaşdırmaq imkanı yaradacaq.

## XXI əsrdə regionlaşmanın ziddiyyətli dinamikası

Filosoflar və politoloqlar yazırlar ki, regionlaşma müasir dünyanın ən mühüm inkişaf trendidir (R.Kelli, B.Busan, A.S. Sidorov, V.V. Oqneva və başqaları). İsveç alimləri B.Heetne və F.Sederbaumun XX əsrin 80-ci ilıərində yaratdıqları "yeni regionalizm" təlimindən artıq çox illər keçmişdir. Həmin təlimdə regional məkanların mədəniyyət, təhlükəsizlik, siyasət və iqtisadiyyat üzrə özəllikləri əsasında münasibətlərin qurulmasından bəhs edilir. Burada regionlar kateqoriyalara bölünür, lakin hər biri üçün dövlətlə yanaşı, ictimai təşkilatların da rolunun artması gərəkli sayılır.

Maraqlıdır ki, yeni regionalizmdə çoxqütblü dünyaya keçid, Amerikanın liderliyinin zəifləməsi nəticəsində yaranan geosiyasi mənzərə, Vestfal sisteminin faktiki dağılması və digər vacib geosiyasi mahiyyətli faktorlar çox ciddi nəzərə alınır. Bütün bunlara XXI əsrin özəl geosiyasi gerçəkliklərini də əlavə edəndə qlobal miqyasda konkret regionda uğurlu fəaliyyətin qarşılıqlı münasibətlərinin həssaslığı və aktuallığı yeni bucaq altında görünür.

Bunların nəticəsidir ki, indi çox sayda regiondan danışılır. Məsələn, Aİ, NAFTA, ASEAN, TDT, "üç dəniz sistemi", MDB, ASİƏ (Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı) və s. Yeniləri də meydana gəlməkdədir. Hər regionun da dünya sistemində öz yeri və rolu vardır. Bütövlükdə, mənzərə ziddiyyətlidir və müxtəlif regionların fərqli maraqları müəyyən vacib məsələlərdə toqquşur.

Politoloqlar bunun geosiyasi nizama ciddi təsirini vurğulayırlar. Hətta hesab edənlər var ki, regionlaşmaya hazırkı dünya nizamının qeyri-sabit olması mənfi təsir edəcək və bu proses dayanacaq (məsələn, R.Kelli). Digərləri isə bu arqumenti ciddi saymırlar və hesab edirlər ki, regionlaşma prsoes kimi dayanmayacaq (məsələn, B. Busan, V.A.Derqaçyov və s.).

Bu qısa müqayisələrdən politoloji nəticələr çıxarmaq olar. Birincisi, XXI əsrdə regionlaşma daha da intensivləşmişdir.

İkincisi, bu proses ziddiyyətli xarakter daşıyır.

Üçüncüsü, hər bir regionda siyasi ldierliyin özünəməxsus xüsusiyyətləri mövcuddur və uğurlu olmağın ayrıca kriteriyaları vardır.

Bu qənaətlərin işığında Azərbaycan Prezidenti İlham Əliyevin XXI əsrdə uğurlu liderlik nümunəsinin geosiyasi kontekstinə dövlətimizin regional liderliyinin təmini fonunda baxa bilərik.

## XXI əsrin başlanğıcından – Vətən müharibəsinədək

XXI əsrin hazırda müşahidə edilən yeni geosiyasi çağırışlarının siyasi liderliyə təsirini aydın təsəvvür etmək üçün 2003-cü ildən II Qarabağ müharibəsinə qədər olan müddətdə İlham Əliyevin liderliyinin bir sıra özəlliklərinə nəzər salaq. Bu üsulla formalaşacaq baxışlar sistemi yeni çağırışların fonunda liderliyin dərk edilməsi üçün baza rolunu oynayacaq.

2003-2020-ci ilə qədər olan müddətdə regional və qlobal miqyaslarda geosiyasi çağırışların öz məzmunu və hədəfləri olmuşdur. Burada əsas olaraq müstəqil milli dövlətlərin güclü dövlətə çevrilməsi yolunda əngəllər yaradılmışdır. Dünyanın bir neçə böyük gücləri arasında regionlar uğrunda ciddi mübarizə getmişdir. Konkret olaraq, Cənubi Qafqazda Qərb, Rusiya, Türkiyə, İran və "sakit formada" Çin mübarizə aparmışlar. Bu mübarizədə yerli dövlətlərin əsas məqsədi maksimum dərəcədə müstəqil mövqeyi saxlamaqla güclənmək ola bilərdi. Lakin praktika göstərdi ki, Cənubi Qafqazda yalnız Azərbaycan bunu bacardı.

Gürcüstan tamamilə Qərbin tərəfini tutdu. Bunun əlaməti Gürcüstanın Aİ-nin assosiativ üzvülüyünə can atması və onun tam təsiri altına düşməsi oldu. ABŞ isə Tbilisi üçün əsas himayəedici güc rolunu oynayırdı (burada sorosçular daha aktiv idilər). Bunun fonunda Gürcüstan Rusiyaya geosiyasi və siyasi düşmən kəsildi. Acı nəticəsi 2008-ci ilin avqust müharibəsi oldu – Gürcüstanın iki bölgəsi Rusiyanın nəzarətinə keçdi. Hələ də bu vəziyyət aradan qalxmamışdır. Ancaq "Gürcü arzusu" hakimiyyətə gələndən sonra rəsmi Tbilisi "geosiyasi sükanını" tədricən "Şimala tərəf çevirməyə" başladı. Lakin bu proses də indi siyasi və geosiyasi anlamda yarımçıqdır. Yəni Gürcüstanın XXI əsrin başlanğıcından geosiyasi çağırışlara adekvat reaksiya verə bilmədiyi göz önündədir.

Ermənistan isə tamamilə uğursuz bir reaksiya verdi. Erməni siyasi şüurunda köhnə kriteriyalar əsasında süni yaradılmış geosiyasi təsəvvürlər daha da dərinləşdi. Ermənistan öncə Rusiyanın tam təsiri altına düşdü. Sonra isə Qərbə tədrici üstünlük verməyə baş vurdu. Assosiativ üzvlük məsələsi aktuallaşanda S.Sarkisyanı Moskvaya çağırdılar, "qulağını burdular" və o, dərhal bəyanat verdi ki, "Ermənistan Rusiyanın yanındadır". Bu, ermənilərin müstəqil dövlət yaratmaq xəyallarının puç olmasını göstərməklə yanaşı, XXI əsrin çağırışlarına qətiyyən adekvat olmayan mövqe tutmaq anlamına gəlirdi. II Qarabağ müharibəsi isə Ermənistanı hər mənada darmadağın etdi. İndiki çağırışların fonunda Ermənistan tərəddüd edir, qəti yol seçə bilmir və onun regiona hər hansı geosiyasi faydası yoxdur!

Deməli, XXI əsrdə real olaraq Gürcüstan və Ermənistanda uğurlu liderlik nümunəsi formalaşmadı. Bu ölkələrdə davamlı, dayanıqlı və perspektivli liderliyin formulu tapılmadı, kriteriyaları müəyyənləşmədi. Gürcüstan strateji tərəfdaş kimi, Azərbaycan üçün çox əhəmiyyətlidir, lakin fakt faktdır. Fakt göstərir ki, bizim dost qonşumuzda hələlik yeni liderlik nümunəsi yoxdur.

Bunların fonunda Azərbaycan liderinin keçdiyi yola baxaq. İlham Əliyev Heydər Əliyevin müəyyən etdiyi güclü dövlət quruculuğunun əsas prinsiplərini inkişaf etdirməyə və bu mənada dövlət quruculuğu təcrübəsinə "tam oturtmağa" başladı. Bu, müstəqil və milli dövlət üçün nəhəng seçim idi. Çünki çox müxtəlif mənbələrdən həmin prosesə ciddi əngəllər törədirdilər. Azərbaycanın əsl müstəqil güclü milli dövlət olmasının qarşısını almağa çalışırdılar.

İlham Əliyev həmin kənar təsirləri dəf edərək güclü dövlət quruculuğunun prinsiplərini həyata keçirdi. Onlar daxildə azərbaycançılıq, multikulturalizm, güclü ordu, hakimiyyət-xalq birliyi, vətənpərvər gəncliyin tərbiyəsi kimi aspektləri ehtiva edir. Xarici siyasətdə isə enerji strategiyasını inkişaf etdirməyi, Azərbaycanı regionun "geosiyasi dünya məkanı"na çevirməyi, ikitərəfl və çoxtərəfli əməkaşlıq platformaları irəli sürərək onları reallaşdırmağı, yeni təhlükəsizlik formatları yaratmağı özündə birləşdirirdi. Bunların fonunda Azərbaycanın regionun böyük dövlətləri – Türkiyə, Rusiya və İranla tam konstruktiv əməkdaşlıq müstəvisinə transformasiya, Avropa İttifaqı ilə bərabərhüquqlu əməkdaşlıq platformasına keçid, beynəlxalq və regional təşkilatlarda maksimum təşəbbüskarlıq və fəallığa nail olmaq xüsusi yer tuturdu.

Bütün bunların nəticəsində Azərbaycan XXI əsrin çağırışlarına 2020-ci ilin sentyabrına qədər dəqiq geosiyasi mövqeyi olan müstəqil milli dövlət kimi qədəm qoydu. Bu, İlham Əliyevin liderlik nümunəsinin kriteriyalarının perspektivini və müasir dövrün tələblərinə tam cavab verdiyini göstərirdi.

Beləliklə, 2020-ci ilin payızında aydın oldu ki, Cənubi Qafqazda real müstəqil dövlət kimi Azərbaycan formalaşmışdır. Bu mərhələdə uğurlu liderlik nümunəsi Azərbaycanı regional lider statusuna yüksəltdi. Bununla 2003-cü ildən başlayan yol 2020-ci ildə dövlətin regionda lider səviyyəsinə yüksəlməsi ilə tarixiləşdi və siyasi anlamda rəmzləşdi. Bu təhlildən politoloji anlamı dərin olan bir tezis alınır – XXI əsrin başlanğıcında İlham Əliyevin şəxsi liderlik nümunəsi Azərbaycan Respublikasının müstəqil dövlət olaraq regional lider səviyyəsinə yüksəlməsinin başlıca siyasi faktoru oldu! Deməli, XXI əsrdə Azərbaycan liderlik təcrübəsi 20 il müddətində ölkənin liderinin həmin ölkəni yerləşdiyi regionda lider səviyyəsinə yüksəltməyin təminedici faktorudur!

Postsovet məkanında başqa təcrübənin mövcud olduğu bizə məlum deyildir. Avrasiyanın ən böyük və güclü dövləti olan Rusiyada da bu təcrübə yoxdur (Çin başqa kateqoriyaya aid dövlətdir). Mərkəzi Asiya və Şərqi Avropadakı müstəqil dövlətlərdə də İlham Əliyevin əldə etdiyi uğurlar səviyyəsində nümunəyə rast gəlmirik. Bunlar onu göstərir ki, İlham Əliyevin 2003-2020-ci illərdəki liderliyi unikal bir təcrübədir. Dövrün geosiyasi çağırışları fonunda bu məqam tarixi əhəmiyyət daşıyır.

2020-ci ilin noyabrından başlayaraq həm Cənubi Qafqazda, həm də qlobal miqyasda yeni geosiyasi çağırışlar özünü göstərir. Onların fonunda İlham Əliyevin liderliyinin siyasi-nəzəri özəllikləri ayrıca aktuallıq kəsb edir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Fransa müstəmləkə cinayətlərinə pərdə çəkir

**Fransanın dənizaşırı ərazilər naziri Manuel Valls BFM TV-yə müsahibəsi zamanı Azərbaycanı ölkəsinə qarşı, guya, hibrid müharibə aparmaqda, habelə dənizaşırı ərazilərdə müstəqillik tərəfdarlarını dəstəkləməkdə suçlayıb.**

Əslində, bu, Fransa tərəfinin dənizaşırı ərazilərdəki uğursuz siyasətini, kolonializm keçmişini davam etdirmək səylərini ört-basdır etmək niyyətindən xəbər verir. Fransanın dənizaşırı adalarında baş verənlər isə Parisin "qeyri-normal yanaşma və qeyri-adekvat siyasətinin" nəticəsidir. Hazırda bu ölkə müstəmləkə siyasətinin mərkəzi kimi təəssürat bağışlayır. Milli azlıqlara qarşı təməl prinsipləri pozur, bu yöndə cinayətlərin sayı artır.

Yada salaq ki, Fransa müstəmləkə ölkələrində törətdiyi vəhşilikləri ilə tanınır. Bu sahədə faktlar həddindən çoxdur. Buraya Əlcəzairdə indi də istifadə olunmayan böyük əraziləri zəhərləyən nüvə sınaqları daxildir. Orada Fransa tərəfindən 17 nüvə sınağı gerçəkləşdirilib. Onlardan 11-i yeraltı sınaqlar olub. Orada yaşayan insanların həyatı təhlükə altına düşüb, təbiətə ciddi ziyan dəyib.



Bura, həmçinin mina terrorunu da əlavə etmək olar. Əlcəzair ərazisinə 5 milyondan artıq mina basdıran Fransa bu günə kimi həmin minaların xəritələrini Əlcəzair tərəfinə verməkdən imtina edir. Nəticədə Əlcəzair Azərbaycan kimi dünyada mina partlayışından ən çox əziyyət çəkən ölkələrin sırasında ön yeri tutur. Yeri gəlmişkən, fransızların Əlcəzairdə basdırdıqları minalardan insanlar indi də həlak olurlar. Ümumiyyətlə, müstəmləkə dövründə, bir milyon yarım əlcəzairli öldürülüb.

Onu da yada salaq ki, Fransa Əlcazirdə keçirdiyi nüvə sınaqlarını 1966-cı ildən Polineziyada (Sakit okean adaları) həyata keçirməyə başlayıb. Mururoa və Fangataufa adalarında 30 il ərzində əvvəlcə atmosferdə, sonra isə yerin altında 193 nüvə sınağı keçirilib. Sonuncu nüvə sınağı 1996-cı ildə reallaşıb. Bu sınaqlar canlı təbiətin məhvi, eyni zamanda, Polineziyada yaşayan insanların ölümü, şikəst olması ilə nəticələnir.

Fransa Afrikada da cinayətləri ilə məşhurdur. Paris Nigeriyada "Orano" şirkəti vasitəsilə genişmiqyaslı uran çıxarır. Bu proses radioaktiv tullantılar və toz yaradır, yerli icmaların sağlamlığına və ətraf mühitə ciddi ziyan dəyir. Qabon, Konqo və Çad kimi ölkələrdə isə Fransanın "Total" şirkəti neft çıxarır və neft kəşfiyyatı aparır. Bu fəaliyyətlər su mənbələrinin neft tullantıları ilə çirklənməsinə, torpağın yararsız hala düşməsinə və biomüxtəlifliyin azalmasına səbəb olur.

Fransa Afrika ölkələrinə qadağan edilmiş və ya yüksək zəhərli pestisidlər ixrac edir. Bu kimyəvi maddələrdən yerli kənd təsərrüfatında istifadə olunur, lakin onların zərərli təsirləri həm insan sağlamlığına, həm də ətraf mühitə ciddi təhlükə yaradır. Fransa Kamerun və Konqo hövzəsində meşələrin kütləvi şəkildə qırılması ilə məşğuldur.

Parisin daha bir qanlı izi Ruandadadır. 1994-cü ildə fransızlar bu ölkədə "təhlükəsiz zona yaratmaq" adı altında hərbi əməliyyat həyata keçiriblər. Bundan cəsarətlənən digər yerli münaqişə tərəfinin də iştirakı ilə tutsi qəbiləsinin 800 mindən çox üzvü qətlə yetirilib.

Bundan başqa, Fransa qoşunlarının Çadda keçirdikləri "Epervier" hərbi əməliyyatları da çox sayda insan tələfatı ilə nəticələnib. 2011-ci ildə isə mülki insanları qorumaq bəhanəsi ilə Liviyada keçirilən "Harmattan" və iki il sonra Malidəki "Serval" hərbi əməliyyatları da böyük dağıntılar və qətllərə səbəb olub. Fransa kanakların bütün hüquqlarını pozub. Bura mərakeşlilərin, tunislilərin və vyetnamlıların qətllərini də əlavə etsək, mənzərənin nə qədər ağır olduğu aydınlaşar. Bir sözlə, Fransa hara gedibsə, ora səfalət və faciə aparıb.

Bu qədər cinayətlərə bulaşmış bir ölkənin Azərbaycanı hibrid müharibə aparmaqda günahlandırması gülünc görünür. Təbii ki, bunun da cavabı var – ikiüzlülük, riyakarlıq, saxtakarlıq və elə bunların hamısını özündə birləşdirən "makronluq". Əslində, Fransa rəsmiləri bu açıqlama ilə Azərbaycanın daxili işlərinə qarışırlar. Bölgədə sülh üçün real şərait yarandığı bir dönəmdə, Azərbaycanın öz əraziləri üzərində suverenliyini sual altına qoyur, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirir. İrəvanı yeni hərbi avantüraya sövq edir. Ümumiyyətlə, Azərbaycanın Qarabağ üzərində suverenliyini həzm edə bilmir.

**Bu barədə politoloq Yeganə Hacıyeva XQ-yə bildirdi ki,** Azərbaycan heç bir ölkəyə qarşı hibrid müharibə aparmayıb: "Ümumiyyətlə, Azərbaycan dövlətinin siyasətində hibrid müharibə yoxdur. Biz ərazi bütövlüyümüz uğrunda apardığmız müharibələri mərd-mərdanə, öz adımıza layiq aparmışıq. Torpaqlarımızın 30 illik işğaldan azad edilməsi prosesində, Qarabağda separatizmin aradan qaldırılmasında belə nə Ermənistana, nə də bir başqasına qarşı hibrid müharibə üsulundan istifadə etmədik. Yəni 2020-ci ildən 2023-cü ilədək gedən proseslərin heç birində bu addımı atmadıq. Bizim davranışımız, apardığımız mübarizə mərdliyə söykənir.

İkincisi, Fransa nazirinin dedikləri ilə bağlı onu qeyd etməliyəm ki, ümumiyyətlə, bu ərazilərdə baş verən proseslər cəmiyyətin təkamül prosesi ilə bağlıdır. Bunu hər hansı kənar qüvvələrlə bağlamaq məqsədlidir. Məsələ ondadır ki, Fransa uzun illər daha müstəmləkə siyasətini dəstəkləmək üçün dənizaşırı ərazilərdə informasiya vakuumu yaratmışdı. Bu informasiya vakuumu həmin ərazilərdə yaşayan yerli əhalinin geniş məlumat almaq imkanını məhdudlaşdırırdı.

Sosial konstruksiyalarda cəmiyyətin təfəkkürü və düşünmə qabiliyyətləri dar çərçivəyə salınmışdı. Sosial platformaların, yeni texnoloji alətlərin inkişaf etməsi ilə bütün dünyada insanların düşüncəsində bu tip dar çərçivələr sındırıldı.

Sıravi insanlar XXI əsrdə ölkəsinin Fransa tərəfindən işğal olunduğunu, müstəmləkə olduğu reallığını anladı. Bu reallığı da qəbul etmək istəmədi. Orda baş verən proseslərin hamısını bu kontekstdə dəyərləndirmək vacibdir.

Qeyd edim ki, Fransanın Azərbaycanı günahlandırmaq cəhdi onun ölkəmizə qarşı davam edən aqressiv ritorikasının növbəti mərhələsidir.

Fransanın dənizaşırı ərazilərində etiraz aksiyalarında, mitinqlərdə Azərbaycanın bayrağı və ya Azərbaycan Prezidentinin portretinin qaldırılması məsələsinə gəlincə, tarixən insanların öz torpaqlarını işğaldan azad edən, əhalisinin maraqlarına önəm verən liderlərə hörməti və rəğbəti olub. Müasir dövrün ən böyük reallığı ondan ibarətdir ki, Azərbaycan Prezidenti qlobal siyasətə təsir edə bilən güclü mövqeyə malikdir və müasir siyasətin görkəmli liderlərindən biridir. İnsanlar da öz torpağını işğaldan azad edən rəhbərə hörmət edir və onun təcrübəsindən özünün azadlıq hərəkatında istifadə olunmasını arzu edirlər. Bu məsələdə Azərbaycanı günahlandırmaq gülüncdür.

Digər məqam ondan ibarətdir ki, Azərbaycanın cəmiyyət institutları ilə müxtəlif ölkələrin QHT və media şəbəkələri arasında əlaqə formalaşmaqdadır. Həmin ərazilərlə də əlaqələrimiz genişlənir, bu, çox normaldır. Yada salaq ki, Avropa ölkələri ilə də QHT və media sahəsində əlaqələr mövcuddur. Bu da bizim heç kimə qarşı ikili yanaşmamızın olmadığının göstəricisidir. Dini, milli, irqi və coğrafi mənsubiyyətindən asılı olmayaraq, hamıya qarşı eyni mövqedən çıxış edirik.

Digər tərəfdən, Makron hökuməti 44 günlük Vətən müharibəsindən sonra Azərbaycana qarşı aqressivlik ritorikasını daxili siyasətində bir alət olaraq istifadə etdir və erməni lobbisini öz ətrafında daha mobil biləşdirmək istəyir".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Samir Şərifov İspaniyanın ticarət üzrə dövlət katibi ilə görüşüb



**Baş nazirin müavini Samir Şərifov martın 11-də İspaniya Krallığının İqtisadiyyat, Ticarət və Biznes Nazirliyinin ticarət üzrə dövlət katibi Mariya Amparo Lopes Senovilya ilə görüşüb.**

Görüşdə iki ölkə arasında Strateji İqtisadi Dialoqun birinci iclasının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulanıb. Həmçinin Azərbaycan–İspaniya biznes forumunun və Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə İspaniyanın İqtisadiyyat, Ticarət və Biznes Nazirliyi arasında "Strateji İqtisadi Əməkdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanmasının iqtisadi əlaqələrin gücləndirilməsinə təkan verəcəyinə əminlik ifadə olunub.

S.Şərifov ötən ilin noyabrında COP29 çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İspaniya Krallığı Hökumətinin Sədri Pedro Sançez arasında keçirilmiş görüşün ikitərəfli əlaqələrin genişləndirilməsi və yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi baxımından önəmini vurğulayıb.

# Yaponiya sərgisində Azərbaycan pavilyonu

**Aprelin 13-də Yaponiyanın Osaka şəhərində "Həyatımız üçün gələcək cəmiyyəti formalaşdıraq" (Designing the Future Society for Our Lives) mövzusunda "Osaka, Kansai Ekspo 2025" dünya sərgisi açılacaq. 2000-ci ildən Ekspo sərgilərində uğurla iştirak edən Azərbaycan bu il də milli pavilyonla təmsil olunur.**




Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə yaradılan milli pavilyon "Ekspo 2025"in "Həyatları əlaqələndirmək" (Connecting Lives) bölməsində yerləşməklə "Dayanıqlı inkişafa doğru yeddi körpü" (Seven bridges for sustainability) mövzusunu əhatə edir.

Pavilyonun konsepsiyası dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından qaynaqlanıb. Burada Azərbaycanın zəngin mədəni irsi, texnoloji inkişaf və davamlı inkişafa bağlılığı, eyni zamanda, dialoqa açıqlığı nümayiş olunur. Çünki dialoq və əlaqələr vasitəsilə aydın, harmoniya dolu və dayanıqlı gələcəyə nail olmaq mümkündür.

Üç mərtəbədən ibarət pavilyonun fasadının dizaynı Azərbaycan ənənələrini, incəsənətini və sənətkarlığını təcəssüm etdirən şəbəkə motivlərindən yaradılıb. Ziyarətçilər pavilyondakı səyahətlərinə nəhəng yeddi gözəlin hər birinin təcəssüm etdirdiyi müxtəlif istiqamətlərlə – mədəni müxtəliflik, mədəni irs, ənənəvi incəsənət, memarlıq inciləri, davamlı inkişaf, təbii sərvətlər, idman və turizm sahələri ilə tanışlıqla başlayırlar.

Pavilyonda Azərbaycan və Yaponiyanı tərənnüm edən üç ağac da yer alacaq. Bunlar "Azərbaycan ağacı", "Yapon ağacı", Azərbaycan və yapon ağaclarının sintezi olan "Dostluq ağacı"dır.

Xatırladaq ki, 2022-ci ildə Azərbaycanın "Ekspo 2025" üzrə baş komissarı, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, "Ekspo 2025"in baş katibi Hiroyuki İşige və "Ekspo 2025"in baş komissarı Koji Haneda ölkəmizin dünya sərgisində iştirakı ilə bağlı müqavilə imzalayıblar. Yaponiya ilə əlaqələrə və dünya Ekspo sərgilərində iştiraka əhəmiyyət verən Azərbaycan "Osaka, Kansai Ekspo 2025"də iştirakçı müqaviləsini imzalayan ilk ölkə olub.

155 hektardan çox ərazini əhatə edən "Ekspo 2025"də ümumilikdə 165 ölkə və 7 beynəlxalq təşkilat təmsil olunacaq. "Ekspo 2025" Birləşmiş Millətlər Təşkilatı tərəfindən müəyyən edilmiş Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün mühüm platforma kimi də dəyərləndirilir. Dünya sərgisinin davam etdiyi 184 gün ərzində Ekspoya 28 milyon ziyarətçinin gəlişi gözlənilir. "Ekspo 2025"in maskotu isə sudan əmələ gələn qeyri-adi varlıqdır. O, həm də davamlı həyatın ritmini əks etdirir.

Milyonlarla insan oktyabrın 13-dək sərginin keçirildiyi məkanda eksponatlarla tanışlıqla yanaşı, birgə səylərlə gələcək cəmiyyətimizi qurmaq imkanlarını da araşdırmış olacaq. Bura həm də bilik və qabaqcıl texnologiyaların qlobal problemlərin həlli üzrə birləşərək yeni ideyaların yaradılması və mübadiləsi məkanına çevriləcək.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 60** **Bakı şəhəri, 5 mart 2025-ci il**

**"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində torpaqların kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyasına aid edilməsinin, habelə həmin kateqoriya daxilində kənd təsərrüfatı təyinatlı torpaqların tərkibinə aid edilməsinin və dəyişdirilməsinin sadələşdirilmiş Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 24 noyabr tarixli 421 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun və "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 30 iyul tarixli 164 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində torpaqların kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyasına aid edilməsinin, habelə həmin kateqoriya daxilində kənd təsərrüfatı təyinatlı torpaqların tərkibinə aid edilməsinin və dəyişdirilməsinin sadələşdirilmiş Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 24 noyabr tarixli 421 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1357 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin;

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

**2** Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində torpaqların kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyasına aid edilməsinin, habelə həmin kateqoriya daxilində kənd təsərrüfatı təyinatlı torpaqların tərkibinə aid edilməsinin və dəyişdirilməsinin sadələşdirilmiş Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1.2.1. 1.2-ci bənddən "(uqodiyası)" sözü çıxarılsın;

1.2.2.2. 2-ci hissə üzrə:

1.2.1.2.2.1. 2.1-ci bənd üzrə:

1.2.1.1.2.2.1.1. birinci abzasdan "(uqodiyasına)" sözü çıxarılsın;

1.2.1.2.2.2.1.2. ikinci abzasdan "(uqodiyası)" sözü çıxarılsın;

1.3.2.3. 2.2.2-ci yarımbənddən, 2.3-cü və 2.6-cı bəndlərdən "(uqodiyasına)" sözü çıxarılsın;

1.4.2.4. 2.7-ci bənddən "(uqodiyasına)" və "(uqodiyalarının)" sözləri çıxarılsın;

1.5.2.5. 3-cü hissə üzrə:

1.5.1.2.5.1. adından, 3.2-ci, 3.3-cü (hər iki halda) bəndlərdən ismin müvafiq hallarında "(uqodiyaları)" sözü çıxarılsın;

1.5.2.2.5.2. 3.1-ci bənddə ", çoxillik əkmələrin altında olan və dincə qoyulmuş kənd təsərrüfatı yerlərinin (uqodiyaların)" sözləri "və çoxillik əkmələrin altında olan kənd təsərrüfatı yerlərinin" sözləri ilə əvəz edilsin;

1.6.2.6. 4-cü hissənin adından, 4.1-ci bənddən, 4.1.2-ci və 4.1.3-cü yarımbəndlərdən "(uqodiyasına)" sözü çıxarılsın;

1.7.2.7. 5-ci hissənin adından və 5.1-ci bənddən "(uqodiyasına)" sözü çıxarılsın.

2.3. Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Erməni şahidlər Vardanyanın hərbi əməllərini təsdiqləyiblər

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası martın 11-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

İclasın əvvəlində hakim Zeynal Ağayev bu məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə hüquq və vəzifələrini izah edib. Ardınca təqsirləndirilən şəxs Ruben Vardanyan əvvəlki məhkəmə proseslərində verdiyi vəsatətlərin bir qisminin təmin olunmadığını qeyd edərək, işə baxan hakimlər kollegiyasına etirazını bildirib.

Dövlət ittihamını müdafiə edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətə münasibət bildirərək deyib ki, eyni məzmunlu vəsatətə əvvəlki məhkəmə proseslərində baxılaraq müvafiq qərarlar qəbul olunub. Həmçinin Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində hakimə etirazın konkret hallarının müəyyən edildiyi və həmin etirazın əsaslandırılmasının zəruri olduğu vurğulanıb. Buna baxmayaraq, R.Vardanyanın öz etirazını qanunvericiliyin müəyyən etdiyi hallara uyğun deyil, vəsatətlərinin təmin olunmaması ilə əsaslandırması cinayət-prosessual qanunvericiliyə əsasən, etiraz üçün əsas ola bilməz. Bu səbəbdən prokuror etirazın baxılmamış saxlanılmasını məhkəmədən xahiş edib.

Məhkəmə iclasında iştirak edən zərərçəkmiş şəxslər ittiham tərəfinin mövqeyi ilə razılaşdıqlarını bildiriblər.

İclasa sədrlik edən Zeynal Ağayev təqsirləndirilən şəxsin eyni xüsusat üzrə artıq dördüncü dəfədir hakimlər kollegiyasına etiraz etdiyini, göstərdiyi halların hər birinə əvvəllər ətraflı baxılaraq qərar verildiyini, hazırkı prosesdə hər hansı yeni dəlil təqdim olunmadığı və əsaslandırma edilmədiyi üçün etirazı təmin etməyib.

Sonra dövlət ittihamçısı Təranə Məmmədova təqsirləndirilən şəxsə Azərbaycanın əvvəllər işğal altında olmuş suveren ərazilərinin minalanması, oraya müxtəlif yerlərdən, o cümlədən Ermənistandan silahların daşınması prosesi, əldə olunması, bunun üçün nəzərdə tutulan maliyyə vəsaitlərinin hansı qaydada formalaşdırılması, həmin prosesdə Ermənistan dövləti, onun rəhbərliyi və yüksəkvəzifəli şəxslərinin iştirakı, dəstəyi, razılıq və icazələri, eləcə də könüllü və muzdluların Azərbaycanın suveren ərazilərində qalan Ermənistan ordusu ilə və Ermənistanla əlaqələri barədə suallar verib. Təqsirləndirilən şəxs sualları cavablandırmaqdan imtina edib.

Daha sonra iş üzrə şahidlər dindirilib. Məhkəmə iclasına sədrlik edən Zeynal Ağayev dindirmədən əvvəl şahidlərə qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən yalnız həqiqəti danışmaq vəzifəsini izah edib.

Şahid qismində ifadə verən, Qarabağda yaşayan erməniəsilli şəxs Hayrapetyan Kamo Eduardoviç 44 günlük müharibədən bir müddət sonra Ruben Vardanyanın Xankəndiyə gəldiyini bildirib.

O, R.Vardanyanın sponsorluq edərək Azərbaycana qarşı vuruşmaq üçün yaşı 45-50-dək olan insanlardan ibarət dəstələr yaratdığını, onları maliyyələşdirdiyini bildirərək deyib: "Çox sayda cavan insan gedib o qruplaşmalara yazılmışdı. Mənim üçün maraqlı o idi ki, dünyada tanınmış biznesmen, oliqarx Ruben Vardanyan, – mən demirəm ki, o, mənim düşmənimdir, yox, – nəyə görə öz biznesini qoyub Qarabağa gəlmişdi?".

Şahid bildirib ki, Ruben Vardanyan Xankəndiyə gəldikdən sonra 44 günlük müharibədə Azərbaycanın qaytardığı ərazilərin sərhədlərində onun maliyyəsi ilə minalanma işləri aparılıb. O qeyd edib ki, həmin minalar Laçın yolu ilə Ermənistandan Qarabağa gətirilib. "Xankəndidə yaşayan ermənilər də Qarabağ ərazisində minalanma işlərinin Ruben Vardanyan gələndən sonra geniş vüsət aldığını biliblər. Məktəblərdə, binaların ətrafında, meşələrdə və boş ərazilərin yaxınlığında həmin minalarla bağlı məlumat xarakterli plakatlar yerləşdirilib. Halbuki 44 günlük müharibəyə qədər minalarla bağlı heç bir plakat olmayıb", – deyə şahid əlavə edib.

O deyib ki, Ruben Vardanyanın maliyyələşdirməsi nəticəsində Xankəndi ətrafında 2, Əsgəranda isə 1 ədəd olmaqla, ümumilikdə 3 hərbi anbar yaradılıb. Həmin anbarların yerləşdiyi yerə gedən yolu silahlı şəxslər mühafizə edirdilər. Həmin anbarlarda Ermənistan ordusu, Qarabağdan seçilmiş hərbçilər fəaliyyət göstəriblər. Anbarlara Ruben tərəfindən Qarabağa gətirilmiş xeyli sayda silah və döyüş sursatı, habelə pilotsuz kvadrakopterlər və digər pilotsuz uçuş aparatları toplanıb. Bu barədə Xankəndidə çox adamın məlumatı olub və Ruben Vardanyan tərəfindən bütün erməni sakinlərin silahlanaraq azərbaycanlılara qarşı vuruşması təbliğ edilib. Ruben Vardanyanın bu silahlı dəstələri yaratmaqda məqsədi Azərbaycana qarşı mübarizə aparmaq olub.

Şahidin sözlərinə görə, Ruben Vardanyan Qarabağa gələnədək erməni sakinlər arasında Azərbaycana inteqrasiya məsələsi ciddi formada yayılıb, insanlar Azərbaycanla əlaqələr qurmağa çalışıblar. Bir çoxları Azərbaycanın tərkibində yaşamaq və vətəndaşlıq almaq barədə ciddi fikirləşirdi.



2022–2023-cü illərdə Ruben Vardanyanın Xankəndi şəhərində gələrək burada Azərbaycana qarşı təbliğata başladığını söyləyən şahid deyib: "Ruben Vardanyanın gəlişindən sonra erməni sakinlərdə Azərbaycana qarşı düşmənçilik meyilləri gücləndi. Ruben Vardanyan erməni sakinlərin azərbaycanlılara nifrət etməsinə çalışırdı".

Sonra digər erməniəsilli şahid Qriqoryan Muşeq Qurgenoviç ifadə verib.

Şahid deyib ki, Ruben Vardanyan Qarabağda qondarma rejimdə vəzifəyə təyin olunduqdan sonra muzdlu döyüşçülərdən ibarət dəstələr toplamağa başlayıb. Daha sonra isə həmin şəxslər Xocalı rayonunda yerləşən düşərgədə hərbi təlimlərə cəlb olunub. "Əsgərlikdən yeni gəlmiş şəxslərin hərbi xidmətdə olan ixtisaslarını öyrənib və onlardan istifadəyə yararlı olan şəxsləri dəstələrə cəlb edib. Əsasən, radiotexniki sahədə hərbi təcrübəsi olan əsgərlərin öz könüllü muzdlu dəstələrinə qoşulmasını həyata keçirib. O, bu məqsədlə Xocalı rayonunun Badara kəndi yaxınlığında dağlıq və meşəlik ərazidə çay kənarında əvvəllər "İdman Turizmi Federasiyası"nın nəzdində olmuş düşərgədə hərbi təlim məntəqəsi yaratdıraraq əsasən əsgərlikdən yeni gəlmiş gənclər, tələbələr və yuxarı sinif şagirdlərinə hərbi təlimlər keçilməsini təşkil edib. Mən Vardanyanı başa düşmürəm, əgər xalq üçün yaxşılıq edirsənsə, niyə silah alırsan, mina basdırırsan, adamlara pul verirsən, düşərgə açırsan? Əgər silah yaxşı şeydirsə, al apar evinə, övladların döyüşsün. Vardanyan elə bilirdi ki, Qarabağdakılara yaxşılıq edib, amma onların evini yıxıb", – deyə şahid vurğulayıb.

Məhkəmə iclasında şahidlərin Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) ibtidai istintaq zamanı verdikləri ifadələri elan olunub. Onlar ibtidai istintaqda verdikləri ifadələrini təsdiqləyiblər.

Sonra zərərçəkmişlər ifadə veriblər. Zərərçəkmiş Səyyad Ələkbərli Ruben Vardanyanı media vasitəsilə tanıdığını, özünün Ermənistandan gətirilərək Azərbaycanın suveren ərazilərində basdırılmış minaya düşərək xəsarətlər aldığını bildirib. O, hadisənin 2023-cü ilin avqust ayında Xocalıda kənd təsərrüfatı işləri görərkən baş verdiyini deyib.

Zərərçəkmişlər Cəlal Quliyev, Rəvan Ağazadə, Nəriman Abışlı, Elbrus Əzimli, Elməddin Ağayev, Faiq Əzizov, Səxavət İsmayıl, İsmayıl Hüseynov və İbrahim Həmidli Kəlbəcərdə hərbi xidmət zamanı yaralandıqlarını bildiriblər.

Zərərçəkmişlərin hər biri təqsirləndirilən şəxs Ruben Vardanyana ən ağır cəzanın verilməsini məhkəmədən xahiş ediblər.

Məhkəmənin növbəti iclası martın 18-nə təyin olunub.

***XQ***

# Dünya bazarında mövqeyimiz güclənir



**Uğurlu müqavilə-hüquq bazası beynəlxalq iqtisadi əməkdaşlıqda önəmli amillərdən biridir. Hazırda Azərbaycanın 10 ölkə ilə sərbəst ticarət sazişləri qüvvədədir. Türkiyə bazarlarına müəyyən məhsullar üzrə güzəştli şərtlərlə giriş imkanı verən qardaş ölkə ilə Preferensial Ticarət Sazişinin əhatə dairəsi genişləndirilib. Bununla Azərbaycan mənşəli 15 adda yeni məhsulun ixracına gömrük rüsumu güzəştləri əldə edilib. Bu istiqamətdə aparılan işlərin davamı olaraq, ötən ilin iyulunda Pakistan Hökuməti ilə də Preferensial Ticarət Sazişi imzalanıb.**

**(ardı 9-cu səhifədə)** İqtisadiyyat Nazirliyinin məlumatına görə, hazırda Birləşmiş Ərəb Əmirlikləri ilə Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi üzrə danışıqlar aparılır. Saziş çərçivəsində qarşılıqlı ticarətdə əksər məhsullar üzrə preferensial rejimin tətbiqi müzakirə olunur. Bununla yanaşı, ixracın artırılması və şaxələndirilməsi məqsədilə digər ölkələrlə də preferensial və sərbəst ticarət sazişlərinin bağlanılması imkanları araşdırılır. Beynəlxalq sərgi və ticarət yarmarkalarında ölkə sahibkarlarının iştirakına və "Made in Azerbaijan" brendinin xaricdə tanıdılmasına dəstək tədbirləri də ixracın artımını stimullaşdırır. Hazırda xarici ölkələrdə Azərbaycan məhsullarının təqdim olunduğu 12 ticarət evi, eləcə də 5 ticarət nümayəndəliyi fəaliyyət göstərir.

"Made in Azerbaijan" brendinin ölkə xaricində tanıdılması və ixracın stimullaşdırılması məqsədilə 10 fərqli mexanizm mövcuddur. Bu mexanizmlərin siyahısına ixrac və alıcı missiyalarının təşkili, beynəlxalq sərgi və yarmarkalarda vahid ölkə stendi ilə iştirak, bazar araşdırmalarının aparılması, həmçinin sahibkarlara beynəlxalq sertifikatların alınmasına köməklik göstərilməsi, tədqiqat-inkişaf proqramlarının icrası və s. daxildir.

Ötən il Azərbaycan ixracatçıları, ümumilikdə, 10 beynəlxalq sərgidə iştirak ediblər. Sərgilərdə müxtəlif sahələrdə fəaliyyət göstərən 70-ə yaxın yerli şirkət təmsil olunub və ixrac əməliyyatları üzrə dəyəri 18 milyon ABŞ dollarınadək müqavilələr imzalanıb.

Son illər ölkəmizin ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələrin həyata keçirilməsi nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da mil-li istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Yuxarıdakı göstəricilərin əldə olunmasında təbii ki, sadalanan amillərlə yanaşı, digər səbəblər də mühüm rol oynayıb. Məsələn, respublikamız "Ümumiləşdirilmiş Preferensiyalar Sistemi+" Proqramına ("GSP+") qoşulandan sonra ixrac potensialı nəzərəçarpacaq dərəcədə güclənib, ixrac mallarının çeşidi artıb. Bu, ölkəmizə Avropa İttifaqı (Aİ) bazarlarına güzəştli şərtlərlə ixrac imkanı yaradıb. Belə bir tədbirin gerçəkləşdirilməsi həm də ixrac potensialının genişləndirilməsinə və ixrac strukturunun diversifikasiyasına önəmli təsir göstərib. Bütün bunlarla bərabər, ixrac potensialının güclənməsini son illər Vergi Məcəlləsinə edilən düzəlişlər, sənaye məhəllələrinin, texnoparkların, azad iqtisadi zonaların genişləndirilməsi də sürətləndirib.

Azərbaycanın ixrac potensialının gücləndirilməsindən danışarkən bir məqamı da xatırladaq. Qeyd edək ki, biznes ekomühitinin yaxşılaşdırılmasının mühüm qolu iqtisadiyyatın gömrük-vergi tənzimlənməsi sisteminin təkmilləşdirilməsidir. Bu baxımdan ölkəmizdə investisiya mühitinin cəlbediciliyinin artırılması üçün müəyyən layihələrin gerçəkləşdirilməsi ümumi prosesə təkan verir. Bu gün yerli istehsalatda istifadə olunan 300-ə yaxın araliq malın idxal rüsumundan azad edilməsi yerli istehsalın maya dəyərinin azaldılmasına, yerli malların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına müsbət təsir göstərməsi də deyilən fikrin bariz ifadəsidir.

Hazırda da bu proses davam edir. Belə ki, ixracda hesablaşma qaydalarının təkmilləşdirilməsi, yerli istehsalda xammal ehtiyacının ödənilməsi, əhalinin idxaldan asılı olan bir sıra zəruri istehlak malları ilə etibarlı təminatı məqsədilə tətbiq olunan tarif tədbirlərinin, o cümlədən güzəşt müddətlərinin uzadılması istiqamətində qanunvericilik layihələri hazırlanaraq aidiyyəti dövlət orqanları ilə müzakirə olunur.

Yeri gəlmişkən, ölkədə ixrac potensialının gücləndirilməsi Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də qarşıya mühüm vəzifə kimi qoyulub. Belə bir vəzifənin gerçəkləşdirilməsinin əsas şərti kimi davamlı və yüksək iqtisadi artıma nail olunması göstərilib.

Buna görə də milli prioritetlərə əsaslanaraq hazırda milli iqtisadiyyat şaxələndirilir, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün qeyri-neft iqtisadiyyatının inkişafı diqqət mərkəzində saxlanılır. İqtisadi artımın qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməsi, dövlət və özəl əməkdaşlığın gücləndirilməsi istiqamətində layihələr gerçəkləşdirilir. Bütün bunlarla bərabər, yeniliyə meyilli özəl sektorda aktivlik daha da canlandırılır, qeyri-neft sektorunun maliyyələşməsində bu sahənin payı artırılır.

**Dünya Bankı (DB) bu il iyunun 25-də "Xəzər dənizinin təmizlənməsi: çirklənmənin idarə edilməsi və biomüxtəlifliyin qorunması potensialının yaradılması" layihəsinin maliyyələşdirilməsini təsdiqləməyi planlaşdırır.**

# Dünya Bankı Xəzəri himayə edir



DB-nin məlumatına görə, benefisiarları Azərbaycan, Qazaxıstan və Türkmənistan olan layihənin Qlobal Ekologiya Fondunun 12 milyon ABŞ dolları məbləğində qrantı ilə maliyyələşdiriləcəyi və BMT-nin Ətraf Mühit Proqramının rəhbərliyi ilə 5 il ərzində həyata keçiriləcəyi nəzərdə tutulur.

Məlumatda maliyyələşdirmənin 4 əsas komponentə bölündüyü, bura milli və regional siyasət, institusional inkişaf (1,6 milyon dollar), çirklənmənin idarə edilməsi (4,9 milyon dollar), biomüxtəlifliyin həyata keçirilməsi (4,9 milyon dollar), layihənin icra olunması (0,6 milyon dollar) daxildir.

Layihə çirklənmənin monitorinqi və nəzarətinin gücləndirilməsini, eləcə də Xəzər dənizinin hədəf bölgələrində qorunan dəniz ərazilərinin idarə edilməsinin yaxşılaşdırılmasını nəzərdə tutur. Dünyanın bu ən böyük qapalı su hövzəsi planetin bütün daxili sularının, təxminən, 44 faizini ehtiva edir və Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistanla həmsərhəddir.

Dünya Bankının məlumatında qeyd edilir ki, Xəzər ekosistemi unikaldır və burada, təxminən, 400 endemik növ yaşayır, dünya okeanından uzun müddətli təcrid isə zəngin biomüxtəlifliyi formalaşdırıb: "Lakin son onilliklərdə dənizdə suyun səviyyəsi əhəmiyyətli dərəcədə azalıb. Proqnozlara görə, 2100-cü ilə qədər bu göstərici iqlim dəyişikliyi və su ehtiyatlarının təsərrüfat məqsədilə istifadəsi səbəbindən 8-30 metr aşağı düşə bilər".

DB layihəsinin əsas istiqamətlərinə iştirakçı ölkələr arasında koordinasiyanın gücləndirilməsi, dəniz məkanının planlaşdırılması, təlimlərin keçirilməsi və təcrübə mübadiləsi, anlaşma memorandumlarının imzalanması, regional institutların potensialının gücləndirilməsi və s. daxildir.

Çirklənmənin idarə edilməsi üzrə tədbirlər çərçivəsində yerüstü çirklənmə mənbələrinin inventarının yaradılması, çirklənmənin "qaynar nöqtələr"inin və əlaqədar iqtisadi itkilərin təhlili, çirklənmənin azaldılması üzrə milli və regional proqramların hazırlanması, avadanlıqların alınması və ekoloji treninqlər, çirklənmənin monitorinqi, ekoloji cəhətdən təhlükəsiz texnologiyaların inkişafı, habelə ictimai informasiya kampaniyalarının keçirilməsi planlaşdırılır.

Bundan əlavə, mühafizə olunan dəniz əraziləri şəbəkəsinin yaradılması və genişləndirilməsi, idarəetmə planlarının hazırlanması və həyata keçirilməsi, qorunan ərazilərin idarə edilməsi üçün kadr hazırlığı, davamlı balıqçılığa dəstək və balıqçı icmaları üçün əlavə dəyərin inkişafı, biomüxtəlifliyin itirilməsindən yaranan iqtisadi zərərin qiymətləndirilməsi, nəsli kəsilməkdə olan növlərin siyahılarının hazırlanması, məlumatlandırma kampaniyalarının keçirilməsi kimi məsələlərə xüsusi diqqət yetiriləcəyi bildirilir.

Təşəbbüs çərçivəsində Tehran Konvensiyası Katibliyi yanında Layihə Koordinasiya Mərkəzinin yaradılması, həmçinin Regional Rəhbər Komitənin və texniki qrupların formalaşdırılması da nəzərdə tutulur.

Layihə DB-nin Azərbaycan və Qazaxıstan üçün Tərəfdaşlıq Çərçivə Strategiyalarının həyata keçirilməsinə kömək edəcək. Eyni zamanda Türkmənistanın Milli İnkişaf Strategiyasını dəstəkləyəcək və "mavi" iqtisadiyyata, çirklənmə məsələlərinə və Xəzərin biomüxtəlifliyinin qorunmasına xüsusi diqqət yetirməklə DB-nin Mərkəzi Asiya üzrə Regional Strategiyasına uyğun fəaliyyət göstərəcək.

Uzunmüddətli məqsədləri nəzərə alaraq layihə Xəzər dənizinin ekoloji balansının qorunmasına və təbii resursların səmərəli idarə edilməsi üçün regional əməkdaşlığın inkişafına yönəlib. Layihənin icrası çirklənmənin nəticələrini minimuma endirməyə, regionda ekoloji vəziyyəti yaxşılaşdırmağa və gələcək nəsillər üçün biomüxtəlifliyi qorumağa hesablanıb.

# Sənaye zonalarının məhsulları 70-dən çox ölkəyə göndərilir

**Ölkə iqtisadiyyatının əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabət qabiliyyətli müasir istehsal müəssisələrinin yaradılması, bu sahədə infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra olunur, bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Bu da sənaye sahəsində ümumi istehsalın artmasına səbəb olmaqla yanaşı, qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verir.**

Ölkəmizdə sənayenin yeni modellərin tətbiqi ilə inkişafı dayanıqlı iqtisadi artım üçün böyük əhəmiyyət kəsb edir. Bu baxımdan iqtisadi şaxələndirmədə mühüm amillərdən biri də qeyri-neft sənayesinin inkişafıdır. Bu istiqamətdə yeni istehsal müəssisələri və iş yerləri yaradılır, sənayenin yeni üsul və texnologiyalarla inkişafına, əhalinin məşğulluq səviyyəsinin, eləcə də rifahının yüksəldilməsinə əhəmiyyətli töhfələr verilir.

Sənaye parklarının qarşısına innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişaf etdirilməsi, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi mühüm vəzifə kimi qoyulub. Bütün bunlarla yanaşı, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının gerçəkləşdirilməsi, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin yüksəldilməsi, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması kimi məsələlərə xüsusi önəm verilib.

İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, dövlət başçısının təşəbbüsü ilə yaradılmış sənaye zonaları yeni dövrdə sənayenin inkişafında mühüm rol oynayır. Sənaye zonalarına daxil olan sənaye parkları və məhəllələri, eləcə də aqroparklar kimi səmərəli mexanizmlər ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, innovativ və rəqabətqabiliyyətli sənayenin inkişafına, istehsal sahəsində iş yerlərinin artırılmasına yeni imkanlar açır. Ölkədə 9 sənaye parkı – Sumqayıt Kimya, Balaxanı, Qaradağ, Pirallahı, Hacıqabul, Mingəçevir, Naxçıvan, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları, 4 sənaye məhəlləsi – Neftçala, Masallı, Sabirabad və Şərur sənaye məhəllələri, həmçinin qeydiyyata alınmış 24 aqropark mövcuddur.

Sahibkarlığın inkişafına əlverişli şərait yaradılan sənaye parklarında rezidentlər üçün stimullaşdırıcı mexanizmlər tətbiqi diqqətdə saxlanılır. Belə ki, onlar dövlət vasaiti hesabına hazır infrastruktura – qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilir, qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, eyni zamanda, istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.



İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parklarında tətbiq edilən idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində indiyədək 505 milyon manatdan çox, 2024-cü il ərzində isə 44 milyon manatdan artıq vəsaitə qənaət olunub. Bundan başqa, son illərdə Qarabağ və Şərqi Zəngəzurdakı sənaye parklarında məcburi dövlət sosial sığorta haqqının subsidiyalaşdırılması, kreditlərin dövlət zəmanəti ilə verilməsi və kredit faizlərinin subsidiyalaşdırılması, eləcə də müəyyənləşdirilən bir sıra iqtisadi fəaliyyət sahələri üzrə xammal və materialların idxalının əlavə dəyər vergisi və gömrük rüsumundan azad olunması ilə bağlı güzəştlərə xüsusi önəm verilib.

İqtisadiyyat Nazirliyinin məlumatında daha sonra bildirilir ki, sənaye zonalarına indiyədək yatırılan ümumi investisiyanın həcmi 6,9 milyard manat olub. Bu zonalarda 84 müəssisə fəaliyyətə başlayıb və 11 minə yaxın yeni iş yeri yaradılıb.

2015-ci ildən bu il yanvarın 1-dək sənaye zonalarında istehsal olunan 15,4 milyard manatlıq məhsul satışı həyata keçirilib, bunun da 4,9 milyard manatlıq hissəsi ixrac edilib. 2024-cü ildə sənaye zonalarında 3,3 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, bunun da 1,07 milyard manatlıq hissəsi ixracın payına düşüb. Sənaye zonalarında istehsal edilən məhsullar dünyanın 70-dən çox ölkəsinə ixrac edilib. 2024-cü ildə sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 17,6 faiz, qeyri-neft sənayesi məhsullarının ixracında isə 26 faiz olub.

# İstehlakçı hüquqları maarifləndirməsi



**Bu mövzuda seminara qatılan gənclərin istehlakçıların əsas hüquqları və onların müdafiəsi vasitələri, istehlak bazarına nəzarət sahəsində fəaliyyətin təşkilinin əsasları və qanunvericiliyin tələbləri ilə bağlı sualları praktiki izahlarla cavablandırılıb.**

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən 15 Mart – Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü ərəfəsində istehlakçı hüquqları ilə bağlı silsilə maarifləndirmə tədbirlərinin keçirilməsinə başlanılıb. Martın 15-dək davam edəcək "İstehlakçı hüquqları həftəsi" çərçivəsində ilk tədbir Azərbaycan Respublikasının Gənclər Fondu ilə birgə təşkil olunub. "Hüquqlarımızı bilək və qoruyaq!" adı altında keçirilən maarifləndirmə tədbirinə ölkəmizin müxtəlif ali təhsil müəssisələrinin tələbələri və könüllü təşkilatlarını təmsil edən 100-ə yaxın gənc qatılıb.

Seminarda Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov və Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktor vəzifəsini icra edən Qədir Xəlilov açılış nitqi ilə çıxış edərək hazırkı görüşün gənclərin maariflənməsi və onların fəal vətəndaş mövqeyi sərgiləməsində əhəmiyyətli olduğunu bildiriblər. "İstehlakçı hüquqları həftəsi" çərçivəsində ilk maarifləndirmə tədbirinin məhz gənclərin iştirakı ilə təşkil edilməsinin təqdirəlayiq olduğu diqqətə çatdırılıb, cəmiyyətin ən dinamik və fəal üzvləri kimi gənclərin istehlakçı hüquqlarının müdafiəsi prosesinə müsbət təsirinin bu sahədə daha ədalətli, təhlükəsiz və şəffaf bir mühitin yaradılmasına töhfə verəcəyi vurğulanıb.

Tədbir çərçivəsində agentliyin nümayəndələri Elşən Cəfərov və Yusif Tapdıqlı "İstehlakçıların əsas hüquqları" və "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin istehlak bazarına nəzarət sahələri" mövzularında təqdimatla çıxış ediblər. Təqdimat zamanı istehlakçıların əsas hüquqları, o cümlədən məlumat almaq, sərbəst seçim, malların dəyişdirilməsi və qaytarılması və digər hüquqları, onların müdafiəsi mexanizmləri barədə məlumat verilib, istehlak bazarına nəzarət sahəsində fəaliyyətin təşkili mövzusuna toxunulub.

İnteraktiv formada keçirilən seminarda gənclərin mövzu ilə bağlı sualları praktiki izahlarla cavablandırılıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Araz üstündə nəhəng hidroqovşaq

## *Bu tikintidə Misirdən, SSRİ-nin müxtəlif yerlərindən gəlmiş mühəndislər çalışıblar…*

**27 iyul 1963-cü il... Moskvada SSRİ və İran nümayəndə heyətləri arasında geniştərkibli görüş keçirilir. Müxtəlif sahələr üzrə əməkdaşlıq məsələləri müzakirə olunur, sovet sənayesində əldə olunmuş texniki yeniliklərin İran iqtisadiyyatına verəcəyi töhfələr haqqında danışılır. Sonra iki ölkə arasında reallaşdırılacaq layihələrin perspektivliyi bir daha nəzərdən keçirilir və yekun olaraq iqtisadi və texniki əməkdaşlıq haqqında birinci İran–Sovet sazişi imzalanır. Razılaşmada İran qaz kəməri, İsfahandakı metallurgiya zavodu, elevatorlar, Ərəkdəki maşınqayırma zavodu və digər obyektlərin SSRİ-nin texniki yardımı ilə tikiləcəyi nəzərdə tutulurdu. Sazişin bir bəndi isə Naxçıvanla bağlı idi...**



Tarixi zənginlikləri ilə seçilən Naxçıvanda hər qarışın, hər daşın, hər tikilinin öz maraqlı tarixi var. Bəlkə də bundan irəli gəlir ki, bu qədim diyar həmişə böyük dövlətlərin bu və ya digər şəkildə ümumi maraqlarının kəsişdiyi, bəzən də üst-üstə düşdüyü ərazilərdən olub. Elə birgə maraqların təsdiqi olaraq həyata vəsiqə qazanmış Araz Su Elektrik Stansiyası kimi...

Bu stansiyanın tikintisi (su anbarı da daxil) 6 il vaxt aparmışdı. Layihənin reallığa çevrilməsi üçün Araz çayı boyunca yerləşən kəndlərdən yüzlərlə ailə köçürülmüş, dəmir yolu xətti indiki Babək rayonu ərazisindən Şahtaxtı stansiyasınadək 100 metrədək içəriyə doğru çəkilmişdir. İnşası böyük vəsait tələb edən bu işdə SSRİ-nin məqsədi region əhalisini elektrik enerjisi ilə təmin etməkdən daha çox Naxçıvanın faydalı qazıntılarından yararlanmaq, daş duz, travertin, molibden, əhəng, mineral su yataqlarından istifadə etməklə daha çox gəlir əldə etmək idi.



Lakin Naxçıvanda bu istehsalı təkcə Ermənistan ərazisi vasitəsilə gələn elektrik verilişi xətləri ilə təmin etmək çətin idi. Həmçinin burada yeni su anbarı yaratmaqla yüzlərlə hektar sahəni suvarmaq mümkün olacaqdı ki, bu da iqtisadi baxımdan çox sərfəli idi. Bütün bunlardan əlavə, SSRİ-nin cənub-qərb sərhədlərində möhkəmlənməsi üçün də enerjiyə böyük tələbat vardı. Ancaq imperiya beynəlxalq konvensiyalara görə bu işi tək görə bilməzdi, daha doğrusu, transsərhəd çaylarından birtərəfli qaydada yararlanmaq mümkün deyildi. Ona görə də bu müştərək iş haqqında ilk təklif sovetlərdən gəlmişdi və SSRİ İran ərazisində həyata keçirdiyi digər layihələri də göz önünə gətirərək partnyorlarını bu işə razı sala bilmişdi.

Beləliklə, bağlanılmış sazişdən qısa müddət sonra Araz sahilində mühəndis-texniki hesablamalara başlanılır. İlk olaraq su anbarının salınacağı ərazi müəyyənləşdirilir. Bu, çox mühüm məsələ idi. Çünki seçilən ərazi su ehtiyatı yaratmaqla yanaşı, həm də muxtar respublika ərazisində çayın axınını nizamlayacaqdı. Bütün hesablamalar yekunlaşdıqdan sonra 1964-cü ildə tikinti işlərinə başlanılır. Buradakı tikinti işləri böyük bir ərazini əhatə edirdi. Yaradılacaq su anbarının uzunluğu 52 kilometrə, eni isə bəzi yerlərdə 6,1 kilometrə çatacaqdı. Bu isə Arazın yaxınlığında yerləşən Təzəkənd, Yamxana, Bulqan, Qaraçuq və Böyükdüz kəndlərinin su altında qalması ilə nəticələnəcəkdi. Buna görə də təsdiq olunmuş plana əsasən həmin kəndlərin əhalisi olduqları yerdən köçürülməli və onlar müvafiq evlərlə təmin olunmalı idilər.

Beləliklə, Arazda Su Anbarının tikintisi ilə yanaşı, həm də yeni salınan yaşayış məntəqələrində böyük tikinti işlərinə başlanılmışdı və 1970-ci ilə qədər keçmiş Naxçıvan rayonunun Təzəkənd və Yamxana kəndlərinin əhalisi indiki Babək şəhərinin olduğu əraziyə (1965-ci ildən burada həmin sakinlər üçün yaşayış binalarının tikilməsinə başlanılmışdı) digər kəndlərin əhalisi isə Qaraçuq, Bulqan və Böyükdüz kəndlərinə köçürülür. Köçürülmə zamanı həmin ailələrə Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Əmək Ehtiyatlarından İstifadə Komitəsi tərəfindən xüsusi köçürmə biletləri verilir. Həmin biletlərdə köçən ailə üzvlərinin sayı, köçmə və gəlmə haqqında qeydlər aparılır. Su anbarının inşası Son Tunc və İlk Dəmir dövrlərinə aid köhnə Böyükdüz yaşayış yeri, fransız hərbçiləri tərəfindən 1809-1810-cu illərdə tikilmiş tarixi Abbasabad qalasının qalıqlarının su dəryaçasının altında qalması ilə nəticələnir…

Araz Su Anbarı və Elektrik Stansiyasının tikintisi sovet dövründə Naxçıvanda aparılmış ən böyük tikinti obyekti idi. Su anbarının tikintisi üçün çayın üzərində hündürlüyü 34 metr olan bənd ucaldılır. Bəndin üstdən uzunluğu 1 kilometr 26 metr, eni isə 12 metrə çatırdı. Bu isə anbarda 1350 milyon kubmetr su ehtiyatı saxlamağa imkan verirdi ki, bu suyun faydalı həcmi 1150 milyon kubmetr idi. Həm su anbarının, həm də elektrik stansiyasının tikintisi üçün bura böyük inşaat dəstələri cəlb olunmuşdu.

Naxçıvanın ağsaqqal ziyalılarından olan Firudin Süleymanov bizimlə söhbətində bildirdi ki, vaxtilə bu hidroqurğunun tikintisində işləyib. Belə ki, ixtisasca iqtisadçı olan Firudin müəllim 1968-ci ildə ora baş iqtisadçı olaraq göndərilib və 1970-ci ilədək maliyyə-mühasibatlıq işlərində çalışıb, tikintinin sonuna yaxın isə ləğvetmə komissiyasının üzvü olub (Ləğvetmə komissiyası obyektin təhvil verilməsinə məsul olan komissiyadır). Köhnə xatirələri düşüncələrində canlandıran müsahibimiz deyir ki, Araz Su Elektrik Stansiyası, həqiqətən, böyük tikinti obyekti idi. Burada SSRİ-nin müxtəlif şəhərlərindən cəlb olunmuş mühəndis və texniki işçilər çalışırdı.

Onun dediklərindən: Mühasibatlıq sahəsində çalışdığım üçün yaxşı xatırlayıram ki, tikintiyə yerli inşaat kollektivləri də daxil olmaqla, 1800-dək işçi, 360-dan çox texnika cəlb edilmişdi. Torpaq bəndlərin inşasında istifadə olunan ağırtonnajlı avtomobillərin sayını artırmaq üçün Belarusiyaya ezam olunduğum da yaxşı yadımdadır. Bu qədər işçini yerləşdirmək də asan məsələ deyildi, – deyən Firudin müəllim söhbətinə davam edir: – Bunun üçün inşaat gedən ərazinin yaxınlığında Rusiyadan gətirilmiş 500-dək vaqon-evlər quraşdırılmışdı. Həmin vaqon-evlərin içərisində yataq otağı, kiçik mətbəx və hamam yerləşirdi. Bundan əlavə, ərazidə, təxminən, 150 nəfərlik 3 yeməkxana və ərzaq mağazası da tikilmişdi. Kənardan baxanda bu ərazi, sanki bir qəsəbəni xatırladırdı.

Hələ bir neçə il bundan əvvəl təsadüfən görüşüb söhbət etdiyim Babək rayon sakini Mehdi Əsgərov Araz SES-in tikintisi haqqında mənə maraqlı məlumatlar vermişdi. Həm Araz, həm Arpaçay, həm də Şəmkir Su Elektrik stansiyalarında çalışmış Mehdi Əsgərov bildirmişdi ki, Arazdakı su anbarının tikintisi üçün Babək rayonu ərazisindəki Təzəkənd (Qızılvəng) yaxınlığında ayrıca beton zavodu tikilmişdi. Qum-çınqıl ehtiyatı burada tədarük olunurdu. Sement isə hidrotikintilərdə istifadə olunan xüsusi markalı sement idi və Ukraynadan gətirilirdi. Yəni adi tikintidə istifadə olunan sement deyildi, markası "S-800" idi. Bu sement milyonlarla ton ağırlıqda suyu saxlamağa qadir, eyni zamanda bərkiyəndən sonra qranitdən də sərt bir sement növü idi. Yalnız böyük su anbarlarının, bəndlərin tikintisində istifadə olunurdu.

1970-ci ilin avqust-sentyabr aylarında Arazda işlər daha da sürətlənir. Həmin dövrdə "Şərq qapısı" qəzeti yazırdı: "Əsrlərboyu sakit axan Arazın sahillərində indi gecə də, gündüz də iş bulaq kimi qaynayır. Araz Su Tikinti İdarəsinin kollektivi işə ürəkdən girişmişlər. Tikintidə çalışan ayrı-ayrı kollektivlər daha yüksək göstəricilərə nail olmuşlar. R.Həmidovun başçılıq etdiyi mexanizasiya və avtonəqliyyat idarəsinin, A.Sobolevin başçılıq etdiyi tikinti-quraşdırma idarəsinin, V.Stankeviçin başçılıq etdiyi quraşdırıcılar dəstəsinin üzvləri öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Quraşdırıcılardan V.Qaqanov, V.Kanovalov, H.Qayıbov, İ.Pavlenko hər gün nəzərdə tutulduğundan daha artıq iş görürlər…"

Qəzetin digər bir nömrəsində isə oxuyuruq: "Araz Su Elektrik Stansiyasının ilin sonuna istifadəyə verilməsi SSRİ-nin 50 illiyinə böyük töhfə olacaq. Hazırda elektrik stansiyasının yaxınlığında yerləşən quraşdırma bazasında böyük avadanlığın qovşaqları quraşdırılır. Burada üzərində Leninqrad, Minsk, Zaporojye, Krasnoyarsk zavodlarının markaları olan texnikalara rast gəlmək mümkündür. İndi quraşdırıcılar Arazın sağ və sol sahilində hər biri 130 ton ağırlığında yük qaldıran iri qülləli kranlar quraşdırır. Həmin kranlar hidroelektrik stansiyasını təhlükəli hadisələrdən qorumaq üçündür. Bəndin qapıları həmin kranlar vasitəsilə qaldırılıb endiriləcəkdir. Mühəndis V.Butov bu işin peşəkarıdır. O, indiyədək ittifaqın bir çox yerlərində çalışıb…" Yeri gəlmişkən, burada çalışan peşəkar mütəxəssislərin bir neçəsi də Asuan bəndinin tikintisindən sonra Araza göndərilmişdi.

**Haşiyə:** Nil çayı üzərində tikilən Asuan bəndi Misir prezidenti Nasir tərəfindən çiçəklənən Misirin simvolu kimi düşünülmüşdü. Bu böyük layihəyə Britaniya və ABŞ maliyyə-texniki cəhətdən kömək edəcəklərini əvvəlcə söz versələr də, sonra bundan imtina etdilər və bənd SSRİ-nin dəstəyi ilə 1960-1970-ci illərdə tikildi. Asuanın tikintisi zamanı Nilin qarşısı 110 metr hündürlükdə divarla kəsildi və burada elə böyük su anbarı yarandı ki, hətta onun bir hissəsi Sudan ərazisindədir. Ancaq kifayət qədər ambisiyalı olan bu tikili istifadəyə verildikdən sonra Misirə gözlənilən xeyri gətirmədi. Bu isə artıq başqa söhbətin mövzusudur.

1970-ci ilin payızında Arazda işlər yekunlaşdırılsa da, bəzi texniki məsələlərə görə stansiyanın açılışı gecikir. Həmin vaxt tikintinin baş mühəndisi V.N.Razin mətbuata açıqlamasında deyir: "Yaz vaxtı çayın suyunun həddindən artıq artması sag sahildə quraşdırılmış aqreqatları işə salmağa mane olur, hətta hidroloqların dediyinə görə, bir neçə əsr olar ki, Arazın suyu bu qədər artmamışdır. O vaxt su işə yalnız maneə törədirdi. İndi isə çayın suyu azaldığından anbarı doldurmaq mümkün deyil. Qurğunu işə salmaq üçün bu nəhəng anbarda suyun səviyyəsi heç olmazsa 14 metrə çatmalıdır, ancaq hazırda səviyyə cəmi 9 metrdir…"

Beləliklə, texniki işlər tam sona çatmadığından stansiyanın istifadəyə verilməsi 1971-ci il iyunun 28-də baş tutur. Açılış mərasimində SSRİ Nazirlər Soveti sədrinin müavini M.T.Yefremov və İran baş nazirinin iqtisadiyyat məsələləri üzrə müavini S.Əsfiya başda olmaqla, hər iki tərəfdən rəsmi şəxslər iştirak edirlər. Turbinlər işə salındıqdan sonra təbriklər söylənilir, yeni obyektin hər iki tərəf üçün uğurlu olması arzulanır.

Bir məsələni də qeyd edək ki, stansiyanın tikildiyi 1964–1970-ci illərdə Naxçıvan şəhərinin mərkəzində Araz SES-də işləyən işçilər üçün yeni yaşayış binaları tikilir. Bu binalara ində də el arasında "Arazstroy"un binaları" deyilir. 1967-ci ildə muxtar respublikada Tofiq Axundovun rəhbərliyi ilə "Araz" futbol komandası formalaşmağa başlayır. Həmin ildə Nəriman Sadıqov "Araz" Mahnı və Rəqs Ansamblını yaradır. Həmçinin həmin dövrlərdə Şahbuz rayonunun Ağbulaq, Gömür kimi kəndlərində "Araz" pioner düşərgələri fəaliyyətə başlayır. Bir sözlə, həmin illərdə Naxçıvanda, sözün əsl mənasında, bir "Araz fırtınası" yaşanır.

…Ötən əsrin 90-cı illərində mənfur düşmənlərimiz tərəfindən blokadaya salınan Naxçıvan böyük enerji problemləri ilə üzləşir. Həmin dövrdə Naxçıvanın enerji təminatında yeganə rolu Araz Su Elektrik Stansiyası oynayır. Bu stansiyada istehsal olunan 15-20 meqavat elektrik enerjisi fasilələrlə muxtar respublikanın enerji xətlərinə ötürülür. Məhz həmin dövrdə ulu öndər Heydər Əliyevin şəxsi nüfuzu sayəsində qonşu İran İslam və Türkiyə respublikaları ilə əldə olunmuş razılığa əsasən idxal olunan enerji hesabına Naxçıvanın enerji təminatı nisbətən yaxşılaşdırılır. Növbəti illərdə isə dahi şəxsiyyətin Naxçıvan üçün arzuladıqları həyata keçərək muxtar respublika enerji idxal edən regiondan enerji ixrac edən regiona çevrilir. Bütün bunlarla yanaşı, 20 meqavat gücündə olan Araz Su Elektrik Stansiyası hazırda da muxtar respublikanın enerji istehsalında mühüm rol oynayır. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda isə Araz SES-in yenidən qurulacağı da nəzərə alınıb. Beləliklə, bu il fəaliyyətinin 55 ili tamam olan bu stansiya muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasına bundan sonra da öz töhfəsini verməkdə davam edəcək.

# Qədim diyarda Hemodializ Mərkəzi yaradılır



**"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər Dövlət Proqramı"na uyğun olaraq, muxtar respublikada xroniki böyrək çatışmazlığı olan xəstələrə göstərilən ixtisaslaşdırılmış tibbi yardımın daha da yaxşılaşdırılması məqsədilə Hemodializ Mərkəzi yaradılır.**

Pasiyentlərə daha rahat və keyfiyyətli xidmətin göstərilməsi, müasir avadanlıqların alınması məqsədilə müvafiq satınalmalar həyata keçirilib. Burada quraşdırılan osmos cihazları hemodializ prosesində toksinlərin və artıq maddələrin təmizlənməsini təmin edəcək. Mərkəzdə uşaqların dializ prosesini daha rahat keçirmələri üçün pediatrik dializ bölməsi də yaradılıb.

Alınan avadanlıqlardan Şərur Rayon Mərkəzi Xəstəxanasına 4 ədəd, Sədərək Rayon Mərkəzi Xəstəxanasına isə 2 ədəd hemodializ cihazı veriləcək. Sədərək Rayon Mərkəzi Xəstəxanasında əvvəllər hemodializ cihazı olmadığı üçün xəstələr müalicə üçün Şərur Rayon Mərkəzi Xəstəxanasına müraciət etmək məcburiyyətində qalırdılar. Yeni təchizatla, digər rayonlarda da xəstəxanalarda hemodializ cihazlarının sayı artırılacaq və yeni bölmələr yaradılacaqdır.

# NDU-da inklüziv təhsil müzakirəsi

**Naxçıvan Dövlət Universitetində "Konstitusiya və Suverenlik İli"nə həsr olunan "İnklüziv təhsil: nailiyyətlər və qarşıda duran vəzifələr" mövzusunda I Respublika Elmi konfransı keçirilib.**



Universitetin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, NDU-nun Beynəlxalq Məktəbində keçirilən konfrans Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti və Xəzər Universitetinin birgə təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Təhsil və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin iştirakı ilə təşkil olunub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev giriş sözü ilə tədbiri açıq elan edərək bildirib ki, konfrans müxtəlif əqli və məhdud fiziki imkanlı uşaqların geniş çeşidli tədris fəaliyyətlərinə cəlb edilməsinə dair aparılmış tədqiqatların müzakirə edilməsi, problemin həlli yollarına dair təkliflərin dəyərləndirilməsi məqsədi daşıyır.

Elmi məclis Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Elxan Nəcəfovun, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Fərid Bağırzadənin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru Asəf Zamanovun, Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasının müdiri Piralı Əliyevin, Xəzər Universitetinin humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Aygün Verdiyevanın çıxışları ilə davam edib.

*Səhifəni hazırladı:*
***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

# Qazi atanın qazi oğulları

**Elan olunmamış Qarabağ müharibəsi başlananda Azərbaycan dövlət müstəqilliyini yenicə bərpa etmişdi. Ölkənin iqtisadiyyatı iflic vəziyyətində idi. Ordumuz yenicə təşkil olunurdu. Bir yandan da daxili çəkişmələr səngimirdi. Fürsətdən istifadə edən erməni millətçiləri yeni torpaqlar qoparmaq iddiası ilə Qarabağda terrorlar törədir, Azərbaycan kəndlərini atəşə tuturdular... Səmasında qara buludlar dolaşan yurdumuz qeyrətli oğullarının ümidinə qalmışdı və onlar Vətənin müdafiəsinə qalxdılar. Azərbaycanın hər yerindən könüllü dəstələr Qarabağa yollandı. Çoxu da silah-sursatsız, Vətən sevgisi, ürəklərinin hökmü ilə...**



Könüllülərin cərgəsində Qax rayonunun övladları da vardı. Onlardan biri Zəyəm kənd sakini Famil Sirac oğlu Əmranovdur. Famil 1966-cı ildə sadə bir ailədə dünyaya göz açıb. Kənd orta məktəbinin məzunu olub. Əsgər yaşı çatanda Sovet ordusu sıralarında xidmətə çağırılıb. İki il Uzaq Şərqdə – Xabarovskda xidmət edib. 1986-cı ildə doğmalarının yanına qayıdıb, bir neçə il təsərrüfatda çalışıb. Birinci Qarabağ müharibəsi başlananda cəbhəyə könüllü gedib, 1991-ci ildən 1993-cü ilin əvvəlinə kimi Ağdam–Xocavənd istiqamətində döyüşüb. Famil o illəri belə xatırlayır:

– O vaxt Qarabağ müharibəsində Azərbaycanın hər guşəsindən gələn igid oğullar könüllülərdən ibarət batalyonların tərkibində vuruşurdular. Silah-sursatımız çatışmırdı. Çox şəhid verirdik, amma düşmənə arxa çevirib qaçmırdıq, çətin məqamda əlbəyaxa da vuruşurduq. 1993-cü ildə Ulu öndərin yenidən Azərbaycana rəhbərliyə qayıtması vəziyyəti dəyişdi. Nizami ordu formalaşandan sonra könüllülər tərxis edildi. Mən də kəndə qayıtdım. Ancaq özümü təqsirkar bilirdim. Gecələr kabusum olmuşdu: Qollarım arasında döyüş dostlarımın "Vətən sağ olsun!"– deyərək şəhid olmasını, yaralı döyüşçülərimizin son nəfəsinədək vuruşduğunu unuda bilmirdim. Qanları yerdə qalmışdı igid oğullarımızın. Düz 30 il bu göynərtini içimdə yaşatdım. Amma inanırdım! İnanırdım ki, gec-tez düşməndən qisas alınacaq, torpaqlarımız işğaldan azad ediləcək. Və o gün gəldi. 44 günlük Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitlərinin şücaəti, xalqımızın birliyi, Ali Baş Komandanımızın qətiyyəti ilə qazanılan tarixi Qələbə! Ordumuz bir daha sübut etdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Tarixi qələbəmiz hamımızı sevindirdi. Bu qələbə sevincindən Birinci Qarabağ müharibəsində döyüşən biz könüllülərə də pay düşür.





Bizim yarımçıq qoyduqlarımızı oğullarımız tamamladılar. Mən özümü xoşbəxt sanıram, iki oğlum 44 günlük Vətən müharibəsinin döyüşçüsü olub. Özü də mənim döyüşdüyüm istiqamətdə vuruşublar. Bu gün onların hər ikisinin sinəsini döyüş medalları bəzəyir. Oğullarım mənim şəhid dostlarımın da intiqamını alıblar.

... Birinci Qarabağ müharibəsinin iştirakçısı Famil Sirac oğlu Əmranovun qəhrəman oğulları–Ramil və Xudaverdi qardaşları. Onlar hələ kiçik yaşlarından atalarının içində yaşatdığı göynərtinin ağırlığını duyaraq Vətən sevdalısı olmuşlar...

Famil Əmranov ordudan tərxis olunduğu 1993-cü ildə ailə qurub. Hələ cəbhəyə getməmişdən qabaq sevmişdi Cəmiləni. Atası Sirac kişi oğluna toy edib, Cəmiləni gəlin gətirir. 1994-cü il yanvarın 14-də ailənin ilki–Ramil dünyaya göz açır. Ramil Zəyəm kənd məktəbində təhsil alıb. Məktəbdə tez-tez müharibə iştirakçıları ilə keçirilən görüşlər, Qarabağla bağlı tədbirlər və bir də atasının hər fürsətdə döyüş yolu, itirdiyi dostları haqqında yanğı ilə söylədikləri onun uşaq qəlbində bir intiqam alovu şölələndirmişdi...

– Mən hələ uşaqlıqdan "Marş irəli, Azərbaycan əsgəri!" mahnısının sədaları altında sevmişəm Vətənimi. Kəndimizdən orduda xidmət edən yüksək rütbəli zabitlər çoxdur. İldə bir dəfə onlarla görüşərdik. Polkovnik-leytenantlar İlham Feyzullayevin, Kənan Qurbanovun, Vidadi Şamilovun və mayor Yusif Şabanovun məktəblilər qarşısında çıxışları, geyimləri, hətta yerişləri məni valeh edərdi. Qərara almışdım ki, mən də onlar kimi hərbçi olacağam. 8-ci sinifi bitirib, 2009-cu ildə C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olundum. Atam onda hamıdan çox sevinirdi: – onun oğlu da zabit olacaq. 2012-ci ildə liseyi bitirib H.Əliyev adına Ali Hərbi Məktəbə qəbul olundum. 2016-cı ildə motoatıcı ixtisası üzrə bitirib, quru qoşunlarında taqım komandiri kimi Qarabağ bölgəsində xidmətə başladım. 2018-ci ildə bölük komandiri vəzifəsinə təyin edildim...

...2020-ci il sentyabrın 27-də Ramilin bölüyü Cəbrayıl-Cocuqmərcanlı istiqamətində hücuma keçir. Bölük komandiri Ramil Siraclı döyüşə həmişə öndə gedir. Oktyabrın 4-də gecə Füzuli rayonunun Horadiz kəndi uğrunda əməliyyat zamanı düşmənlə əlbəyaxa vuruşurlar. Düşmənin atdığı əl qumbarası Ramilin ayaqları altında partlayır. Bölük komandiri iki ayağından yaralanır. Həmin döyüşdə bir əsgəri şəhid olur. Özü isə ağır yaralanır.

–Sağ qalmağım möcüzə idi. Düz dörd saat təxliyə oluna bilmədim. Uşaqlar məni ölümün əlindən aldılar. Qanaxmanı saxlamışdılar. Səhərə yaxın təcili Bakıya hərbi hospitala göndərildim. Yaralarım sağalar-sağalmaz, noyabrın 9-da yenidən hərbi hissəyə qayıtdım. Hissəmiz artıq Xocavənddə idi. Ertəsi gün müharibə dayandı. Xidmətim isə davam edirdi.

...2021-ci ildə baş leytanant Ramil Siraclı komando hərbi hissəsinə göndərilir. Hadrutda xüsusi təyinatlı kimi xidmət edir. 2023-cü ildə isə kapitan rütbəsi alır. Gənc zabit 2023-cü ilin sentyabrın 19-da antiterror əməliyyatı zamanı yenidən ağır yaralanır. Gecə hücuma keçən xüsusi təyinatlılarımız düşmən tələsinə düşmüşdülər, Ramilə həmin döyüşdə 3 snayper gülləsi dəymişdi. Gecə saat 2-də yaralanan kapitanı səhərə yaxın təxliyə etmək mümkün olur. Şuşada hospitalda təcili əməliyyat edilir, daha sonra Bakıya göndərilir. Düz dörd ay hərbi hospitalda müalicə alan Ramil Siraclı 2024-cü ilin aprelində III dərəcəli Qarabağ əlili kimi ordudan tərxis olunur. Onun yüksək rütbəli zabit olmaq arzusu, beləcə, yarımçıq qalır.

Azərbaycan Silahlı Qüvvələrinin kapitanı Ramil Siraclı ağır döyüşlərdə–gizir İmran İsmayılov (beyləqanlı), leytenant Cavid Hüseynov (naxçıvanlı), əsgər Fərid Nuruzadə (biləsuvarlı) kimi igid və sədaqətli dostlar qazanıb. Qardaşı kimi sevdiyi, şamaxılı əsgər Yusif Əliyevin döyüşdə şəhid olması onu sarsıdıb. O, bir ömür boyu Yusifi ehtiramla xatırlayacaqdır.

...44 günlük müharibədə qardaşımla eyni cəbhədə döyüşürdük, O da xüsusi təyinatlılardan idi. Mənim yaralandığımı gördü, lakin mövqeyindən ayrılmadı. Onun mövqeyindən ayrılması düşmənə fürsət verərdi. Təxliyə ediləndən sonra qardaşımla telefonla danışdım. Vəziyyətim yaxşı deyildi. Hər şey ola bilərdi. Qardaşıma tapşırdım ki, evdəkilərə yaralandığımı deməsin.

Anti-terror əməliyyatı zamanı ikinci dəfə yaralandım. Bədənim dəlik-deşik olmuşdu. 4 saat təxliyə üçün gözlədilər. Bu dörd saatda 30 illik həyatım göz önündən gəlib-keçdi. Hissədə tək mən evli idim. Oğlum Özcanın 4 yaşı var idi. Hey dua edirdim ki, oğlum yetim qalmasın. Ancaq onu da düşünürdüm ki, şəhid olsam oğlum, ailəm Vətən yolunda şəhidliyimlə fəxr edəcəklər…

Böyük qardaşı Ramildən 4 yaş kiçik olan Xudaverdi Siraclı 1998-ci ildə anadan olub. Zəyəm kənd məktəbində 9-cu sinfi bitirib, təhsilini Qax Peşə Liseyində davam etdirib. 2016-cı ildə həqiqi hərbi xidmətə çağırılıb, xüsusi təyinatlı bölükdə xidmət edib. Xüsusi təyinatlıların kursunu keçib. Xidmət müddəti başa çatandan sonra müqavilə ilə hərbidə qalıb. 44 günlük Vətən müharibəsində Xudaverdinin döyüş yolu Füzulidən başlayıb, Cəbrayıl, Xocavənd, Hadrut və Şuşaya qədər uzanıb. 2021-ci ildə müqaviləsinin müddəti başa çatır və o, Qaxa qayıdır. Hazırda Qax Rayon Polis Şöbəsinin əməkdaşıdır.

Döyüşlərdə göstərdikləri igidliyə və şücaətə görə hər iki qardaş dövlət tərəfindən təltif olunub. Ehtiyatda olan kapitan Ramil Siraclı "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", habelə "Vətən müharibəsi iştirakçısı", 3 dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" medalları ilə təltif olunub.

Xudaverdi Siraclı isə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətdə fərqlənməyə görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilmişdir.

Birinci Qarabağ müharibəsi qazisi Famil Əmranov oğulları ilə fəxr edir. Onun 30 il içində yaşadığı acılarını indi qürur hissi sağaldıb. Vətən üçün belə oğullar böyüdən Famil xoşbəxtdir.

Belə bir deyim var: "Oğullar ataların davamçılarıdır." O ata xoşbəxtdir ki, onun yarımçıq qoyduqlarını oğulları tamamlaya bilirlər. Famil kimi ataların da yarımçıq qoyduqlarını oğulları başa çatdırdılar, düşməni torpaqlarımızdan birdəfəlik qovdular. Belə oğulları olan hər atanın öyünməyə haqqı var.

***Xavər ƏFƏNDİYEVA,***
***Qax rayonu, "Şəlalə" qəzetinin redaktoru***

# Sosial sığorta daxilolmaları 11 faiz artıb

**2025-ci ilin yanvar–fevral aylarında ölkədə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 958,6 milyon manatdan çox olub.**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatında bildirilir ki, bu mənbədən ödəmələr əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,1 faiz və ya 96 milyon manatdan çox artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 15 faiz artaraq 648,4 milyon manatdan çox təşkil edib.

Qeyd edilib ki, işsizlikdən sığorta haqları üzrə daxilolmalar 2024-cü ilin müvafiq dövrünə nisbətən 15,7 faiz artaraq 34,4 milyon manata çatıb. Qeyri-büdcə təşkilatları üzrə ödəmələr isə 17,2 faiz artıb və 26,7 milyon manat təşkil edib.

İcbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 11,6 faiz artaraq 171 milyon manata yaxın olub. Qeyri-büdcə təşkilatları üzrə ödəmələr 10,8 faiz artaraq 122 milyon manata yüksəlib.



# Aprel döyüşçüsü, Vətən müharibəsi şəhidi

## *Ana da, oğul da Qarabağ savaşının iştirakçısı olublar*

**Sosial şəbəkədə qarşıma Vətən müharibəsi zamanı şəhid olmuş Zaur İsmayılzadənin öz qeydləri çıxdı: "Eyni anadan doğulana qardaş, eyni ana üçün ölümə gedənlərə qəhrəman deyirlər. Allah rəhmət eləsin şəhidlərimizə, var olsun qazilərimiz. Qazilər bizə şəhidlərimizin əmanətidir". Bu çıxışın sorağına düşdüm. Yollar məni Zaur İsmayılzadənin vaxtilə yaşadığı Maştağaya, anası Sevil Hüseynovanın evinə apardı.**

Öyrəndim ki, Zaur İsmayılzadə 1995-ci il iyulun 29-da Lənkəran rayonunun İstisu qəsəbəsində anadan olub. Şəhid Vüqar Məmmədov adına Cəlilabad rayon Göytəpə şəhər tam orta məktəbində təhsil alıb.

2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçib. 2015-2017-ci illərdə Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin sıralarında "gizir" rütbəsi ilə xidmətini davam etdirib. Məlum Aprel döyüşlərində iştirak edib. Döyüş zamanı ağır yaralanıb və səhhəti ilə əlaqədar 2017-ci ildə ordudan tərxis olunub. Müxtəlif MMC-lərdə mühafizəçi işləyib.



Vətən müharibəsi başlanandan 2 gün sonra Zaur könüllü olaraq ordu sıralarına qayıdıb. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 7-də döyüş tapşırığını yerinə yetirərkən igidliklə şəhid olub. Lənkəran rayonunda dəfn edilib. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

**Şəhidimizin anası Sevil xanım da müharibə iştirakçısıdır. Uzun illər tibb bacısı olaraq hərbi hospitallarda xidmət edib. Tale elə gətirib ki, Vətən müharibəsində də onun bilik və təcrübəsinə ehtiyac duyulub və yenidən hospitala qayıtmalı olub:**

– Artıq 4 ildir ki, torpaqlarımız işğaldan azad edilib. Bəzən qəribə fəxarət hissi bürüyür məni: Zaur İsmayılzadə kimi şəhidin anasıyam. I Qarabağ müharibəsində Vətənimizin dar günündə mən də ön sıralarda oldum. Biz o zaman qələbəni əldə edə bilmədik. Şükür ki, Zaur kimi oğullar qələbə sevincini Azərbaycan xalqına yaşatdılar.

Oğlum 25 il yaşadı, lakin bu 25 ilin içərisinə bütöv bir əsri yerləşdirə bildi. Zaur sərhəd qoşunlarında həqiqi hərbi xidmət keçmişdi. Xidmətini uğurla başa vurub qayıtdıqdan sonra evdə rahat ola bilmirdi. Hərbidə xidməti davam etdirmək istəyirdi. Qısa müddət sonra xüsusi təyinatlılarda xidmətə başladı. O, daim şəhidlərimizin məzarlarını ziyarət edərdi. Yaşadığımız Cəlilabadın Göytəpə qəsəbəsində 2 naməlum əsgər məzarına hər bayram gül qoyardı. Məktəbə gedəndə ona verilən xərcliyə alardı o gülləri.

Mübariz İbrahimov şəhid olanda öz vəsaiti ilə məktəbdə Milli Qəhrəmanımızın adına guşə açdırmışdı. Samirə müəllim deyirdi ki, qəhrəmanın sinifdə asılmış şəklinə hərbi salam vermədən əyləşməzmiş. Bunları danışanda kövrəlməmək mümkün deyil.

Uşaqlıqda övladlarımı Şəhidlər xiyabanına aparanda 5 yaşlı qızın məzarını göstərmişdim. Necə yadında qalıbsa, həmişə ziyarət edərdi. Onunla bağlı sosial şəbəkədəki statuslarının birində yazmışdı: "Körpə quzum, məni bağışla, hələ sənin qisasını ala bilməmişəm. Mənim kimi neçə-neçə əmilər gözləyir ki, ilk fürsətdə sənin qisasını alsın".

**Sevil Hüseynova Zaur İsmayılzadənin "Qazilər bizə şəhidlərimizin əmanətidir" qeydindən də söz açdı:**

– Zaur bu fikri səsləndirəndə müharibə barəsində düşünən az idi. Sadəcə, içindən gələn ifadələr idi. Mən hər dəfə qazi görəndə sanıram ki, Zaurumun əmanətidir.

**Şəhid anası qeyd etdi ki, oğlu qısa ömründə böyük xatirələr yadigar qoyub. Onu tanıyanlar Zaur haqqında həmişə xoş fikirlər danışıblar:**

– General Polad Həşimov şəhid olandan sonra Zaur 1 ay Tovuzda qaldı. Gözləyirdi ki, əmr verilsin və müharibəyə 1-ci qatılanlardan olsun. Düşünürdü ki, Bakıdan cəbhə bölgəsinə getmək gec olar. Generalımız şəhid olan vaxt hərbçimiz Kənan İsayev də yaralanmışdı. O mənə deyirdi ki, hospitalda valideynlərindən, doğmalarından qabaq başı üstündə Zauru görüb.

Zaur şəhid olandan sonra Şüvələndan yaşlı biri onun nömrəsinə zəng etdi. Mənimlə danışdı, oğlumun şəhidlik xəbərinə pis oldu. Dedi ki, öz övladı olmayıb. Zaur ona övladdan da yaxın olub, həkimə aparıb, dərman, ərzaq və sair alıb. Pandemiyanın ən kəskin vaxtlarında Ağcabədidən biri sosial şəbəkələrdə uşağına təcili qanın lazım olması barədə paylaşım edibmiş. Bu, necəsə Zaurun qarşısına çıxıb. Karantin vaxtı Bakıdan Ağcabədiyə necə gedibsə, hələ də mənə müəmmalıdır. Özünü çatdırıb və tanımadığı, görmədiyi uşağın həyatda qalması üçün qan verib. Bu, davamlı olub, hər ay qan verib. Zəng edən, evə gəlib Zaurun onlara etdiyi yaxşılıqları deyən adamların sayı-hesabı yoxdur. İnanın bunlardan mənim heç vaxt xəbərim olmayıb.

**Sevil xanım oğlunun müharibəyə necə yollanmağını da bizə danışdı:**

– Müharibə 2020-ci ilin sentyabrın 27-də başlandı. Mən səhəri gün Zaura zəng etdim, o artıq Tovuzda idi. Ehtiyatda olsam da, tibb işçilərinin çatışmazlığına görə sentyabrın 29-da hospitala getdim. Sonrakı gün Zaur mənə zəng edib bildirdi ki, rayon komissarlığından ona zəng edib çağırıblar. Şəhid olmamışdan öncə hospitalın önündə oğlumla 5 dəqiqəlik görüşdüm, son dəfə ona sarıla bildim. Ondan sonra onunla cəmi 2 dəfə telefonda danışmışam. Hospitalda yaralı əsgərlərin müalicəsi ilə məşğul olurdum deyə, çox vaxtım olmurdu. Mən daim övladıma vətənpərvərlik hissləri aşılamışam. Axı özüm də ömrümün böyük hissəsini hərbiyə, Vətənimə qurban vermişəm.

Zaur oktyabrın 7-də Füzulidə – rayonun "Buğra dərəsi" adlanan ərazidə şiddətli döyüşlər zamanı aldığı qəlpə yarasından 2 saat sonra şəhid olub. Hərbçi yoldaşları danışırlar ki, o, yolları yaxşı tanıdığı üçün dəfələrlə yanlış istiqamətə gedən silahdaşlarına düz yolu göstərib.

Oğlumun yaralanması xəbərini eşitmişdim, ancaq harada olmasını bilmirdim, axtarırdım. Zaurun Hacıqabuldan olan silahdaşı Ramin görüb ki, yaralıdır, üşüyür. Kitelini onun üzərinə qoyub ki, oğlum üşüməsin. O adla Zauru Ramin zənn edərək nəşini Hacıqabula yola salmış, orada dəfn etmişdilər. Mən, qohumlarım hara zəng edirdiksə, Zauru tapa bilmirdik. Hətta bu üzdən bir az rahatlanmışdım ki, hardasa çətin ərazidədir, telefonunu aça bilmir. Amma yuxularımda onun darda olduğunu görürdüm...

Üç gündən sonra Ramin evə hal-əhval tutmağa zəng edəndə yasa batmış ailə təəccüb keçirib. Atası deyib ki, oğlunun sağ olduğunu desə, ona inanmazlar, elə bilərlər havalanıb. Səfərbərlik xidmətinə gedirəm, özün ora zəng elə.

Şəhid Ülvinin mərasimində olarkən qardaşım ağlayaraq mənə zəng etdi. Nə olduğunu demədi. Mən bildim ki, balam şəhid olub. Zaurun səhvən Hacıqabulda dəfn edilməsi mənə deyilməmişdi, oğlumun 40-da bildim. Deməli, o ailə bizə ziyarətə gəlmişdi. Bunların kim olduğunu soruşanda dedilər ki, biz Zaur üçün "üç mərasimi" vermişik.

**Sevil Hüseynova gözlərini otağın künclərində gəzdirir, Zaurun yatağına boylanaraq pıçıltı ilə bu sözləri danışırdı:**

– Müharibəyə 5-6 gün qalmış Zaur məni otağına çağırıb başını köksümə qoyub ağladı. Nə düşündüyünü, niyə ağladığını bilmədim. İndi başa düşürəm ki, o, hər şeyi hiss edibmiş. Zaursuz çox darıxıram...

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

**Bəxtiyar Vahabzadə – 100**

# Bəxtiyar taleli istiqlal şairi

**Dünən AMEA Ədəbiyyat İnstitutunda Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi, akademik, pedaqoq və ictimai xadim Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyinə həsr edilən "Ədəbiyyatımızın Bəxtiyarı" adlı elmi sessiya keçirilib.**



Məclisdə iştirak edən deputatlar, yazıçılar, alimlər, təhsil və mədəniyyət işçiləri, şairin ailə üzvləri və media təmsilçiləri əvvəlcə istiqlal şairinin ömür yoluna işıq salan sərgi ilə tanış olublar. Şairin həyat və yaradıcılığından bəhs edən videoçarx da nümayiş etdirilib.

AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli elmi sessiyanın Prezident İlham Əliyevin "Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncamı ilə bağlı ilk məclis olduğunu qeyd edib. O, akademiyanın müəssisə və təşkilatlarında, regional bölmə və mərkəzlərində yubiley münasibətilə silsilə tədbirlərin keçiriləcəyini, yeni nəşrlərin hazırlanacağını bildirib.

AMEA rəhbəri çağdaş Azərbaycan ədəbiyyatının parlaq siması Bəxtiyar Vahabzadənin mübariz şəxsiyyəti və çoxşaxəli yaradıcılığı ilə ədəbi-elmi fikrimizin zənginləşməsində önəmli rol oynadığını bildirib. Akademik şairin yaradıcılığını müstəqillik, azərbaycançılıq ideologiyası və istiqlal düşüncəsi baxımından daha dərindən tədqiq etməyin vacibliyini vurğulayıb: "Bu gün biz böyük şairimizin irsini müasir reallıqlar, qazandığımız qələbə və müstəqil dövlətimizin siyasi-ideoloji düşüncəsi işığında qeyd edirik. Bəxtiyar Vahabzadə istiqlal ədəbiyyatımızın bayraqdarı, milli azadlıq hərəkatının görkəmli nümayəndəsidir. O, ölkəmizin ən ali mükafatlarından olan "İstiqlal" ordenini ilk dəfə alan 3 mübariz soydaşımızdan biridir".



Sessiyada bildirilib ki, Bəxtiyar Vahabzadə azərbaycançılıq məfkurəsinə dərindən bağlı olan və özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına misilsiz töhfələr verib. Şairin mübariz poeziyası istiqlal, azadlıq ideyalarının bədii təcəssümünə çevrilib. Böyük sənətkar müasir Azərbaycan poeziyasında fəlsəfi lirikanın da gözəl nümunələrini yaradıb. Bəxtiyar Vahabzadə Azərbaycanın və Türk dünyasının söz dahiləri sırasında yer almış nadir ədiblərdən biridir.

Milli Məclisin deputatı Cavanşir Feyziyev görkəmli şair Bəxtiyar Vahabzadənin Azərbaycanın və dünyanın ən qüdrətli şairləri sırasında layiqli yer tutduğunu, Türk dünyasının da dərdlərini daim istedad və cəsarətlə qələmə aldığını deyib.

Elmi sessiyada filologiya elmləri doktorları Vaqif Yusifli "Poeziyamızın Bəxtiyarı", Elnarə Akimova "Bəxtiyar Vahabzadənin poetik məni", Əlizadə Əsgərli "Bəxtiyar Vahabzadə yaradıcılığında insan konsepsiyası" və Esmira Fuad "Bəxtiyar Vahabzadənin yaradıcılığında ana dili mövzusu" mövzusunda məruzələrlə çıxış ediblər.

***T.AYDINOĞLU***
***XQ***

# Milli kinomuzun uğur və hədəfləri

**Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Cinema talks" və "Yaradıcı Azərbaycan" mövzusunda panel iclaslar keçirilib. Nazirliyin layihəsi çərçivəsində təşkil olunan müzakirələrdə kino sənayesində çalışan yaradıcı heyət, dövlət və hökumət rəsmiləri, millət vəkilləri, mədəniyyət və elm xadimləri iştirak ediblər.**

Əvvəlcə "Cinema talks" panel müzakirəsində son illər dövlət dəstəyi ilə lentə alınmış filmlərdən kadrlar nümayiş olunub. Sonra Azərbaycan Respublikası Kino Agentliyinin əməkdaşı Səbinə Bağırova ölkəmizdə xarici şirkətlər tərəfindən çəkilişlərin həyata keçirilməsi və həmin təşkilatların bu sahəyə 10 milyon dollar məbləğində investisiya yatırması haqqında məlumat verdi. O, müştərək film istehsalı, bu sahənin inkişaf perspektivləri və beynəlxalq əməkdaşlıq məsələləri haqqında danışdı.




"Kino Sənayesinin İnkişafı Fondu" İctimai Birliyinin sədr müavini, aktyor Azər Aydəmir "KinopArk" layihəsini təqdim edərək "Azərbaycanfilm" kinostudiyasının əsaslı şəkildə bərpa edilməsini təklif etdi.

Müzakirələrdə Mədəniyyət Nazirliyi yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov, film, video və videooyunlar sektorunun müdiri Günay Rəhimova, "Azərbaycan Prosüderlər Gildiyası" İctimai Birliyinin sədri Müşfiq Hətəmov və başqaları da iştirak etdilər.

Burada Azərbaycan kino sənayesindəki mövcud vəziyyət təhlil olunaraq, kinofestivalların ("Baku Cinema Breeze" - BCB) və kino fondlarının müştərək istehsal üçün platforma kimi rolu, beynəlxalq müştərək filmlərin çəkilişindəki prioritetlər, kinoteatr infrastrukturunun inkişafı, regionlarda yeni kinoteatrların açılması, dublyaj sənayesinin dəstəklənməsi, Türk dünyası ilə kino sahəsində birgə istehsalın (koproduksiya) təşviq olunması və digər mövzular üzrə fikir mübadiləsi aparıldı.

Daha sonra "Yaradıcı Azərbaycan" mövzusunda müzakirələrə start verildi. Mədəniyyət naziri Adil Kərimli açılış nitqində qeyd etdi ki, layihənin əsas məqsədi ölkəmizdə yaradıcı sənayelərin (MYS) inkişafı istiqamətində əldə olunan nəticələri işıqlandırmaq və atılacaq birgə addımları müəyyənləşdirməkdir:

– MYS-lər hazırda dünya miqyasında sürətlə böyüyən və iqtisadiyyatın ən çevik sahələrindən biri kimi önə çıxır, iqtisadi inkişaf və diversifikasiya üçün imkanlar təklif edir, mədəni və sosial dəyərlər yaradır. MYS-lər yaradıcılıq və intellektual kapitaldan əsas vasait kimi istifadə etməklə mədəni komponentli mal və xidmətlərin yaradılmasını, istehsalını və paylanmasını əhatə edir. Buraya reklam, memarlıq, incəsənət, dizayn, musiqi və kino istehsalı, nəşriyyat və videooyunlar kimi müxtəlif fəaliyyətlər daxildir.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar nəticəsində bu sahənin inkişafı Azərbaycan dövlətinin əsas prioritetləri sırasına daxil edilib. Dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planına uyğun olaraq, 2023–2024-cü illərdə strategiya çərçivəsində mühüm addımlar atılıb. Aidiyyəti qurumların iştirakı ilə mədəni və yaradıcı sənayelərin təsnifatlandırılması istiqamətində Azərbaycan Respublikasında MYS sahələrinə aid edilən iqtisadi fəaliyyət növlərinin, peşələrin (vəzifələrin), ölkədə istehsal olunan, ixrac olunan MYS məhsul və xidmətlərinin siyahıları hazırlanıb və təsdiq olunması üçün Nazirlər Kabinetinə təqdim edilib. Bundan əlavə, mədəniyyət və yaradıcı sənayelər üzrə xüsusi təqaüd proqramı təsis olunub. Hazırda, ümumilikdə, 20 tələbə müxtəlif ölkələrin aparıcı universitetlərində təhsil alır.

Sonra Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanov "Yaradıcılığı həyat tərzimizə çevirək" mövzusunda məruzə etdi. Elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədov və digər çıxışçılar MYS-lərin əhəmiyyətini yüksək qiymətləndirdilər.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova isə "Yaradıcı Azərbaycan – 2025" mövzusunda təqdimatla çıxış etdi.

Sonda nazirliyin yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov moderatorluğu ilə "Yaradıcılığa yatırım et!" mövzusunda təqdimatlar oldu.

***Fidan SALMANOVA***
***XQ***

**Tibb kitabxanası – 85**



# Səhiyyəmizin bilik xəzinəsi

**Özünəməxsus yubileyi qeyd edilən Respublika Dövlət Elmi Tibb Kitabxanası tipoloji baxımdan xüsusi elmi məbəddir. Kitabxana Azərbaycan SSR Xalq Komissarları Soveti tərəfindən 1939-cu ilin yanvarında yaradılıb və 1940-cı ilin martında fəaliyyətə başlayıb.**

Paytaxtın Yasamal rayonunda A.Şərifzadə küçəsində yerləşən, Səhiyyə Nazirliyinə aid olan bu "qocaman" kitabxana səhiyyə orqanlarını, elmi-tədqiqat və müalicə-profilaktika müəssisələrini, eləcə də xalqın sağlamlıq problemləri ilə məşğul olan alim və mütəxəssisləri kitabxana-biblioqrafiya və informasiya xidməti ilə təmin edir. Düz 85 ildir ki, ağxalatlı oxucuların, tibb mütəxəssislərinin xidmətindədir.

**Kitabxananın direktoru Yeganə Pirəliyevadır. Onun dedikləri:**

– Burada ilk direktor Məryəm Səmədova olub. Sonrakı dövrlərdə kitabxanaya Əli Mehdiyev, Raisa Perelman, Sara Mirişova, Tamilla Əliyeva, Aniyə Abuzərova, Rəna Pirverdiyeva rəhbərlik ediblər. Əvvəllər 2 otaqdan ibarət olan kitabxanamız indi 8 şöbəsi olan böyük bir məbəddir. Oxuculara xidmət üçün böyük oxu zalı (48 yer), ona bitişik növbətçi otağı, kiçik oxu zalı (18 yer) var.

Tibb kitabxanaları şəbəkələrinə təşkilati-metodik rəhbərlik həyata keçirilir və onların fəaliyyəti əlaqələndirilir. Səhəvi depozitar kitabxana və tibb elminin aktual problemləri üzrə vahid sorğu-məlumat fondlarımız var. Bilik məbədində, həmçinin rus, ərəb, fars, ingilis dillərində tibb elminin tarixinə və aktual məsələlərinə dair nəşrlər toplanıb.

Məlum olduğu kimi, təbabət digər elm sahələrinə nisbətən daha intensiv inkişafdadır. Buna görə də yubilyar kitabxanamızda istifadəçilərin informasiya tələbatını tədqiq etmək məqsədilə müxtəlif tədbirlər görülür. Şifahi sorğular, anketləşdirmə əsasında oxucuların maraq və meylləri, tibb işçilərinin bugünkü fəaliyyət istiqamətləri, ən müasir tibb sahələri aşkar edirik ki, bu da, öz növbəsində, fondun kompleksləşdirilməsində nəzərə alınır. Kitabxanada indi artıq əsas fond Azərbaycan, rus və digər dillərdə olan 55 min 867 nüsxə kitab, jurnal, avtoreferat və s. ibarətdir. Arxiv fondu da zəngindir. Burada toplanan kitablar, əsasən, XIX əsrin sonları–XX əsrin əvvəllərini əhatə edir.

2013-cü ilin iyun ayından etibarən burada Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ölkəmizdəki nümayəndələrinin təklifi və dəstəyi ilə "ÜST güşəsi" yaratmışıq. Həmin güşədə ÜST-ün bütün çap məhsulları (kitab, broşur, informasiya vərəqələri, jurnal, bülleten və s.), eləcə də elektron resurslar (CD) toplanıb. Bütün materiallar kitabxana qaydası üzrə texniki və elmi işləmədən keçib.

Onu da öyrəndik ki, kitabxananın elmi-metodik şöbəsi respublikanın 105 tibbi və elmi müəssisəsinin nəzdində fəaliyyət göstərən tibb kitabxanaları ilə əlaqədə çalışır. Bu sıraya 13 elmi-tədqiqat institutu, 8 tibb məktəbi, taun əleyhinə stansiya və onun 6 şöbəsi, Bakıdakı 5 şəhər klinik xəstəxanası və nazirliyə aid olmayan Mərkəzi Neftçilər Xəstəxanası, sanatoriyalar, 56 mərkəzi rayon və şəhər xəstəxanası, eləcə də Naxçıvan Muxtar Respublikasındakı analoji obyektlər daxildir. Bundan əlavə, kitabxanalarla zona seminar–treniniq məşğələlər keçirilir.

Kitabxanaya alınan yerli, xarici jurnal və qəzetlərin analitik təsvirləri elektron kataloqda verilir. Artıq yeni nəşrlər fondu, Ümumdünya Səhiyyə Təşkilatının nəşrlərindən ibarət kitab fondu elektron kataloqa salınıb. Hər il mütəxəssislər tərəfindən proqram yeniləşdirilir. Kitabxananın maddi-texniki bazasını gücləndirmək məqsədilə əlavə fərdi kompüter dəstləri, skanerlər, printerlər, lokal şəbəkənin genişləndirilməsi üçün lazımi avadanlıqlar alınıb. Kitabxananın bəzi əməkdaşları proqramla işləmək üçün treninq məşğələlərinə göndərilib. Digər əməkdaşlar isə kitabxananın daxilində keçirilən treninqlərdə İRBİS-64 proqramı üzrə işləmək üçün hazırlıqdan keçiblər.

Hazırda elektron kataloqa 21 mindədək kitab, 88 adda jurnal və qəzet, 48 mindən çox jurnal məqaləsi –biblioqrafik təsvir, elektron kitabxanaya isə 100 nüsxə kitab daxil edilib. Müxtəlif səpgili kitab sərgiləri oxucular arasında maraq doğurur. Sərgilər yeni daxil olan nəşrlər, respublikamızın görkəmli həkim-alimlərinə həsr edilmiş nəşrlər, müxtəlif əlamətdar hadisələr, aktual tibbi mövzularda ədəbiyyatdan təşkil olunur.

Yubiley günlərində Milli Kitabxanada istifadəçilərə təqdim olunan "Respublika Dövlət Elmi Tibb Kitabxanası – 85" adlı sərgi yubilyar elm və bilik xəzinəsi haqqında müfəssəl bilgilər verir. Sərgidə kitabxana işi haqqında rəsmi sənədlər, Azərbaycanda kitabxana işinin tarixi, Dövlət Respublika Elmi Tibb Kitabxanasının fəaliyyəti, nəşrləri, ölkəmizdə tibb elminə və səhiyyə müəssisələrinə kitabxana-informasiya xidmətinin təşkili haqqında kitablar, müstəqillik illərində Respublika Tibb Kitabxanasının fəaliyyəti və informasiyalaşma problemləri, vəzifələri, oxucularla işin spesifik xüsusiyyətləri və s. mövzularda elmi məqalələr nümayiş olunur.

***Ə.ƏLİYEV***
***XQ***

# Borçalı "Ölümsüzlər"i



**Rustavi Təhsil və Mədəniyyət Mərkəzində 44 günlük Vətən müharibəsində şəhadətə ucalmış Borçalı əsilli qəhrəmanlara həsr olunmuş "Ölümsüzlər" kitabının təqdimatı keçirilib.**

Azərbaycan və gürcü dillərində Tbilisidə nəfis tərtibatla çap olunmuş toplunun müəllifi şair-publisist Rafiq Hümmət kitab haqqında ümumi məlumat verərək borçalıların, bütövlükdə, Gürcüstanda yaşayan azərbaycanlıların həm Gürcüstanın, həm də Azərbaycanın azadlıq mübarizələrində daim ön sıralarda olduqlarını vurğulayıb.

Qaratəhlə kənd orta məktəbinin direktoru Bəhram İsayev, pedaqoq-publisist Savalan Osmanlı, Rustavi şəhər 18 saylı məktəbin və Qaratəhlə məktəbinin müəllimləri Mədinə Həsənova, Ülviyyə Veysəlova, Aygün Əliyeva, Sveta İsayeva, Dilbər və Nuranə Babayevalar çıxışlarında Azərbaycan və gürcü xalqlarının qəhrəmanlıq tarixindən söz açıb, hər iki xalqın ortaq dəyərlərini qorumağın vacibliyindən, "Ölümsüzlər" kitabının, bu mənada, xüsusi önəmindən bəhs ediblər. Abxaziyada qəhrəmancasına şəhid olmuş Ənvər Hümbətovun həyat yoldaşı Fatma Hümbətova şəhidlərin adının uca tutulmasına görə öz minnətdarlığını ifadə edib.

Müəllimlərdən Nurlana Əliyeva və Tsiuri Londaridze Rafiq Hümmətin "Şəhid nəğməsi" şeirini Azərbaycan və gürcü dillərində səsləndiriblər. Sonda jurnalist Azər Məmmədovun Vətən müharibəsində şəhid olan Borçalı əsilli qəhrəmanlara həsr olunmuş sənədli filmi nümayiş etdirilib.

***XQ***

# “Tərəfsiz İsveçrə”nin tərəfkeş siyasəti

**(əvvəli 1-ci səhifədə)**

İrəvanın rəsmi informasiya agentliyi “Armenspress” xəbər verir ki, “İsveçrə parlamentinin yuxarı palatası Dağlıq Qarabağ münaqişəsi üzrə beynəlxalq sülh konfransının təşkili ilə bağlı qətnaməni müzakirə edəcək”. Məlumatda qeyd olunur ki, martın 18-də İsveçrə parlamentinin yuxarı palatası – Dövlətlər Şurası Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı müzakirələr keçirəcək.

“Armenpress” xatırladır: “Hələ 2024-cü ilin oktyabrında İsveçrə Parlamentinin Milli Şurasının (parlamentin aşağı palatası) Xarici əlaqələr komitəsi ölkə hökumətini Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq sülh konfransı təşkil etməyə çağıran müvafiq qətnamə qəbul etmişdi”. Qətnamədə bildirilirdi ki, təşkil olunacaq konfransın məqsədi “beynəlxalq aktorların nəzarəti altında və ya iştirakı ilə erməni əhalisinin təhlükəsiz və kollektiv şəkildə qayıtması ilə bağlı Azərbaycan nümayəndələri ilə Dağlıq Qarabağ erməniləri arasında dialoqun aparılmasına yardım etmək” olacaq.

Sual olunur: İsveçrə nədən narahatdır? Azərbaycan 5 il öncə özünəməxsus ərazilərini işğalçılardan təmizlədi. İndi erməni barbarlarının xarabalığa döndərdiyi kəndləri, qəsəbələri, rayonları və şəhərləri yenidən cənnətə çevirir. Heç bir beynəlxalq maliyyə yardımı almadan “yazıq və məsum” erməni separatçılarının, yaraqlılarının dağıtdıqları əraziləri dirçəldir. Amma Qərbin bəzi ölkələri kimi İsveçrə də “bulanıq suda balıq tutmaq istəyir”, “sülh tənzimləməsindən, erməni qaçqınlarından” dəm vurur.

Halbuki Azərbaycan uzun illər ermənilərdən dostlarının, havadarlarının yardımı ilə oğurladıqlarını, qapazladıqlarını dinc şəkildə qaytarmalarını istəmişdi. Ötən otuz il ərzində ermənilər danışıq xatirinə danışıqlar aparmış və Azərbaycan torpaqlarından çıxmağı düşünmədiklərini nümayiş etdirmişdilər. Belə davranışın nəticəsi indi hamıya məlumdur: Azərbaycan beynəlxalq hüquq normalarına uyğun ərazi bütövlüyünü bərpa etdi.

İndi Azərbaycan və Ermənistan sülh danışıqları aparırlar. Doğrudur, proses arzulandığı kimi getmir və buna səbəb İrəvanın hələ də reallıqları həzm etmək istəməməsi ilə bağlıdır. Ermənistan hökuməti kənar qüvvələrin köməyilə regional gündəliyi dəyişməyə çalışır və İsveçrə kimi ölkələr sülhə qarşı çıxan ermənilərin dəyirmanına su tökürlər. Guya, “sülh tənzimləməsinə” həsr olunacaq konfrans keçirməklə İsveçrə Bakı ilə İrəvanı sülhə yaxınlaşdıracaq? Azərbaycanın mövqeyi bəllidir, Ermənistanın isə sürüşkən mövqeyi prosesin məntiqi sonluqla bitməsinə, yəni sülh müqaviləsinin imzalanmasına mane olur.

İrəvanı sülhə dəvət etmək əvəzinə, Bern fəal şəkildə Ermənistana yardım göstərir. Məsələn, 2023-cü ildə İsveçrə Ermənistana 1,5 milyon İsveçrə frankı ayırmışdı. Bu həmin ölkədir ki, hələ 2003-cü il dekabrın 16-da qondarma erməni soyqırımını tanımış və bu uydurma soyqırımını inkar edən şəxsləri cərimələyir. Ermənistana yardım etmək istəyini “tarixi əlaqələrlə, humanitar dəyərlərə sadiqliklə” əlaqələndirməyə çalışan bu Alp ölkəsinin “Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı müzakirələr” keçirmək istəyinə düşməsi siyasi motivlidir və Qərbin Cənubi Qafqaz regionunda ayırıcı xətlərin yaradılması tezislərinə uyğundur.

Əlbəttə, burada erməni lobbisinin də izi var. Hazırda İsveçrədə, təqribən, 6 minə yaxın erməni yaşayır. Saylarının bu ölkədəki türk icmasından az olmasına baxmayaraq, haylar isveçrəli siyasətçilərlə sıx əlaqələr qurmağı bacarırlar. İctimai təşkilatları, dərnəyi olan İsveçrə erməniləri Ermənistanın maraqlarını müdafiə etməyə çalışırlar. Bundan başqa, ermənilərin bu ölkədə “Artzakank” adlı qəzetinin, “Masis” adlı futbol klublarının da olduğu bildirilir. Çoxsaylı erməni təşkilatlarının mütəmadi olaraq xeyriyyə marafonları keçirmələri və toplanan vəsaitləri Azərbaycan Ordusunun cəhənnəmə göndərdiyi “dqr” rejiminə göndərdikləri də məlumdur. İsveçrə hökumətinin qondarma erməni soyqırımını tanımasında böyük rolu da məhz bu erməni təşkilatları oynamışdı.



Qərbdə də gözəl bilirlər ki, Azərbaycan sülh gündəmini fəal şəkildə təbliğ və inkişaf etdirir. Bakı davamlı sülh və sabitliyə nail olmaq üçün Ermənistanla danışıqların xarici maneələrə baxmayaraq, davam etdirilməsində maraqlı olduğunu göstərir. Amma Bakı heç bir halda tarixin gedişatını tərsinə çevirməyə imkan verməyəcək. Azərbaycan ədalətli və daimi sülhün tərəfdarıdır, bu prinsipə qarşı gedən qüvvələr anlamalıdırlar ki, Cənubi Qafqaz regionunda sülhə yalnız beyənlxalq qanunlara hörmət etməklə, bölgədə yaranmış yeni reallıqları qəbul etməklə nail olmaq mümkündür. Ermənilər də, Qərbdəkilər də bu həqiqəti nə qədər tez dərk etsələr, sülhə bir o qədər tez yaxınlaşarlar.

***S.ELAY***
***XQ***

**Dünən Səudiyyə Ərəistanının Ciddə şəhərində ABŞ və Ukrayna nümayəndə heyətlərinin görüşü olub. ABŞ tərəfini danışıqlarda dövlət katibi Marko Rubio və ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Mayk Uolts təmsil ediblər. Ukrayna nümayəndə heyətinə xarici işlər naziri Andrey Sibiqa, Prezident Ofisinin rəhbəri Andrey Yermak və müdafiə naziri Rüstəm Umerov daxildir. Tərəflər ABŞ-ın yardımının bərpası, eləcə də Ukraynaya kəşfiyyat məlumatlarının ötürülməsi ilə bağlı məsələləri müzakirə ediblər.**

# Qərb münaqişəsi Şərqdə çözülür



*Ukrayna və ABŞ diplomatları Səudiyyə Ərəbistanında görüşüblər*

Xatırladaq ki, dünən Ukrayna Prezidenti Volodimir Zelenski Səudiyyə Ərəbistanında işgüzar səfərdə olub. Lakin o, danışıqlarda birbaşa iştirak etməyib. Ukraynanın dövlət başçısı Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanla görüşüb.

Yeri gəlmişkən, ABŞ-ın dövlət katibi Marko Rubio da Ciddədə olduğu zaman Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi ilə görüşüb. Onlar ABŞ–Səudiyyə münasibətlərini gücləndirmək yollarını müzakirə ediblər.

Qeyd edək ki, Marko Rubio Ciddəyə gedərkən təyyarədə jurnalistlərə Ukrayna rəsmiləri ilə danışıqlarla bağlı gözləntilərindən danışıb. ABŞ-ın baş diplomatı hesab edir ki, Ukraynanın 2014-cü il sərhədlərinə qayıtması son dərəcə çətin olacaq. “Düşünürəm ki, hər iki tərəf bu vəziyyətin hərbi həllinin olmadığını anlamalıdır”, – o, deyib. Rubionun sözlərinə görə, Ukraynanın rusiyalıları hər hansı bir ağlabatan müddət ərzində 2014-cü ildə olduqları yerə qaytarması çox çətin olacaq.

Xatırladaq ki, ABŞ və Ukrayna arasında danışıqların birinci mərhələsi üç həftə əvvəl Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilib. Görüş ərəfəsində Ukrayna lideri ABŞ-la konstruktiv dialoqa tam sadiq olduğunu, lazımi qərarlar və addımları müzakirə edib razılığa gəlməyə ümid etdiyini bildirib.

Səudiyyə Ərəbistanına səfərindən sonra Marko Rubio martın 12-dən 14-dək “Böyük yeddilər” (G7) qrupunun xarici işlər nazirlərinin görüşü üçün Kanadanın Şarlevua şəhərinə yola düşməlidir.

Xatırladaq ki, Ciddə danışıqları ərəfəsində Rusiya və Ukrayna aviasiyaları bir-birinin ərazilərinə yüzlərlə dronla güclü hava zərbələri endiriblər. Rusiya Hava Hücumundan Müdafiə Qüvvələrinin yaydığı məlumata görə, dünən Moskva ətrafında və regionlar üzərində Ukraynaya məxsus 337 pilotsuz uçuş aparatı (PUA) vurulub. Ekspertlər qeyd edirlər ki, bu, 2025-ci il ərzində Ukraynanın Rusiya ərazisinə ən böyük hücum olub.

Rusiya hərbçiləri isə cəbhənin Kursk şəhəri istiqamətində hücumlarının kəsərini artırmağa çalışıblar. Mətbuata sızan məlumatlara görə, Rusiya Ordusu rəqibini xeyli sıxışdırıb. Lakin ukraynalılar isə qarşı tərəfə ciddi müqavimət göstərirlər.

Bu arada məlum olub ki, Böyük Britaniyanın Baş naziri Kir Starmer Ukrayna ilə bağlı növbəti beynəlxalq görüşü onlayn rejimdə keçirəcək. O, virtual sammitin martın 15-də baş tutacağını bildirib.

Qeyd edək ki, martın 2-də Londonda Ukraynaya yardımla bağlı 18 dövlət və birliyin nümayəndələrinin iştirak etdiyi sammit keçirilib. Görüşdən sonra Starmer Kiyevi dəstəkləmək üçün Avropanın bir çox dövlətlərindən ibarət koalisiya yaratmağa söz verib.

Yenidən Ciddəyə qayıdaq. Dünən Bakı vaxtı ilə saat 17:00 radələrində Ukrayna Prezidenti ofisinin rəhbəri Andrey Yermak yazmışdı ki, danışıqlar kifayət qədər konstruktiv keçir”...

**P.S.** Dünən axşam Bakı vaxtı ilə saat 20.00 radələrində məlum oldu ki, ABŞ və Ukrayna nümayəndə heyətləri arasında danışıqların birinci mərhələsi başa çatıb. Bu barədə “Al Arabiya” telekanalı məlumat yayıb.

Xəbərdə qeyd edilir ki, Ukraynanın xarici işlər naziri Andrey Sibiqa “X” sosial şəbəkəsindəki hesabındakı paylaşımında bildirib ki, “Ukrayna və ABŞ nümayəndə heyətləri arasında danışıqlar sülhün irəliləməsi üçün fürsət yaradıb”. Danışıqların ikinci mərhələsinin nə vaxt başlayacağı barədə hələlik məlumat yoxdur.

***Məsaim ABDULLAYEV***
***XQ***

**Yaşıl adalar**

# Bura məskənidir gözəlliklərin...

## *Söhbət Laçın Dövlət Təbiət Yasaqlığından gedir*



**Azərbaycanın təbiəti olduqca gözəl və əsrarəngizdir. Ölkəmizin saysız-hesabsız çöl və meşələrini, gül-çiçəkli çəmən və dağlarını gəzib-dolaşdıqca Ulu Tanrının xalqımıza necə böyük və əvəzsiz sərvətlər bəxş etdiyinin bir daha şahidi oluruq. Bugünkü nəsillər, təbii ki, bu böyük sərvəti qoruyub gələcək nəsillərə ötürməlidir. Azərbaycan dövlətinin ekoloji siyasəti məhz bu amala xidmət edir.**

Yeri gəlmişkən, son həftələr ərzində biz “Xalq qəzeti” olaraq qəzetin səhifələrində milli parklar və qoruqlarımız barədə silsilə yazılar hazırlayaraq dərc etmişik. Məqsədimiz oxucuları ölkəmizin ecazkar təbiəti, zəngin flora və faunası ilə yaxından tanış etməkdir. Bu dəfə isə Azərbaycan ərazisindəki ilk yasaqlıqlardan biri – Laçın Dövlət Təbiət Yasaqlığı barədə söz açmaq niyyətindəyik.

Qeyd etmək lazımdır ki, dövlət təbiət yasaqlıqları – təbiət komplekslərinin və ya onların komponentlərinin qorunması və ya bərpası, habelə ekoloji tarazlığın saxlanması üçün xüsusi əhəmiyyət daşıyan ərazilərdir. Bəllidir ki, yasaqlıqlarda ana təbiətimizə zərər vura bilən hər cür fəaliyyətlər qadağan edilir.

Məlumat üçün deyək ki, Azərbaycanda ilk yasaqlıq hələ 64 il əvvəl yaradılmışdır. 1993-cü ilə qədər yasaqlıqların yaradılması prosesi davam etdirilmişdir. 2003-cü ildə yenidən yasaqlıqların yaradılmasına başlanılmış və həmin ildə Qax, 2005-ci ildə isə Arazboyu və Hirkan, 2008-ci ildə Zaqatala, 2009-cu ildə isə Arpaçay və Rvarud dövlət təbiət yasaqlıqları təşkil edilmişdir.

Laçın Dövlət Təbiət Yasaqlığı 1961-ci ilin noyabrında Laçın rayonunun ərazisində yaradılmışdır. Ərazisi 20 min hektardır. Ərazi, əsasən, vələs, cökə, ağcaqayın, palıd cinsli meşələrdən ibarətdir. Ekspertlər qeyd edirlər ki, sahədə bir sıra heyvanların da məskunlaşması üçün əlverişli şərait vardır. Yasaqlıqda Bezoar keçisi, Avropa cüyürü, çöl donuzu, boz dovşan, boz canavar, adi porsuq, meşə dələsi, qonur ayı və sair məməlilərə, adi çil kəklik, Qafqaz tetrası, adi bildirçin, alabaxta kimi quşlara daha çox rast gəlinir.

Məlumdur ki, böyük strateji əhəmiyyət kəsb edən Laçın rayonu 30 ilə yaxın Ermənistan Silahlı Qüvvələrinin işğalı altında olmuşdur. Lakin xalqımız heç vaxt bu işğal aktı ilə razılaşmayıb. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsindən sonra, dekabrın 1-də Laçın rayonu işğaldan azad edildi.

Acı təəssüflə qeyd edək ki, işğal dövründə erməni vandalları tərəfindən ərazinin təbii sərvətlərinə və təbii mühitinə ciddi ziyan vurulub, meşələr qırılıb, təbii ekosistemlər məhv edilib və vəhşi heyvanlar öz yaşayış areallarını tamamilə itirib. Əslində, bu, ekoloji soyqırımı idi və Ermənistan hökuməti buna görə mütləq cavab verməli olacaq.

Hazırda işğaldan azad edilmiş ərazilərdə bioloji müxtəlifliyin mövcud vəziyyətinin öyrənilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyində yaradılmış İşçi qrupu fəaliyyət göstərir. Bu ərazilərdə flora və faunanın müxtəlif növlərinin bərpası işləri aparılır.

***M.HACIXANLI***
***XQ***

# “Keşikçidağ”da Novruz şənliyi



**“Keşikçidağ” Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində Novruz bayramı ilə bağlı mərasim keçirilib. Şənlik qədim musiqi alətlərimiz olan saz, qara zurna, nağara, ud sədaları altında, Kosa, Keçəl, Bahar qızın və milli geyimli gənclərin xüsusi bəzədilmiş Dilbaz atları ilə məclisə gəlişi ilə başlayıb.**

Tütək sədaları və sayaçı sözləri altında qoyunların ağıla gətirilməsi, milli geyimdə çiyinlərində səhənglə bulaqdan su gətirən qızların rəqsi, xalq oyunlarından olan “Kosa-keçəl”, “Dirədöymə”nin nümayişi, gənc qızların “Haxışta”, “Bayatı” söyləməsi, “Səməni”, “Uzundərə”, “Tərəkəmə” rəqslərinin ifası mərasimə xüsusi təntənə gətirib. Atların iştirakıyla yarış keçirilib, yarışın qalibinə kəlağayı hədiyyə edilib.

Şənlik Novruz tonqalının ətrafında “Yallı” rəqsinin nümayişi ilə yekunlaşıb.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 54 (30748) 12 mart 2025-ci il, çərşənbə

İdman

## Güləş millimiz 4-cü dəfə Avropa çempionu olub




**Albaniyanın paytaxtı Tiranada keçirilən U23 Avropa çempionatında sərbəst güləş yarışına yekun vurulub.**

Millimiz rekord göstəricilərlə ardıcıl 4-cü dəfə komanda hesabında Avropa çempionu olub. İlk dəfə 2022-ci ildə U23 Avropa çempionatında bu titula sahib çıxan sərbəst güləşçilərimiz artıq 4 ildir ki, baş mükafatı özündə saxlayır. Budəfəki uğur rekord göstəricilərlə əlamətdar olub. Millimiz həm topladığı xalın, həm medalların, həm də finalların sayına görə öz rekordunu yeniləyib.

Yığmamız ilk dəfə bu yarışda 10 çəkidən 9-da medal qazanıb. İlk dəfə 5 sərbəst güləşçimiz qitə birinciliyinin finalında güləşib. Komandamız yekun sıralamada 169 xalla toplamaqla özünün yeni xal rekordunu müəyyənləşdirib. Millimiz ən yaxın izləyicisi olan Türkiyəni 52 xal qabaqlayıb. Ukrayna 104 xalla üçüncü yeri tutub.

Xatırladaq ki, millinin tərkibində Arseniy Djioyev (86 kq) qızıl, Ceyhun Allahverdiyev (61 kq), Kənan Heybətov (70 kq), Ağanəzər Novruzov (74 kq) və Fərid Cabbarov (79 kq) gümüş, Rəhman İmanov (57 kq), Murad Haqverdiyev (65 kq), Sadiq Mustafazadə (92 kq) və Yusif Dursunov (125 kq) isə bürünc medal qazanıblar.

## Bakıda "Turan kuboku" keçiriləcək



**Milli Olimpiya Komitəsində (MOK) Avropa Kəndirlə Mübarizə Federasiyasının (ETWF) nümayəndə heyəti ilə görüş olub.**

MOK-dan verilən məlumata görə, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibi Azər Əliyev, MOK-un idman idarəsinin müdiri Həsənağa Rzayev, Avropa Kəndirlə Mübarizə Federasiyasının prezidenti Ralf Brauninger, qurumun baş katibi Anders Andersson, Azərbaycan Kəndirlə Mübarizə İdmanı Cəmiyyəti İctimai Birliyinin İdarə Heyətinin sədri Elnur Şıxəliyevin iştirakı ilə baş tutan görüşdə bu idman növü ilə bağlı müzakirələr aparılıb.

MOK-un baş katibi Azər Əliyev ölkəmizdə idmanın inkişafı istiqamətində görülən işlər və qazanılan uğurlar barədə qonaqlara ətraflı məlumat verib. O bildirib ki, Milli Olimpiya Komitəsi Avropa Kəndirlə Mübarizə Federasiyasına ölkəmizdə bu idmanın inkişafı üçün lazımi dəstək göstərməyə hazırdır.

Səmimi görüşə görə təşəkkürünü bildirən beynəlxalq federasiyanın prezidenti almaniyalı Ralf Brauninger ölkəmizə səfəri barədə danışıb. O, səfər çərçivəsində kəndirlə mübarizə idman növünün inkişafı üçün bir sıra görüşlərdə iştirak etdiyini qeyd edib. Qonaq martın 9-da Abşeron Olimpiya İdman Kompleksində idmançılar, məşqçilər və hakimlər üçün seminar keçirildiyini qeyd edərək öz təcrübəsini yerli idmançılarla bölüşdüyünü bildirib.

Ralf Brauninger, həmçinin iyun ayında Bakıda kəndirlə mübarizə idman növü üzrə beynəlxalq səviyyəli "Turan Kuboku"nun keçiriləcəyini bildirib.

Görüş zamanı Azərbaycanda kəndirdartma idman növünün inkişafı istiqamətində görülən işlər, Avropa Kəndirlə Mübarizə Federasiyası ilə əməkdaşlıq imkanları və digər məsələlər müzakirə olunub.

*Leyla QURBANOVA*
*XQ*

"Sabunçuavtomatikaquraşdırma" ASC səhmdarlarının nəzərinə!

2 may 2025-ci il saat 10.00-da səhmdar cəmiyyətin illik ümumi yığıncağı keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***

1. Səhmdar cəmiyyətin 2024-cü il üçün balans yekunlarının təhlili .
2. "Sabunçuavtomatikaquraşdırma" ASC -nin icra orqanının seçilməsi.
3. Dividendlərin bölünməsi.
4. 2025-ci ildə qarşıda duran məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

**Telefonlar – 450-93-19, 450-98-26.**
**Ünvan – Bakı şəhəri, Sabunçu qəsəbəsi, Ə.Bağırov küçəsi 10.**



# Cüyürlər Göygöldə yollara çıxıb...



**Yazın gəlişi təkcə insanları sevindirmir. Bu günlər kimin yolu göllərin tacı Göygölə düşsə, bunu öz gözləri ilə görə bilər. Əriyən qar yollarda gediş-gəlişi "nizama salmaq"la yanaşı, neçə aydır "yorğanında" gizlətdiyi gülü-çiçəyi, hamının sevə-sevə əzizlədiyi novruzgülünü də üzə çıxarır, bahara "xoş gəldin" deyir.**

Bir tərəfdən də "əriyib suya dönərsən"lərin şırıltılı nəğmələri neçə vaxtdır gizlənən quşların cikkiltisinə qarışır. Bir qədər də keçəcək, bu nəğmələrə bülbüllər qoşulacaq, sehrli avazları Göygöl meşələrini bürüyəcək.

Təbiətin elə bir vaxtıdır ki, insana hər şey xoş gəlir. Qarın altından cücərən bir yarpaq da, hələlik yuvalarından uzağa getməyə cürət etməyən qarışqalar da, ağacdələnin tıqqıltısı da... Bu tərəfdən də artıq yollara çıxmağa cəhd edən cüyürlər...

Həmişəki kimi ürkəkdirlər. Amma yola çox yaxın gəlirlər, sanki insan nəfəsi üçün qəribsəyiblər, darıxıblar. Əvvəllər yola çıxdı nədi, heç meşənin dərinliklərindən çıxmırdılar. Çünki bəzi "təbiətsevərlər" öz "məhəbbət"lərini daşla-kəsəklə, sapandla bildirirdilər.

Qoruğun direktoru, təpədən-dırnağadək təbiət aşiqi Fuad Quliyev maşınını bir kənara çəkib deyir: "Baxın, bir neçə il əvvəlki cüyürlər deyil, heç qorxmurlar, bilirlər ki, onların hər anı nəzarətimizdədir". Sonra da əlavə edir ki, "cüyürlərin xətrinə dəyənləri öz körpə balalarının xətrinə dəyən" kimi qiymətləndirirəm, hələ cəzaları dursun bir yana".

Fürsətdən istifadə edib asfalt yola çıxan bir neçə cüyürün şəklini çəkirəm. Hərəkətimi görüb qaçsalar da, Fuad müəllimin dediyi kimi, "asta qaçan namərddir" məsəlindən çox uzaqdırlar. Meşənin dərinliklərinə gedən cüyürləri də izləyə bilir, obyektivin yaddaşına salıram…

Marallardan, cüyürlərdən söz düşmüşkən, bu gözəl canlılar olmadan Göygöl Milli Qoruğunu təsəvvür etmək, sadəcə, mümkün deyil. Hətta Maralgölün adının təsadüfən yaranmadığı həmin mənbələrdən qaynaqlanır. XII əsrdə baş vermiş məlum dağıdıcı zəlzələdən sonra yaranan Maralgöl haqqında çoxlu əfsanələr var.

Onlardan birinə görə, Gəncə xanı həmişə yaz-yayı Kəpəzin yamaclarında keçirirmiş. Xanın sürüsünü otaran gənc çobanın sevdiyi Maral adlı bir qızı varmış. Maral da onu sevirmiş, amma şərt qoyubmuş ki, kim Kəpəzin qoynunda quruyan gözəl gölə su aparsa, ona ərə gedəcək. Aşiq gənc qızın arzusunu yerinə yetirir. Bundan sonra onun çəkdiyi çeşmə "Xan qızı bulağı", göl isə Maralgöl adlanır. Bu, bir versiya.

Digər məlumata görə, XII-XIII əsrlərdə, xüsusilə yay aylarında Maralgöldə o qədər maral olurmuş ki, çox zaman suyun üzü görünmürmüş. Ona görə də gölü sonradan belə adlandırıblar.

Nə isə...Rəvayət rəvayət yerində, əsas odur ki, bu mart günlərində, qışın yaza "indi sən gəl" dediyi ərəfədə cüyürləri, maralları gördüm. Elə sevindim, elə sevindim…Yadımda daha çox ağıllı gözləri qaldı. Sanki, təbiətin oyanış sevincini bizimlə bölüşmək istəyirdilər. Bölüşdülər də. Mən də sizinlə bölüşdüm.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

**Göygöl**

# Laçın aeroportuna xidməti işçi yığılır

**Böyük Qayıdış Proqramına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərə köçürülən sakinlər üçün aktiv məşğulluq proqramlarını davam etdirir.**




Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, agentlik tərəfindən "Azərbaycan Hava Yolları" QSC (AZAL) ilə birgə Laçın rayonunda əmək yarmarkası təşkil olunub. Yarmarkada bu il Laçında istifadəyə veriləcək Beynəlxalq Hava Limanında uçuşların elektrik-işıq texniki təminatı, rabitə, aerodrom istismarı, aviasiya təhlükəsizlik xidməti, texnoloji avadanlıqların istismarı, təmiri sahəsi və s. işlər üzrə 110-dan çox vakansiya təqdim edilib.

Yarmarkada sakinlərə vakansiyalar, iş öhdəlikləri haqqında məlumat verilib. Müraciət edən şəxslərin CV-ləri qəbul edilərək nəzərdən keçirilib, uyğun namizədlərin qeydiyyatı aparılıb.

Həmçinin tədbirə qatılan şəxslərə işğaldan azad edilmiş ərazilərimizdə icra olunan aktiv məşğulluq proqramları barədə də məlumatlar verilib.

*XQ*

Sağlamlıq

# Baş ağrısına təbii çarə – nə cürə?

**Başda müxtəlif səbəblərdən bəzən uzunmüddətli, bəzən də tez keçici ağrılar olur. Miqren isə dərmanla belə səngiməyən güclü baş ağrısı hesab edilir.**



Nevropatoloqlar miqren tutmaları zamanı ağrıları xəfiflədən ənənəvi dərmanlardan başqa, təbii vasitələrin də kömək etdiyini bildirirlər. Xalq təbabəti reseptləri isə, az da olsa, öz müsbət təsirini göstərir. Fitoterapevtlər miqren ağrısını yüngülləşdirən təbii vasitələrdən istifadə qaydasını açıqlayıblar.

**Bal, yaxud şəkər ilə yaşıl çay.** Bu, miqren sancısını aradan qaldırmağın sürətli və əlverişli bir yoludur. Belə çayı həkimlər ilk yardım kimi də tövsiyə edirlər.

**Xüsusi məhlul.** 1 xörək qaşığı duz, 1 litr su, 10 millilitr kamfora spirti qarışdırılır. 1 həftə sərin yerdə saxlanılır. Şiddətli baş ağrısı başlayanda həmin məhluldan 1 çay qaşığı 1 stəkan təmiz suya əlavə edilib içilir.

**Alma sirkəsi.** Miqren tutmalarında qaranlıq otaqda uzanıb, boyunu, başı alma sirkəsi ilə masaj edib, eləcə də 1 stəkan suya 1 qaşıq sirkə qatıb içmək lazımdır.

Bütün bunlar ənənəvi dərmanlar kimi kömək etməsələr də, ağrıları yüngülləşdirir. Ənənəvi tibbdə isə miqrenin müalicəsi üçün müasir protokollar və yeni dərmanlar var.

*Z.HÜSEYNLİ*
*XQ*

HAVA

# Bakıya duman gəlib...



**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 3-7° isti, gündüz 12-17° isti olacaq.

Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 60-65 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə arabir duman olacağı gözlənilir. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 3-8° isti, gündüz 18-23° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 10-15° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

✓ *"RAMON" MMC-yə məxsus dairəvi möhür və hüquq müəyyən edici sənədlər itdiyi üçün etibarsız sayılır.*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*Baş ofisə və tabeliyindəki idarələrə tələb olunan yuyucu vasitələrin satın alınması məqsədilə*

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il aprelin 1-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1219.**
**Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.**

ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi aparat rəhbəri Xudayət Həsənliyə atası

İSKƏNDƏR HƏSƏNLİNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3373
SİFARİŞ 483
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00